*Dərviş Osman Əhmədoğlu*

# MƏN BORÇALIDA QALDIM

**Bakı – 2021**



Mirvarid Dilbazi Məclisi

Bu kitab "Mirvarid Dilbazi Məclisi"nin təşəbbüsü ilə Dərviş Osman Əhmədoğlunun əziz xatirəsinə həsr olunur.

Redaktor: **Güllü Eldar Tomarlı**
Texniki redaktor: **Vüsal Əmirov**
Məsləhətçi: **Savalan Osmanlı**
Toplayan, dizayn və tərtib: **"Mirvarid Dilbazi Məclisi" araşdırma qrupu**
**Əlaqə: 055 622 51 13**
**mirvarid.dilbazi@mail.ru**

**Dərviş Osman Əhmədoğlu**
**"Mən Borçalıda qaldım"**
Bakı, "Ləman nəşriyyat poliqrafiya MMC",
Bakı – 2021, 272 səh

Kitabda mərhum şair-publisist Dərviş Osman Əhmədoğlunun işıq üzü görməyən poeziya nümunələri, şairlərin və saz-söz adamlarının şeirləri, ürək sözləri yer alıb. İnanırıq ki, "Mən Borçalıda qaldım" kitabı həm şairin ruhunu, həm də oxucuları sevindirəcək. Kitabın hazırlanmasında maddi və mənəvi dəstək olan hər kəsə təşəkkürümüzü bildiririk.

Ə 47202060000-69 / 2021
© "Ləman nəşriyyat poliqrafiya" MMC, 2021

## *ÖN SÖZ*

Onu lap əvvəldən Osman Əhmədoğlu kimi tanıyırdım: səsindən – nəfəsindən od püskürən bir ər oğlu əriydi, saz-la-sözlə nəfəs alırdı, ləhcəsində, danışığında Borçalı şirinliyi, Borçalı kolariti təkrarsız bir axarla dalğalanırdı. Türk ruhu, türk qeyrəti canından – varlığından şah damar kimi gəlib keçirdi, bu səbəbdən də bir müddət sonra onu meydanlarda "Osman Əfəndi" adı altında hayqıran, nərə çəkən, eli-ulusu başına cəm eləyib torpaq-yurd uğrunda çarpışan mərd bir ərən kimi gördüm. Səsi Borçalıdan, Bakıdan, Qarabağdan, Naxçıvandan, Qars – Ərzurumdan, İstanbuldan boy göstərib haray çəkə-çəkə Türk-Turan dünyasını öz haqqını tanımağa-savınmağa çağırırdı. Elə buradaca qədirşünaslıqla onu da deməliyəm ki, XX əsrin sonlarında Borçalı mahalının, Borçalı yurdunun duruş gətirib öz yerində qayım-qədim olmasında unudulmaz zəhməti-xidməti olan adamların içində Osman Əhmədoğlunun – Osman Əfəndinin yeri ayrıcadır. Bu məqamda onun göstərdiyi ziyalı həssaslığı və əsgər ayıq-sayığlığı, özü kimi el-obanı ayaq üstündə dimdik saxlamaq iradəsi və bacarığı yaddan çıxmayan bir tarixdir.

Mən onu həmişə cavan və enerjili bir türk bahadırı kimi görmüşəm. Ancaq son illərdə baş tutan bir görüşümüzdə Osmanı ayrı bir əhvalda gördüm. Müdrüklüyün, dədəliyin, dərvişliyin içindən boylanırdı o. Yunus Əmrə, Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Ələsgər dünyasından ağır-ağayana bir yerişlə, fəlsəfi addımlarla gəlib sirli-sehirli bir aləmə gedənə oxşayırdı. Söhbətimiz boyu xeyli sayda maraqlı şeirlər oxudu – haqq dərgahın-

dan,Tanrı aləminin sirlərindən, möcüzəli kəramətlərdən söz açdı. Gördüm ki, indi qarşımda tamam başqa bir adam dayanıb: "Dərviş Osman" təxəllüsü daşıdığını və yaşının da 70 olduğunu onda bildim. Baxdım ki, qarşımda gerçəkdən də üzünur-sözünur bir dərviş dayanıb. Barmağımı dişləyib düşündüm ki, gəlimli-gedimli dünya elə bu cürdü – başlanğıcda dəli-dolu bir Koroğlu bahadırı olursan, sonra isə sirli və anlaşılmaz nəhəng zaman dəyirmanına baxıb Dərviş kimi köks ötürürsən. Osman bunun hamısını gördü, yaşadı...

Saz vurğunuydu, söz dəlisiydi. Sinəsi, ürəyi dərin məhəbbətlə doluydu. Sazın – sözün Borçalı beşiyi onun laylasını gözünü açandan elə çalmışdı ki, heç zaman bağlı olduğu üç müqəddəs keyfiyyətdən qopub ayrıla bilmədi – sazdan, sözdən və Borçalıdan. Bəlkə elə ən böyük qazanc da bu idi:

***Borçalı deyəndə göynəməsəydi,***
***Qanı qayır-qayır qaynamasaydı,***
***Toyda"Ürfanı" ya oynamasaydı,***
***Osman-həmən Osman olardımı heç?!***

Məncə, Osman Dərvişi təqdim edən bu poetik deyimlər gerçəyi çox yansıdan həqiqi və bənzərsiz bir avtoportretdir.

Möcüzəli bir adamıydı Dərviş Osman. Hər gün, hər saat sazın-sözün içindəydi. Böyük aşıqlarla yaxından ünsiyyəti varıydı; Dədə Əmrahın, Hüseyn Saraclının, Xan Kamandarın yaxın sirdaşı və dostuydu. Nədənsə, mən onu Hüseyn Saraclıya daha yaxın bilirdim...

İndi sizə təqdim olunan bu kitabı oxuduqca Dərviş Osmanı bir dastan qəhərmanı kimi də görürəm. Elə bilirəm ki, bu dastanı mütləq ustad Hüseyn Saraclı danışacaq və bizi sirli bir aləmə çəkib aparacaq. Maraqlıdır ki, bu gözəl şeirlər toplusu – "Mən Borçalıda qaldım" kitabı boyu hər söz, hər misra sazdan keçib gedir. Kitabın girişindəki "Sazım" rədifli irimiqyaslı "Müxəmməs-poema"dan başlayan bu yol "Şair Ağacan" poemasına qədər uzanır. Bir ömür və könül yolunu çevrələyən bu epik-lirik təqdimat Dədə Qorquddan klassik ustad sənətkərlara, oradan da çağdaş aşıqlara qədər davam edir və adamda xoş əhval və qürur yaradır. Borçalı, Təbriz, Qars, Göyçə, Dərbənd boyunu göz önündə dalğalandıran qoşma-gəraylılar. Dərviş Osmanın tarixi-mənəvi varlığımıza dərin köklərlə bağlılığından xəbər verir.

...Bir müddət öncə Borçalıdan ağır bir xəbər bizləri sarsıtdı. Gözlənilmədən Dərviş Osmanı itirdik. O, canından əziz bildiyi ulu Borçalı torpağına qovuşdu. Osmanın itkisi sarsıdıcı və ağrıdıcıdır. Bircə təsəllimiz var ki, o da Dərviş Osmanın üz qoyduğu torpağın ulu Borçalımızda yeni bir ziyarət yerinə çevrilməsidir.

Dünən sazı ruhunda yaşadan,bu gün isə sazın ruhunda yaşayan Dərviş Osman! Yeni "Mən Borçalıda qaldım" kitabın mübarək olsun!

**Məhərrəm Qasımlı**
*Azərbaycan Aşıqlar Birliyinin sədri,*
*Əməkdar elm xadimi, professor*
*10.02.2021*
*Bakı*

## *ÖZÜ GETDİ, SÖZÜ VƏ NƏĞMƏLƏRİ YADİGAR QALDI*

Xoş o elin halına ki, onun Dərviş Osman kimi yaddaşlarda məskən salan kişiləri var. Son mənzilə yola saldığımızdan hələ bir il ötməyib. Amma onsuzluğuna indiyədək öyrəşə bilmədiyimiz boş yeri bundan sonra da ürəkləri göynədəcək. Niyəsini məntiqi fikirlərlə əsaslandıracam.

Tərif naminə demirəm. Doğulub boya-başa çatdığım Gürcüstanın böyüklü-kiçikli elə kəndi yoxdur ki, nümunəvi insanlar sarıdan korluq çəksin. Soydaşlarımız sözün əsl mənasında zəhmətkeşdir, qurub-yaradandır, elmə, təhsilə meyillidir, həmin sahələrdə öz sözlərini deyəndir, yaradıcılığa dəyər verəndir. Misallar gətirməyə nə ehtiyac, saylarının çoxluğundan bu bolluğun yaratdığı problem öz sözünü deyəcək. Fəqət bir daha vurğulamaq istərdim ki, xoş o elin halına ki, şöhrəti, xətir-izzəti bir kiçik kəndin – Keşəlinin hüdudlarını aşaraq bütün Gürcüstanda dolaşan Dərviş Osmanı – Osman Əhmədoğlusu var.

Gəlin Borçalımızın tanınmış şairini, publisistini, jurnalistini dostlarının, yaxınlarının, telli saz ustalarının ötən ilin martında son mənzilə necə məyusluqla yola salmalarını xatırlayaq. Gürcüstanın Aşıqlar Birliyinin sədri olmasını da bir kənara qoyub bu ehtiramın nədən qaynaqlandığının əsas tərəfinə keçək. O, sözün əsl mənasında ictimai xadim idi. Bədii söz ustası, sinədəftər natiq, xeyirxah əməllər sahibitək də ... imicin ola bilər. Fəqət bölgənin hüdudlarından kənarda ictimai xadim olaraq qəbul edilirsənsə, bu, həsəd aparılmalı xoşbəxtlikdir. Dərviş Osman uzun illərin xidmətləri ilə bunu haqq etdi.

Bax, burada təkrarən fikrimə qayıtmaq istəyirəm: xoşbəxt o elin halına ki, Dərviş Osman kimi mübariz, bütövlükdə nayihənin təəsübünü çəkən, sözü məqamında, cəsarətlə deyən kişilər sarıdan korluq çəkmir.

4-5 il əvvəlin söhbətidir. Marneulidə yerli mətbuatın problemlərinə aid görüş keçirirdik. Dərviş Osmanın çıxışına qədər elə təsəvvür yaranırdı ki, işlər tam qaydasındadır. Onun sözləri məclisi əməlli-başlı canlandırdı,Gürcüstandakı azərbaycandilli mətbuatın durumunun acınacaqlı olmasını konkret misallarla əsaslandırdı. Bir deyimi indiyədək hafizəmdədir: "Mətbuat, tarixi yaddaşlara hopdurur, o yoxsa, xalq əriyib gedə bilər". Xahiş etdi ki, azərbaycandilli mətbuatın problemlərini Gürcüstan rəhbərliyi qarşısnda qaldıraq, qaldırmaqla kifayətlənməyək, məsələni müntəzəm diqqətdə saxlayaq.

Tövsiyyəsini yaddan çıxarmadıq, müvafiq dairələrlə söhbətlər apardıq.

Dərviş Osman media üçün yazdıqlarını ilk növbədə xalq və ictimaiyyət üçün nəzərdə tuturdu. "Yeni yol" qəzetinin redaktor müavininin, "Dədə Qorqud" dərgisi rəhbərinin "Osman Keşəli", "Osman Əfəndi", "Dərviş Osman" imzaları ilə işıq üzü görməsi yazılarına daim oxucu tələbatından irəli gəlirdi.

Məni şairin 1989-cu ildə Bakıda "Yazıçı" nəşriyyatında çıxan ilk kitabının adı uzun müddət qayğılandırdı: "Borçalıda ocaq yanır". Çox düşündürücü ad seçib. Sərlövhə Borçalıdakı ocaqlarımızın sönməyə istiqamətlənən prosesin acınacaqlı tendensiyaya çevrilmə təhlükəsinin baş qaldırdığı bir vaxtda seçilmişdi. İndi qədim dədə-baba yurdlarımızda salamatçılıqdır, çünki Dərviş Osman

kimi kişilər sözlərini vaxtında deyiblər, həyəcan təbilini vaxtında səsləndirblər.

Şairin, jurnalistin imzalarından Dərviş Osman daha düşündürücüdür. Bilirsiniz, bədii yaradıcılığımız klassikadan uzaqlaşdıqca dünyəvi kəlamların da mənasını az qala tərcüməçilər vasitəsilə öyrənməli oluruq. Ulu Nəsimini yada salaq. Dərvişlər xüsusi libasları ilə elləri dolaşıb ruhani fikirləri ilə carçılıq ediblər. Osman da şeirləri ilə, nəğmələri ilə türk dünyamızın Dərviş kimi seyrinə çıxmışdı, özü getdi, sözü və nəğmələri yadigar qaldı.

**Əflatun Amaşov,**
*əməkdar jurnalist*
*17.02.2021*
*Bakı*

## Sazım

*(müxəmməs – poema)*

İbtida ki, Əlif Allah,
Peyğəmbəri tanı sazım.
Dilimizin bəzəyi bil,
Ol qızıl quranı sazım.
Bəzən haqqın qüdrətinnən,
Gəşt elə dünyanı sazım.
Uluların ulususan,
Gördün çox dövranı sazım.
Sana çoxdan dərs olubdu,
Ol, Nuhun tufanı sazım.

* * *

Qalu bəladan gələnik,
Hər bir şeyin öz vədəsi.
Yaradanın öz hökmüdü,
Hər gələn bir gün gedəsi.
Öz haqqına varan kəslər,
Çəkə bilməz ayrı bəsi.
Hərəyə bir pay verilib,
Hərə haqqın bir bəndəsi.
Səni bir ərmağan bildi.
Dədə Qorqudun Dədəsi,
Boy boyladı, soy soyladı,
Oyatdı cahanı sazım.

Gəşt eylədi Yunus Əmrə,
Haqqa pənah deyə-deyə.
Gecə-gündüz zikr elədi,
Ulu Dərgah deyə-deyə.
Axdı coşan irmaq kimi,
Allah-Allah deyə-deyə.
Döndü islam bülbülünə,
Getsin günah deyə-deyə.
Hamıdan əvvəl görmüşdün,
Ondakı imanı sazım.

* * *

Bir işıqsan, yaraşıqsan,
Öz kökümə, ocağıma.
Bu sinəmi Vətən bilib,
Sığınarsan qucağıma.
Zaman-zaman kök atıfsan,
Həm soluma, həm sağıma.
Bir çeşməsən, can verirsən,
Sən mənim can otağıma.
Hər telin öz aləminin,
Şöhrəti, həm şanı sazım.

Bir loğmansan zil üstündə,
Ondan bir az bəmin gözəl.
Cəngilərin təpər verər,
Endirəndə dəmin gözəl.
Gahdan olur qəhqəhəsən,
Dilqəm üstə qəmin gözəl.
Köyrələndə göz yaşısan,
Kipriklərdə nəmin gözəl.
Öz nuruna qərq edirsən,
Qaranlıq səhranı sazım.

* * *

Səni sevdi Qaracoğlan,
Türküstana car elədi.
Cəh-cəh vurdun sinəsində,
Hər bir kəsə yar elədi.
Layla çaldın obalarda,
Oymaqlarda var elədi.
Karvankeçməz yollar aşdın,
Atına süvar elədi,
Mehman oldun könüllərə,
Sürdükcə dövranı sazım.

Hünərinə sinə gərdi,
Ərəb atlar aşdı dağı.
Meydan aldı Əfşar oğlu,
Gəşt elədi solu-sağı.
Əyilmədi fərmanlara,
Yurdu bildi hər torpağı.
Padışahlar fərmanına,
Saz üstündə çəkdi dağı.
Meydanlarda sancaq asdı,
Nərə çəkdi söz mızrağı.
Dadaloğlunun fərmanı,
Pozdu çox fərmanı sazım.

* * *

Düşdün haqqın cığırına,
Yolun açıq göydə, yerdə.
Sənə heyran insan oğlu,
Bir əlacsan hər bir dərdə,
Səni halal dost anlayar,
Sirr verməzsən hər namərdə.
Qədəm basdın şah taxtına,
Dilləndikcə pərdə-pərdə.
Avazınla dastan oldu,
Bil aşıq Qurbanı sazım.

Mən qurbanam Tanrı sana,
Dünyanı başdan yaratdın.
Yerlə göyü xəlq elədin,
Hər şeyi başdan yaratdın.
Yerdə quru toxum bitməz,
Cücərtdin, yaşdan yaratdın,
Yaxşı üçün körpü düşən,
Sarayı daşdan yaratdın.
Bayatılar sinəsində,
Səni çəkdi canı sazım.

* * *

Abbasa buta verildi,
Necə gəldi nur gözünə.
İçdi eşqin badəsini,
Haray çəkdi öz-özünə.
El yığıldı avazına,
Aləm heyrandı sözünə.
Zulumlara sinə gərdi,
Könül verdi şah qızına.
Canını qurban elədi,
Quyuda da Gülgəzinə.
Bu aləmə nişan verdi,
Yurdu Tufarqanlı sazım.

Kimlər sənə urcahdısa,
Haqq yoluna düçar oldu.
Nurlu üzün dörd bir yana,
Təbəssümlər saçar oldu.
Namərd olan meydanından,
Addım-addım qaçar oldu.
Hər bir xalın, hər bir gülün,
Qanad açdı, uçar oldu.
Tikmədaşdı Xəstə Qasım,
Sirri-sehrə açar oldu.
Bu aləmə görk elədi,
Hər cürə yalanı sazım.

* * *

Haqq tərəfdən nida gəldi,
Sən bu sazı al dedilər.
Zamanlara meydan oxu,
Bu dünyaya çal dedilər.
Tarixlərdə dastan oldun,
Pir Sultan Abdal dedilər.
Bir kimsəyə özün verdin,
Bu boyda imkanı sazım.

Qoca dünya külə döndü,
Hər yan bağça-bağ aşığa.
Qəvvas oldu ümmanlara,
Təslimdi hər dağ aşığa.
Cövlan etsə şiri-nəri.
Meydandı sol-sağ aşığa.
Ustadların ustadıdı,
Rəhmət olsun Ağ aşığa.
Neçə-neçə çıraqları,
Oldu el ozanı sazım.

* * *

Neçə-neçə ustadların,
Taleyini kəm elədin.
Zil kökünə əl gəzdirdin,
Asta-asta bəm elədin.
Məhvərinnən dəyişdirdin,
Başqa bir aləm elədin.
Zülm elədin Yahya bəyə,
Dərd əhli Dilqəm elədin.
Didərgin dərviş elədin,
Çox şahı-sultanı sazım.

Ətrafına işıq saldı,
Neçə aşıq saz əlində.
Yazı yazan belə yazmış,
Hər şey onun öz əlində.
Qoca Tanrı yaradanda,
Nə karəyik biz əlində.
Yaran-dedi, yaradıldı,
Kainat bir söz əlində.
Hər sözə bir sığal verdin,
A haqqın nişanı sazım.

* * *

Səsin əzəl haqqın payı,
Ən müqəddəs paydı bizə.
Tarixlərin dastanını,
Fəsil-fəsil yaydı bizə.
Sinəmizdə yuva qurdun,
Gör nə qədər paydı bizə.
Koroğlu tək at oynatdıq,
Xeyir-duan dəydi bizə.
Çöyrüldün aşıq Cununa,
Dolaşdıq hər yanı sazım.

Bu dünyanı gəşt elədi,
Söz ustadı aşıq Alı.
Dilimizə bal bələdi.
Saz ustadı aşıq Alı.
Üzü haqqa gedənlərin,
Düz ustadı aşıq Alı.
O Göyçəli Ələsgərin,
Öz ustadı aşıq Alı.
Sənnən aldı öz dərsini,
Neçə gövhər-kanı sazım.

* * *

Çağırdı Adil Sultanı,
Aldı ulu ad Ələsgər.
Sazımızda, sözümüzdə,
Baldan şirin dad Ələsgər.
Dodağında inci-mərcan,
Sinəsində od Ələsgər.
Nə qədər saz aləmi var,
Ən böyük ustad Ələsgər.
Adı dillər əzbəridi,
Ərşdədi elanı sazım.

Səfil Şennik bir ad qoydu,
Nura döndü Çıldır eli.
"Keçən günə günnər çatmaz".
Nə xoş demiş ozan dili.
Açdı ümman sinəsini,
Xırd elədi qəlbi dolu.
Dastanları dil əzbəri,
"Sövdəgər"i, " Dürrətel"i.
Yüz dinləsən doyammazsan,
Qızıldı hər anı sazım.

* * *

Canında bir atəşi var,
Yox eyləyər qar-boranı.
Umudsuzlar əl uzatsa,
Həmən bularlar çaranı.
Dərdlilərə məlhəm olar,
Özü sağaldar yaranı.
Gedəni yoldan qaytarar,
Telləri tel-tel daranı.
Ağır durar, batman gələr,
Dinəndə "Urfanı" sazım.

Aşıq Omar ümman oldu,
Keçəmmədik adasını.
Haqqın özü pay vermişdi,
Küfdadiyə badasını.
Nihani bir meydan aldı,
El bilirdi sədasını.
İzanı qurula qala,
Görən yoxdu odasını,
Giryanı çoxdan almışdı,
Mərd meydanın qadasını,
Sanki bir ağrı dağıdı,
Bu aşıq Sümmani sazım.

* * *

Neçəsinə zulm elədin,
Göz yaşları selə döndü.
Qərib getdi qürbət elə,
Dönüş yeddi ilə döndü.
Tahir ağlar Zöhrəsini,
Dəryalarda sala döndü.
Ziyadoğlu bir ah çəkdi,
Əsli üçün külə döndü.
Axır didərgin elədin,
Bu Növrəs İmanı sazım.

Yır-yığışdır sən elləri,
Bu aləmi bir can elə.
Aşiqləri qoy  yarısın,
Seyraqıbı şan-şan elə.
Eşqin ilə bir saray qur,
Gözəlləri mehman elə.
Barmaqları çox incitmə,
Zil kökdə bir divan elə.
Son nəfəsdə bir sığal çək,
Durult qara qanı sazım.

* * *

Bu yol haqqın öz yoludu,
Aləm bilir yalan döyül.
Neçə zulum, zilləti var,
Ayrı cürə olan döyül.
Ağrısını çəkən bilər.
Yoldan ötən bilən döyül.
Gəzə bilməz naşı səyyad,
Bu bələni bulan döyül.
Qulluğunda qul olanı,
Əzəl başdan tanı sazım.

Neçə-neçə sənətkarlar,
Meydanda dövran elədi.
Dərviş kimi libas geydi,
Özünə divan elədi.
Məcnun oldu səhralarda,
Bağrını şan-şan elədi.
Hər ağrıya, hər acıya,
Canını qurban elədi.
Haqqın özü qəbul etdi,
Bu halal qurbanı sazım.

* * *

Gecələri qulun oldu,
Necə oldu qul Qaranı.
Öz dərdinə, əzabına,
Səndə buldu hər çaranı.
Çünki, sən oldun sağaldan.
Göz-göz olan hər  yaranı.
Özün murada yetirdin,
Özün neçə beyçaranı.
Aləmə bəlli eylədin,
Sən Xasta Hasanı sazım.

O, Şəmkirli aşıq Söyün,
Aləmə səs saldı getdi.
Sənətinin ümmanına,
Qəvvas kimi daldı, getdi.
Toy-düyünün nəmərini,
Özü başdan aldı getdi,
O bir bəlli ustad kimi.
Tarixlərdə qaldı, getdi.
Sənətində bir zirvədi,
O bir zirvə gəldi, getdi.
Sayən ilə şöhrət tapdı,
Onun adı, sanı sazım.

* * *

Şoraylıdan keçən karvan,
Eldən-elə gəzər oldu.
Dağlar keşdi, düzlər aşdı,
Borçalıya güzar oldu.
O karvanın öz sarvanı,
Min bir dərdə dözər oldu.
Ömür sürdü sürgünlərdə,
Sibir ona məzar oldu.
O yerdə də tanıtdırdı,
Şair Ağacanı sazım.

Bir Söyündə ayrı dastan,
Baş əydilər ellər ona.
Ayrıca bir uğur verdi,
Baş pərdədə tellər ona.
Sıldırımlar özü verdi,
Sinəsinnən yollar ona.
Söz üstündə qala qurdu,
Uğur dedi dillər ona.
Məqbərəsi tanıtdırdı,
Eli Bozalqanı sazım.

* * *

Borçalının şah ozanı,
Ürəklərdə dadı qalan.
Bülbül kimi cəh-cəh vuran,
Tarixlərdə adı qalan.
"Koroğlu"da şam keçirən,
"Kərəm"də fəryadı qalan,
Dodağınnan gövhər daman,
Xındı Məmməd hanı sazım.

Qəlbi Haqqa bağlananlar,
Hər zaman çəkər diqqəti.
Üzünü gülər göstərər,
Dərdini saxlar xəlvəti.
Çörəyini yarı bölər ,
Ruhundadı səxavəti.
Düz ömrünəağ yol açar,
O kəsdərin düz niyyəti.
Sən olsan da sinəsində,
Yaddan çıxmaz ibadəti,
Aləm bilir Qaraçöplü,
O aşıq Musanı sazım.

* * *

Aşıq Veysəl könül verdi,
Gəl-gəl deyən haqq səsinə.
Sellər axdı sinəsinnən,
Həvəs gəldi həvəsinə.
Tanrı verən göz vermişdi,
Sazının hər pərdəsinə.
Dinlədikcə heyran oldu,
Dünya onun bəstəsinə.
Gör nə qədər aydınlatdı,
Çox ağı-qaranı sazım.

Coşan Dərya Məhəmmədə,
Yeriyən bir sur dedilər.
Meydanlardan ləngərinə,
Dalğalardan gur dedilər.
Sözlərinə, söhbətinə,
Haxdan gələn nur dedilər.
Çağladıqca zaman-zaman,
Anaxatır, Kür dedilər.
Zərgər oldu, gümüş yondu,
Verdi imtahanı sazım.

* * *

Mindin eşqin ağ atına,
Sən göylərdən endin, gəldin.
Çağladıqca pərdə-pərdə,
Hey alışdın, yandın gəldin.
Səhralarda Məcnunların,
Laylasına döndün gəldin.
Kim istədi, öz könlü tək,
Sən dil açdın, dindin gəldin.
Sənsən bizə göndərilən,
Haqqın ərmağanı sazım.

Hər obada şöhrət tapdı,
Nəmər aldı Molla Cuma.
Toxudu söz çələngini,
Xalı saldı Molla Cuma.
Hikmətinə vurulduqca,
Fikrə daldı Molla Cuma.
Şair oldu, şeir yazdı,
Aşıq oldu Molla Cuma.
Dəftəri sağdan verildi,
Çağırdı Mövlanı sazım.

* * *

Aşıq Sadıq sim tərpətdi,
Qucaqlayar ellər onu.
Sarvan oldu bir karvana,
Yorammadı yollar onu.
Saz qucaqda bayraq oldu,
Göydə tutdu əllər onu.
Bir böyük ustad elədi,
"Xallar" onu, "güllər" onu.
Şəyirdləri ustad oldu,
Ucaldı ünvanı sazım.

Azaflı çaldı sazını,
Düşməninnən öc aldı ki.
Bac vermədi bu meydanda,
Hər bir zaman bac aldı ki.
Obaları dolaşdı hey,
Bu ellərdən güc aldı ki.
Zaman ona ağır gəldi,
Vaxtınnan tez qocaldı ki.
Öz əlləri döydü onu,
Bəzədi zindanı sazım.

* * *

Bir aləmdi aşıq Alxan,
Gözəl gəldi yazı onun.
Başa çatdı, hasil oldu,
Çox arzu, murazı onun.
Toy-düyünün yaraşığı,
Meydan aldı sazı onun.
Adına dastan bağladı,
Yurdu Qarayazı onun.
Yaşadırdı sənətində,
Ustadı Paşanı sazım.

On bir telli saz döşündə,
Dar gəldi meydan Əmraha.
O xalları, o gülləri,
Verdi şöhrət-şan Əmraha.
Dinləyənlər heyran oldu,
Söylədilər can Əmraha.
Qızıllandı barmaqları,
Əl çatmadı Xan Əmraha.
Sultanlara bərabərdi,
Çaldıqca "Sultanı" sazım.

* * *

Sevənləri heyran oldu,
Aşıq Pənahın səsinə.
Aşıq Bəylər dövran sürdü,
Nəfəs qatdı nəfəsinə.
Aşıq Əhməd bir gül açdı,
Həvəs gəldi həvəsinə.
Güldü "Şirvan şikəstəsi".
Qarışdı saz bəstəsinə.
Silkələdi mürgüsünnən,
O külli Muğanı sazım.

Aşıq Şakirin sədası,
Yayıldı arana, dağa.
Sənətdə kamil olana,
Mən eylərəm can sadağa.
Saz çalına başım üstə,
Göylərimnən nurlar yağa.
Nəfəs gələ sənətimə,
Diriləm başdan ayağa.
Gecələri özün köklə,
Özün gətir danı, sazım.

* * *

İsfəndiyar, dağlar oğlu,
Öz yağını dağ elədi.
O ellərin sinəsini,
Tamam bağça-bağ elədi.
Cuşa gəldi yaylaqlarda,
Səsini bulağ elədi.
Kefini keflərə qatdı,
Damağını çağ elədi.
Gədiklərdə qala qurdu,
El oldu heyranı sazım.

Dəli dağa səda düşdü,
Bu dünyaya gəldi Şəmşir.
Haqqın ulu sayğısınnan,
Öz payını aldı Şəmşir.
Telli saza könül verdi,
Çox dərinə daldı Şəmşir.
Sinəsinnən sel car oldu,
Gəzdiyini buldu Şəmşir.
Havalandı göy üzünə,
Bulud kimi doldu Şəmşir.
Ulu Vurğun qiymət verdi,
"Bir xəzinə, ləldi Şəmşir".
Dodaxlara bal bələndi,
Oldu arı şanı sazım.

* * *

Hərə bir qismət istədi,
Əl uzandı Haqq Divana.
Kimlər yetdi muradına,
Kimin bağrı şana-şana.
Hər kəsin könül şamı var,
Hər kəs ona bir pərvana.
Ağdabanlı ol Qurbana,
Ətrafına işıq saldı,
Nur payladı dönə-dönə,
Adı ellərə yayıldı,
Canı gövhər kanı sazım.

Sizə hardan xəbər verim,
Dünya necə nağıllandı.
Müdriklərin sayəsində,
Löyün-löyün ağıllandı.
Telli saza təpər gəldi,
Durnaboğaz sığallandı.
Sim tərpəndi aram-aram,
Yığvalsızlar  yığvallandı.
Taxta çıxdı yol göstərdi,
Dağıtdı qovğanı sazım.

* * *

Dədə Yurdu Saraşdıdı,
Nağıllardan endi Söyün.
Qanad açdı pərdə-pərdə,
Asta-asta dindi Söyün.
Qopuzdanmı yaranmışdı?!
Bir qopuza döndü Söyün.
Kərəm kimi od aldı o,
Hey alışdı, yandı Söyün.
Heykəlləşdi sağlığında,
Kəhərinə mindi Söyün.
Yüz illərə salam verdi,
Doğrultdu gümanı sazım.

Aşıq Əsəd bir qıy vurdu,
Bu aləmə lərzə düşdü.
Bu səsin gur sədaları,
Nə gözəl bu ərzə düşdü.
Aşıq İmran hicran çəkdi,
Bu çox ağır tərzə düşdü.
Qocalıqdan söhbət oldu,
Yada aşıq Mirzə düşdü.
Bir don biçdi Xəyyam Mirzə,
Yaqutdan nişanı sazım.

* * *

Ələsgərin yadigarı,
Ozan dili aşıq Talıb .
Saz döşündə gecə-gündüz,
Gəzdi eli aşıq Talıb.
Ustadınnan öyrənmişdi,
Doğru yolu aşıq Talıb.
Sənətinin əzəl başdan,
Oldu qulu, aşıq Talıb.
Özü muraza çatdırdı,
Çox bağrı nalanı sazım.

Bir məclisə varıb gördüm,
Ürəklərdə öncə gülü.
Mən nə qədər gül görmüşəm,
Görməmişəm bunca gülü.
Telli saza layla çaldı,
Bir ustadın qönçə gülü.
Var olsun İncə dərəsi,
Yaratdı bir "İncə gülü".
Aşıq Avdı Qaymaxlının,
Sana sarı yönü sazım.

* * *

Saz götürdü aşıq Nəcəf,
Özü çatdı o ad-sana.
Özü Haqqa sığındıqca,
Sözü çatdı hər bir yana.
Meydan ustad meydanıdı,
Naşı girməz bu meydana,
Yağı düşmən bir dağ çəkdi,
Yandı bağrı şana-şana.
Son nəfəsdə bir ah çəkdi,
Od aldı hər yanı sazım.

Miskin Abdal saz əlində,
Əllərinə yaxdı xına.
Zaman sazın zamanıydı,
Çıxdı ustadın taxtına.
Məclisinə şahlar gəldi,
Döndü sənət paytaxtına.
Onu Allah xoş göndərdi,
Bu millətin öz baxtına.
Sınaxlarda nəmər aldı,
Mat qoydu divanı sazım.

* * *

Dünya necə düzəniymiş,
Hər şey necə yolundadı.
Ədalətin saz döşündə,
Təzanəsi əlindədi.
Alovlanır "Yanıq Kərəm",
Məcnun Leyli çölündədi.
Murad Niyazlının dadı,
Baldan şirin dilindədi.
Aşıq Əkbər bir bülbüldü,
Meyli halal gülündədi,
Qıy vurar Çopur Ələsgər,
Pərdə "Misri" zilindədi.
Nərəsini hər kəs bilir,
O aşıq İmranı sazım.

Kamandar bir divan qurdu,
Sənətin yığvalı mənəm.
Bu aləm bir arı şanı,
Pətəyində balı mənəm.
Ozanların ozanıyam,
Dədə Qorqud yolu mənəm.
Ustadların ustadıyam,
Ululardan ulu mənəm.
Atım kişnər meydanlarda,
Haqqın sağı-solu mənəm.
Çox şükürlər biz də gördük,
Sənətdə xaqanı sazım.

* * *

Quşçudan aşıq İbrahim,
Ağacana çırağ oldu.
Hər tərəfə səda düşdü,
Yaxın oldu, irağ oldu.
Sazın-sözün qovuşması,
Əl çatmayan bayraq oldu.
Eşitdi Dollu Mustafa,
Deyişməyə marağ oldu.
Qılınc oldu söz meydanda,
Sən oldun qalxanı sazım.

Məlhəm oldun yaralara,
Zamanları aşdın gəldin.
Durnalaşdın göy üzündə,
Səmalardan uşdun gəldin.
Arzuları, uluları,
Hər qərinə qucdun, gəldin.
Çeşmə-çeşmə qaynadıqca,
Dərya-dərya daşdın gəldin.
Həm sevdasan, həm vüsalsan,
Həm eşqin vicdanı sazım.

* * *

Ömür sürdük zaman-zaman,
Bu ömrümüz saza bağlı.
Muraz verdi muraz aldı,
Gör nə qədər sinə dağlı.
Kim bu daddan dadar olmaz,
Kimin varsa gözü, ağlı.
Qopuz çaldı Türk övladı,
Ozan oldu, Oğuz oldu.
Bu dünyaya sevgisiylə,
Tanıtdı Quranı sazım.

Baş əyilən saz çanağı,
Diz çökülən tut ağacı.
Sən sinəmin qürurusan,
Sən sinəmin qızıl tacı.
Kim ki, sənə könül verdi,
Dada bilməz ağrı, acı.
Əslim-soyum əzəl günnən,
Saz möhtacı, söz möhtacı.
Min illərdi bu qəlbimin,
Sənsən çırağbanı sazım.

* * *

Sinəsində saz çalınır,
Ulu dağlar dağ olannan.
Bu dağların saz səsinnən,
Qoynu bağça-bağ olannan.
Oldu bizə üz ağlığı,
Sazın üzü ağ olannan.
Növcavan bir ər elədin,
Yüz yaşlı qocanı sazım.

Bu sənədə ad alannar,
Necə gəldi, necə getdi.
Başı ərşə dəyənnərin,
Uca gəldi, uca getdi.
Hər biri bir bəy donunda,
Ad aldı, qosqoca getdi.
Qəlb gözüylə ustad olan,
Veysəlləşən Göycə getdi.
Bu dünyaya car elədi,
Yurdu Qaçağanı sazım.

* * *

Sartçalada aşıq Arif,
Tez tapındı saza, sözə.
Ustadlardan dərsin aldı,
Hər əzaba dözə-dözə.
Din içində din bəslədi,
Qarlı qışdan çıxdı yaza.
Sinəsində hifz elədi,
Neçə dastan yaza-yaza.
Minib inam gəmisinə,
Keçəcək dəryanı sazım.

Bu meydanda bel götürüb,
Tək bir ağac əkdi hərə.
Puçur tökdü, çiçəy açdı,
Gülzar oldu hər dağ-dərə.
Sazın yolu uğur yolu,
Nə gözəldi bu mənzərə.
Salam olsun dağlar oğlu,
Ağbabalı İsgəndərə.
Aşıqlıqda hafiz oldu,
Sənətin azmanı sazım.

* * *

Haykıranda Şərəf Taşlı,
El yığılsın Karsa dedi.
Bu dünyada Murad çoxdu,
Çobanoğlu varsa, dedi.
Zirvələri fəth eləyər,
Kim sənətə yarsa dedi.
Çərkəzoğlu: -əridərəm,
Ərzurmda Qarsa? -dedi.
Aşıq İslam Ərdənərdi,
Sənətin oğlanı sazım.

Canım Maksud, gözüm Maksud,
Ulus-ulus çağla görüm.
Sənətində naqisləri,
Dağım-dağım dağla görüm.
O dağlarda bir tufan ol,
Gədikləri bağla görüm.
Fəryad etmə, bu fəryadı,
Saz üstündə sağla, görüm.
Çal, dağıtsın üstümüzdən,
Hər çəni-dumanı sazım.

* * *

Dərə çiçək-bala Göyçə,
Əzəldən də adı Gözəl.
Nə şirin bir meyvə kimi,
Ləzzəti, həm dadı gözəl.
İnsanları qaynar qazan,
Alovu, həm odu gözəl.
Aşıq Əli bar ağacı,
Xanım Məmməd odu, gözəl.
O dağlar bir qaynar bulaq,
Kim anlamaz bunu sazım.

Zaman-zaman boy boyladım,
Dastanım gəl, nağılım gəl.
Şirinsənmi, şəkərsənmi,
Süsənim gəl, noğulum gəl.
Min illərdən boylananım,
Təfəkürüm, ağılım gəl,
Sən ağ atın yalına yat,
"Misri" üstə oğulum gəl,
Gəlişinə duaçıyam,
Sənətin şamanı sazım.

* * *

Dağlar aşdım qanadında,
Tutammadı duman məni.
Dərya keşdim sandıxlarda,
Udammadı ümman məni.
Sığındığım pərvərdigar,
Saxlayammaz yaman məni.
Mən haqqımın yolçusuyam,
Yaşadacaq iman məni.
Sənnən ki, çox şey umuram,
İncitmə, umanı sazım.

Mən ki, sənin müştağınam,
Məni mənnən alan gözəl.
Öz arzumu, umudumu,
Sinəsində çalan gözəl.
Tariximi varaqlayıb,
Xəyallara dalan gözəl.
Dar günümdə, gen günümdə,
Mənə həmdəm olan gözəl.
Oxu məni başdan-başa,
Anla, bu mənanı sazım.

* * *

Yazımızı nə xoş yazıb,
Qurban olum mən yazana.
Necə gözəl yol göstərib,
Doğru yolunnan azana.
Qananabir saz havası,
Qanmayana bir təzana.
Ağıl verdi, kamal verdi.
Hər ustada, hər ozana.
Ağır durdu, batman gəldi,
Qaynatdı qazanı sazım.

Alçaq dağdan duman qalxar,
Çox uca bir dağdı Noyruz.
Meyvələri qoşma, təcnis,
Ən gözəl bir bağdı Noyruz.
Bu dünyaya haxdan gəldi.
Ruhumuza yağdı Noyruz.
Təkə-Türkmən Təhləsinnən,
Bir gün kimi doğdu Noyruz.
Min il keçsə deyəcəklər,
Ölə bilməz, sağdı Noyruz,
Təbib dərman oyaladı,
Söz oldu dərmanı sazım.

* * *

Şair Nəvi, Sarvan Bayram,
Sazı sözə bağladılar.
Məclislərə od vurdular,
Ürəkləri dağladılar.
Dəniz kimi kükrədilər,
Çaylar kimi çağladılar.
Yad ellərdə Ulu Yurdu,
Saz üstündə ağladılar.
Faxralıya bağladılar,
Bu qoca Sarvanı sazım.

Ağbabada kor Nəsibin,
Çəkisi çox ağır dedim.
Hər sözdən bir məna çəkər,
Ləli-gövhər yığır dedim.
Onun sözdən öz yükü var,
O da sözə sığır dedim.
Kim özünə güvənirsə,
Açdığı ağ cığır dedim.
Çoxları ordan keçərək,
Haqqına dayanı sazım.

* * *

Hanı Şınıxlı Məhəmməd,
Sözündə çox xiridarı.
Yanında öz vəfadarı,
Əzəlinnən ona yardı.
Sənət yolu hamar döyül,
Yoxuşu sərt qayalardı.
O bu yolda qoç Koroğlu,
Cəvahiri bir Nigardı.
Neçə məclis yola verdi,
Saya gəlməz sanı sazım.

Bir dinləyin arif olan,
Bizim ellər saz ocağı.
Gəraylıdı, ya qoşmadı,
Bu ellərin çox sorağı.
Bu Təkəli Mustafanın,
Şeirdi qoynu-qucağı.
Həcvi yaman qorxuludu,
Çox görmüşəm mən o çağı.
Kim dilini dinc qoymasa,
Hədəfə tuşlanı sazım.

* * *

Saz girəndə meydanlara,
Meydanlara bahar gəlir.
Dadı dilə cövhər olan,
Əmzim-əmzim nübar gəlir.
Bir az sevgi, bir az sayğı,
Bir az da qəm-qubar gəlir.
Bir az qeyrət, bir az qürur,
Mənlik ata süvar gəlir.
Təzanə bir Valeh olur,
O telləZərnigar gəlir.
Hər pərdədə bir hikmət var,
Nur eylər tapanı sazım.

At oynatdı, nəmər aldı,
Bu Xaloğlu aşıq Söyün.
Məclisləri dadlı-duzlu,
Söhbətləri löyün-löyün.
Əziz oldu, ləziz oldu.
Onla keçən hər toy-düyün.
Ürəklərdə saraylaşan,
Ustadlara rəhmət deyin.
Ayırmayaq dilimizdən,
Oxunan duanı sazım.

* * *

Sənətinə məftun etdi,
Ta əzəldən bizi Qəmkeş.
Qarlı qışa sığal çəkdi,
Tez gətirdi yazı Qəmkeş.
Qədir-qiymət meydanının,
Duz çörəyi-duzu Qəmkeş.
Onu bizə Allah verdi,
Haq söylədi sözü Qəmkeş.
Dodaxlara bal bələdi,
Dindirəndə sazı Qəmkeş.
Sənə əziz olanların,
Oldun mehribanı sazım.

İncə dərəm ellər eli,
Düşünməyin təklənibdi.
Öz haqqına qovuşmağa,
Zaman-zaman bəklənibdi.
Aşıq Cəlal saza dönüb,
Öz kökünə köklənibdi.
Bir karvandı ləli-mərcan,
Dürrü-gövhər yüklənibdi.
Tanıdınmı sən əzəldən,
Aşıq Şəmistanı sazım.

* * *

Baş pərdə bir baş tacıdı,
Əzəl mənim öz dərgahım.
Orta kökə sığal versəm,
Bağışlanar hər günahım.
Beçə pərdə layla desə,
Yox olar amanım, ahım.
Zil üstə zirvələr olsam,
Aləm olar seyrangahım.
Məni alar öz qoynuna,
Dolaşar mənanı sazım.

Urmiyada sancaq asdı,
Sulduzda dövran elədi.
Dinlədi Mərənd, Marağa,
Səlmasda tufan elədi.
Heydərbaba güllər açdı,
Lalələr al qan elədi.
Ürəklərə qürur verdi,
Sanki, Savalan elədi.
Mat qoydu, mətəl elədi,
Təbrizi, Tehranı sazım.

* * *

İlk açarı ulu "Təcnis",
"Cığalı"sı ondan əziz.
"Divani"lər haqq qapısı,
Daha dadlı, daha təmiz.
"El havası" ellərə car,
Bir çeşmədi axır göz-göz.
"Urfanı"sı ağır batman,
"Bəhməni"si həqiqi söz.
"Mansırı" bir hicran dağı,
Yandırar hicranı sazım.

Hər biri bir uğur olan,
"Koroğlular" yeddi hava.
Yeddi "Kərəm" dağ-dağ eylər,
"Fəxri" də bir dərdə dəva.
"Göyçəgülü" güllər açar,
"Yurd yeri"di doğru yuva.
Bir "Gövhəri" dilə gələ,
Dərdi qova, qəmi qova.
Qərinələr gələr-keçər,
Havalar yaranı sazım.

* * *

Gedəni geri qayrarar,
"Qaytarmalar" pərdə-pərdə.
"Qaraçı"lar, "gəraylı"lar,
Əzizdi mərd oğlu mərdə.
"Şahsevəni" sevər könül,
Ruhum uçar o göylərdə.
"Qaratel"lə, "Qara kəhər",
Yuva qurarkönüllərdə.
"Müxəyi" bir dad gətirər,
İllah "Duraxanı" sazım.

Gələndə "Qazax səbzəsi",
Gətirəcək ilk baharı.
Dodağında zümzüməsi,
Əridəcək dağda qarı.
"Süsənbəri" ruh oxşayar,
Qəlbə yatandı "Oyşarlı".
"Dol hicranı" leysan olar,
"Azaflı"dı göz yaşları.
Səni qəmdən azad eylər,
Güldürər "Ceyranı" sazım.

* * *

Göynər "İrəvan çuxuru",
"Çuxurova" dəm yaradar.
Haykıranda "Məmmədbağrı',
Gözümüzdə nəm yaradar.
"İncəgülü" güllər açar,
Başqa bir aləm yaradar.
"Cəlili" haqqa tapınar,
"Zarıncı" min qəm yaradar,
Sevənlərə ömür verər,
Yaşadar "Dastanı" sazım.

"Şərili"lər ağır batman,
Hər "Sarıtel" bir həfəsdi.
"Gülabı"mız gül qoxuyar,
"Kamandarı" ulu səsdi.
Bir "Badamı" şikəstə çal,
"İbrahimi" bizə bəsdi.
"Gövhəri", "Aran" dübeyti",
At üstündə bir "Atüstü".
Qəhrəmanlıq yaradandı,
Dinsə"Qəhrəmanı" sazım.

* * *

Oğul istər göz önünə,
O dağları tez aldıra.
Kəhər ata him eyləyə,
Ağır meydana saldıra.
Bircə "güllü qafiyə"də
"Şahsarayı"nı güldürə.
"Sarvanbaşı" heyran qala,
"Çıldırgülü"nü daldıra.
"Turacı" cövlan eyləyə,
Dinə "Mirzəcanı" sazım.

Dil açanda "Dübeyti"lər,
Yağmır gələr narın-narın.
"Paşaköşdü" urvatıdı,
O bəylərin, paşaların.
"Qaradonnu" bir ləngərdi,
Meydanıdı Kamandarın.
“Gödəkdonu" bir təbəssüm,
"Qurbanı" da dövlət-varın,
Əsirlərdi yollardadı,
Dinən "Naxçıvanı" sazım.

* * *

"Dilqəmi" bir göz  yaşıdı,
Ağladıaca ağlayar hey.
Ömrü boyu ağ geyinməz,
Qaraları bağlayar hey.
Bir ümmandı, dərd əlindən,
Çağladıqca çağlayar hey,
Yahya bəyin sinəsini,
Dağlandıqca dağlayar hey,
Yarannan dərd əmibdi,
Dərd ilə daranı sazım.

Özünün bir aləmi var,
Bu aləmdən gələr səsi.
Ulu sazın çox da ulu,
Çox müqəddəs bir bəstəsi.
Göy üzündə durnaların,
Son oxunan bir nəğməsi.
Məclislərin son nöqtəsi,
Telli sazın "Müxəmməsi",
Ozannar bir nəfəs dərər,
Məclislərin sonu sazım.

* * *

Üzümü sənə tutmuşam,
Öz gücünü cəm elə gəl.
Bizi qəmin əlinnən al,
Təzanəyə dəm elə gəl.
Anlamazdan uzaxda dur,
Anlayana him elə gəl.
Zillərini zil üstündə,
Bəmlərini bəm elə gəl.
Gəl səninlə əhd eyləyək,
Unutma peymanı sazım.

Zaman axdı sellər kimi,
Gör nə qədər canlar getdi.
Yüz illər bir an kimidi,
Neçə-neçə anlar getdi.
Aşıqlıqda at oynatdı,
Çox-çox şöhrət, şanlar getdi.
Nakam Aydın Çobanoğlu,
Saz ustadı Xanlar getdi.
Susdu neçə durnaboğaz,
Nejoldu çalanı sazım.

* * *

Pərilərin Pərisidi,
Bahar, yazdı aşıq Pəri.
Şır-şır axan bir bulaqdı,
Xoş avazdı aşıq Pəri.
Sinəsində bülbül olan,
Ulu sazdı aşıq Pəri.
Bu sənətdə hünəriylə,
Dastan yazdı aşıq Pəri.
Tanıdınmı Başkeçiddə,
O aşıq Sonanı sazım.

Aşıq Aydın kəmənd atar,
Öz bəndi, öz bərəsi var.
Aşıq Qəşəm qoç Koroğlu,
Yer titrədən nəfəsi var.
Əli bir dastan kimidi,
Özünün öz çevrəsi var.
Dərvişin bir kainatı,
Fərhadın öz kürəsi var.
Əbdüləli Ərk qalası,
Səhənd bil Dehqanı sazım.

* * *

Gecələrin nə dadı var,
Sabahı işıq olmasa.
Gözəllər də gözəl olmaz,
İşvə-yaraşıq olmasa.
Bülbülə bülbül demərəm,
Gülə sarmaşıq olmasa.
Bu dünya bir heçə dəyməz,
Bir ustad aşıq olmasa.
Sənin qürurun olarsa,
İnsanca yaşanı sazım.

Sinəm üstə cəh-cəhinlə,
Dünya qədər söyünmüşəm.
Mən səni bir libas kimi,
Qeyrətimə geyinmişəm.
Əgər bir an ayrı düşsəm,
Döyünmüşəm, döyünmüşəm.
Qucağımda Vətənimsən,
Qürurunla öyünmüşəm.
Sən ömrümün əzəl günnən,
Ləli dürəfşanı sazım.

* * *

Sehirlənsin hikmət əli,
Axşamları dan eləsin.
Hər keçiddə, döndərmədə,
Təzə bir nişan eləsin,
Hər havanın hikmətini,
Bir şirin dastan eləsin.
Ər kişilər sinəsində,
Dünyaya boylanı sazım.

Hər sənətin öz xanı var,
Bu aləmdə bir xan gördüm.
Hər aləmin sultanı var,
Sultanlara sultan gördüm.
Özü haqqın baratıdı,
Əlindədi fərman gördüm.
Hər kəlməsi bir ləşkərdi,
Hər fikri bir ümman gördüm.
Həm Qorquddu, həm Ələsgər,
Mən onu bir cahan gördüm.
Təlatümü bu yer, bu göy,
Eşqini kəhkəşan gördüm.
Fəqət sana Məcnun oldu,
Anla Zəlimxanı sazım.

* * *

Sinəsində qadir Allah,
Sönməyən ocax qaladı.
Baş vurdu saz aləminə,
Yeri-göyü yırğaladı.
Ulu Tanrı qüdrətinnən,
Ömrünə ömür caladı.
Oymaq-oymaq ozan oldu,
Saz boynuna qol doladı.
Dərviş oldu ellər gəzdi,
Cığaları cilaladı.
"Sarı tel"in həyanı bil,
Faxralı Elxanı sazım.

Elə ki gəldi cahana,
Fələy ələkdən elədi.
Daldı elmin dəryasına,
Haqq onu nura bələdi.
Üstəlik də söz eşqini,
Saz eşqinə şələlədi.
Yazdı "Ozan" dastanını,
Qopuz üstə bəstələdi.
Sənətə sultan elədi,
Bu Orxan Paşanı sazım.

* * *

Aşıq Məsim Bəyazidli,
Çox şeyi agah elədi.
Döndü sənət qalasına,
Evini dərgah elədi.
Özü döndü bir vəzirə,
Sənətini şah elədi.
O elə bir ustad oldu,
Əmrahı Əmrah elədi.
Güllü Gülüstan elədi,
Sanki bir səhranı sazım.

Qırxılı çopur Ziyəddin,
Bir də ki, mərdanə Söyün.
Məclislərin bəzəyidi,
Kəlmələri löyün-löyün.
Başqa bir aləm olardı,
Onlar gedən hər toy-düyün.
Məzələri dillərdədi,
Siz onlara rəhmət deyin.
Onlar ulu bir sənətin,
Düz əhdi-peymanı sazım.

* * *

Binələndi Qarayazı,
Müqəddəs el havasına.
Allah özü çarə qıldı,
Dərdlərinin dəvasına.
Qəvvas olan sinə gərər,
Cumar eşqin dəryasına.
Hər ocaxda qopuz dindi,
Döndü ozan yuvasına.
Mən demədim el tanıdı,
Kosalı Asdanı sazım.

O göylərdən göndərildim,
Zirvələrdən gələr səsim.
Qismətimi tale verib,
Bu da haqqım, bu da bəsim,
Ustadıma minnətdaram,
Kamil oldu ustad dərsim,
Sözünü qılınc elədi,
Sazın bəzirganı sazım.

* * *

Sadaxlı aşıq Məhəmməd,
"Başxanım"a layla çaldı.
Onun bu gözəl avazı,
İnan məni mənnən aldı.
Rəhmət deyək yüz min kərə,
Yaddaşlarda adı qaldı.
Gülabı bir saz ustadı,
Könüllərdə hey ucaldı.
Haqqa bağlı ustad gördüm,
Düz Haqqa varanı sazım.

Aşıq Əhməd Sadaxlı da,
Bu aləmdə var dedilər.
Saraclıdan dərs alıbdı,
Sənətinə yar dedilər.
Danışdığı dastanlara,
Şirin bəhrə-bar dedilər.
Saz aləmi bülbüllü bağ,
Çəkmə intizar dedilər.
Çölləri orman eləyər,
Qopardar leysanı sazım.

* * *

Aşıq Nurəddin Qasımlı,
Əlaların əlasıydı.
Sənətinin Məcnunuydu,
Kərəm sazın lələsiydi.
"Misri" üstə Koroğlunun,
Nərə çəkən dəlisiydi.
Ustad kimi ad almışdı,
Bəllilərin bəllisiydi,
Rəhmət deyək, yad eləyək,
O cənnətməkanı sazım.

Sinəsini bulaq gördüm,
Özünü bir dərd anası.
Kəlmələri ləli-gövhər.
Misraları dür dənəsi.
Düşüb hicran dəryasına,
Borçalının pərvanəsi.
Haqq sözünə könül verib,
Olub sazın divanəsi.
Eşqi bir ocaq qalayıb,
Məhşərəcən hey yanası...
Vurulub Şindi dağına,
Qovuşdur Butanı sazım.

* * *

İlməzli aşıq Calalı,
Sənətinə bağban gördüm.
Doqquz telli ana saznan,
Mən onu canhacan gördüm.
Ucuz şöhrət axtarmayan,
Piran əhli piran gördüm.
Sinədi söz xəzinəsi,
Qəlbi əhli-ürfan gördüm.
Dilləndirsən zər ələyər,
Xırd eylər olanı sazım.

Aşıq Qərib ustadlıqda,
Bir yol getdi çox dərinə.
Hər məclisi toy-tamaşa,
Bənzəməzdi bir-birinə.
Söhbətinə məzə qatar,
Satardı yağ-bal yerinə.
Sazsız bir gün yaşamadı,
Qurbandı sazın pirinə,
Belələri yüz ildə bir,
Çox çətin yaranı sazım.

* * *

Şair oldu, aşıq oldu,
Aləmə yayıldı səsi.
Sağlığında meydan aldı,
Heç kəslə çəkilməz bəsi.
Coşdu yazda çaylar kimi,
Sel oldu eşqi-həvəsi.
Yaddaşlardan silinməzdi,
Söz bəstəsi, saz bəstəsi.
Bilirəm ki, unutmadın,
Pərvanə Hasanı sazım.

Aşıq Ulduz-bir ulduzdu,
O göylərdən enməz oldu.
Getdiyi yol haqq yoludu,
Bu yolundan dönməz oldu.
Yandı sənət meydanında,
Düz bir ömür sönməz oldu.
And içərəm uralanmaz,
Onun söz bostanı sazım.

* * *

Sənətinin gül bağında,
Aşıq Solmaz açan güldü.
Sazın-sözün ocağında,
Şirin ləhcə, şirin dildi.
Bu meydanda dağlar aşdı,
Dərə keçdi, düzə gəldi.
Qarlı qışa bac vermədi,
Bac aldığı yaza gəldi.
Qoç Koroğlu Nigarıdı,
Dəlilər dörd yanı sazım.

Gül arama, Gülara,
Aşıqlığın yığvalıdı.
Ləmisində Azaflının,
Söz şəkəri, saz balıdı.
Hər addımı bir uğurdu,
Sənətinə vəfalıdı.
Bəmi-zili ağır taxta,
Vurduğu xal öz xalıdı.
Şəyirdləri meydanlarda,
Tanı Gülaranı sazım.

* * *

Muxranda bir ocaq gördüm,
Daim yanan saz ocağı.
Atəşi ərşə dayanan,
Sönməyən qış-yaz ocağı.
Mahalda meydan sulayan,
Nə gözəl avaz ocağı.
Qarasannı soyuna bax,
Zil kökə pərvaz ocağı.
Sən Noyruzun qəlbinə gir,
Oddu-alovlanı sazım.

Bir təzə səs, təzə nəfəs,
Bizlərə mehman olubdu.
Endərməsi-döndərməsi,
Can içində can olubdu.
Səsi Turana yayılıb,
Bu dünya heyran olubdu.
Bir ürəyin ərmağanı,
Min cana dərman olubdu.
Bir ürəyin ərmağanı,
Min cana dərman olubdu.
Nargiləni bəxş eləyib,
Var olsun Muxranı sazım.

* * *

Ulu Tanrı qüdrətinnən,
Bir belə fərman elədi.
Sazı bizə buta verdi,
Dərddərə dərman elədi.
Oxu dəydi düz sinəmnən,
Bağrımı şan-şan elədi.
Bu qurğunu özü qurdu,
Ömrümü dastan elədi.
Qaynadım bir bulaq kimi,
Sinəmi ümman elədi,
Axırda ozan elədi,
Bu Dərviş Osmanı sazım.
Bu Dərviş Osmanı sazım.

## Şair Ağacan
*(poema)*

Şair Ağacanın ömür yolunu,
Gündüzlər axtardım, gecədən sordum.
Gəzdim bu aləmin sağı-solunu,
Cavannan öyrəndim, qocadan sordum.

* * *

Söykəndim Əmrahın qəbir daşına,
Hüseyn Saraclının eşq ataşına.
O Xındı Məmmədin döndüm başına,
Ruhuna baş əydim-ucadan sordum.

* * *

Aradım-axtardım nə vaxtdan bəri,
Öyrəndim bir ömür keşməkeşləri,
Oldum "ən ağıllı", oldum "sərsəri",
Gələn bəzirgannan, xocadan sordum.

* * *

Nadanın yanında qara pul oldum,
Mən öz istəyimə endim, qul oldum.
Bağlı qapılara gedən yol oldum,
Niyədən öyrəndim, necədən sordum.

* * *

Atdım Ərdahana, Qarsa kəməndi,
Tutdum hər tərəfdən bərəni, bəndi.
Axtardım şəhəri, dolandım kəndi,
Ruhumun gəzdiyi bacadan sordum.

Bir uğur üstündə qıldım namazı,
Allahın eşqiylə aldım murazı.
Oxudum quranı, dinlədim sazı,
Yaddaş farmaşında düyçədən sordum.

* * *

Hər dağa-arana eylədim güman,
Şahin tək şikara vermədim aman.
Gahı yaxşı dedi, gahı da yaman,
Nə qədər xəyalı haçadan sordum.

* * *

Bir sazın sehrinə göylərdən enən,
Bir sözün mehrinə quzuya dönən.
Yolunda bir ömür alışan, sönən,
Ustad yadigarı Göycədən sordum.

* * *

Keçdim Borçalıdan Sibirə qədər,
Bir ocaq tez çəkdi özünə məni.
Çox şükür, istəyim getmədi hədər,
Qatdı çıtıx kimi gözünə məni.

* * *

Ora ocaq döyül, sanki bir ada,
Orda bir hikmətin izinə düşdüm,
Şair sürgün olan uzaq Tayqada,
Bir böyük dünyanın özünə düşdüm.

Sandım Ələsgərin sazı kökdədi,
İlahi neməti ələr üstümə.
Dərd əhlinin qəm avazı kökdədi,
Qəmli bir hekayət mələr üstümə.

* * *

Sandım ki, bu dərdi mən yaşamışam,
Kədər də tanışdı, qəm də tanışdı.
Öz dədə yurdumda bir qarlı axşam,
Sürgünnən qayıdan Yaqub danışdı.

* * *

İçində yaşadıb nə vaxtdan bəri,
O hicran dağının zümzüməsini.
Danışım, dinləyin həqiqətləri,
Mənim qələmimdə onun səsini.

* * *

Dönüb yalquzağa Ujrum küləyi,
Ulartı salıbdı müdhiş çöllərə.
Qarsamba tutubdu bu yeri-göyü,
Əlləşir, vuruşur bu dağ, bu dərə.

* * *

Torpaq buz altında, qar altındadır,
Qalıb oda həsrət, atəşə həsrət.
Him gəzən işgəncə kir altındadır,
Ədalət işığa-günəşə həsrət.

Burda iki qərib–Vətən təşnəli,
Burda iki ocaq–odu qəm-kədər.
Burda iki qoca dərddən nəşəli,
Çörəyi mükəddər, suyu mükəddər.
Bu iki ocağın gözü qan ağlar,
Söhbəti inildər, sözü qan ağlar.
Köklənib qəm üstə havacatı da,
Qürbətdə inləyən sazı qan ağlar.
Baxışlar buz kimi, duruşlar mağmın.,
Elə bil dünyalar verdi-verandı,
Alında yığılan qırışlar mağmın,
Bu yağan qar döyül-tökülən qandı.
Eşikdə ulayan borana nə var,
Eşikdə tufana dağlar dayanar.
Bəlkə də həyatdı burda yağan qar,
Bəlkə də dünyanı belə qurmalı,
Belə düzməlidi ulu Allahlar,
Bu ulu Allahın-ulu rəssamın
Fırçası Ujrumu belə yaradıb.
Boranı bu yurda əbədi yazıb,
Qarı bu çöllərə şələ yaradıb.
Allahın işinə qarışmayaq biz,
Yerlər də, göylər də öz əlindədir,
Aləmin hər dərdi, dərmanı şəksiz,
Tanrının əlçatmaz əməlindədir,
Bəlkə də fələklər intiqam deyə,
Bu sonsuz aləmdə meydan sulayır.
Bəlkə də bu dünya düşüb lərzəyə,

Belə gedişata quyruq bulayır,
Quyruq bulayanın meydanı geniş,
Bəzən o atını dördnala çapar.
Belədi əzəldən bu fani gərdiş,
Doğrular itirər, əyrilər tapar,
Zaman elə zaman, vaxt elə vaxtdı,
Yığval elə yığval, baxt elə baxtdı.
Ölümün önündə loğman müntəzir,
Cəlladın əlində fərman müntəzir.
...Göylər tufan edir, tüğyan qoparır,
Yerlər lal sükutla dinləyir elə,
Bu gediş dünyanın bağrını yarır,
Dünya için- için inləyir elə.
İnləyir təbiət, inləyir bəşər.
Yerlərin, göylərin canı qalmayıb.
Olandan dərdini dinləyir bəşər,
Axıb, damarında qanı qalmayıb.
Canında elə bil bir üşütmə var,
Bu alov ocağı qızdıra bilmir,
Buxarı içində kösöy olub xar,
Ocaqdan ocağı "üzdürə" bilmir.
Soyuq divarı da dəlir elə bil,
Tüstülər burulur dərdi var kimi,
Külək haramıdı, gəlir elə bil,
Kimə təslim olur günahkar kimi.

Burda iki qərib - Vətən təşnəli,
Burda iki ocaq - odu qəm-kədər.
Burda iki qoca dərddən nəşəli,
Çörəyi mükəddər, suyu mükəddər.
Bir lal sükutunmu içində aləm,
Bir dünya qəm-kədər, bir dünya aləm,
Ürəklər veribdi burda səs-səsə,
Dayanıb ikisi nəfəs-nəfəsə,
Ürəkdən keçəni gözlər "oxuyur",
Bu qərib ayları, qərib illəri.
Bu qərib anları, qərib günləri,
Baxışda deyilən sözlər "oxuyur",
Bu iki baxışda, iki sükutda,
Nə qədər söhbətin, sözü canı var.
Bu iki ürəyə dolan buludda,
Neçə qəhər dağı, qəm tufanı var.

* * *

...Bu şair Ağacan, Yaqub əfəndi,
Qoyuldu taleyin qəm sapandına.
Allahın insafı daşamı döndü,
Sadiq çıxammadı Allah andına,
Bir budaq vermədi sığına bunlar,
Baxmadı ağına- bozuna dünya.
(Bələdi aləmi tozuna dünya).
Çıxa bilmədilər əzəl gününnən,
Əzəli yolların sağına bunlar,
Bu şair Ağacan dillər əzbəri,
Hər inci kəlməsi dağlardan ağır.

Yayılıb ellərə nə vaxtdan bəri,
Sazınnan-sözünnən dürr-gövhər yağır,
Bu şair Ağacan sinə dəftəri,
Ellər ayə- ayə varaqlar onu,
İtirib obalar nə vaxtdan bəri,
Aydan, ulduzlardan soraqlar onu.

* * *

"Kərəmi" kökünə köklənən sazım,
Çağlar Borçalının hər bucağında,
Xındı Məmməd səsim, Əmrah avazım,
Ağlar Borçalının öz qucağında,
Çağlar gədiklərin qarlı yolları,
Çaxan ildırımlar sozalar gedər,
Sözün qanadında ağır ellərim,
Uçar durna kimi , saz olar, gedər.
Sızlar Anaxatır, göynər Babəkər,
Gecələr əriyə, belə dan gələr.
Qocalar qocası Sınıq körpüdən,
İlin il uzunu hər axşam-səhər
Alıb qəm yükünü zaman-zaman hey,
Əlləri qoynunda bir karvan gələr,
Bu Həsən Məcruhdu - ellər atası,
Adı-sanı bir mahalın ləngəri,
Bu şair Əhməddi qəlbində yası,
Düşüb bir sorağa nə vaxtdan bəri.
Bu Dollu Mustafa, bu aşıq Söyün.
Sazı köynəyində qəfləsi qəmdi,
Dolaşır elləri Ağacan deyin,

Ürəklər qubarlı, gözləri nəmdi.
Şıdırğı məclislər güllənmir onsuz,
Bağlanıb urfatın ağır qolları,
Telli saz lal olub dillənmir onsuz,
Sığal pərdələrin bağlı yolları,
Borçalı pəjmürdə, qəmli, intizar,
Dədələr sözüdü "qanı qan çəkər",
Bu boyda diyarın şair dərdi var,
Qəmin ləşkərini Qaçağan çəkər.

* * *

Dünyanı saxlamaz qızıl öküzlər,
Dünyanın özünün öz dünyası var.
Dünyanı saxlamaz qızıl öküzlər,
O, sözün boynunnan asılı qalıb.
Dünyanı saxlayan söz dünyası var,
Bu şair Ağacan söz qalasıdı.
Binası qurulub söz işığında,
Taleyi dərd yurdu, qəm çalasıdı,
Yoğrulub, yapılıb öz işığında.
Özül daşlarıdı Abbas, Qurbani,
Himi Qorqudumnan gələn ağıldı.
Əzəl mayasıdı təcnis, divani,
Haqqın bu vergisi uzun nağıldı.
Gəldi, bu dünyaya gəldiyi günnən
O, dizi üstündə haqqa tapındı.
Səpildi yoluna çox da duman, çən
O, sözü üstündə haqqa tapındı.

Vaxtının əqrəbi tərsə dolandı,
Atdığı hər addım tək səbir oldu.
Tale Ərdahana Qarsa dolandı,
Qəmi tüğyan etdi, dərdi bir oldu.
Bağlandı hər yerdə yolu şairin,
Gövhəri keçmədi nadan yanında,
Sinəsi "qızıldan" dolu şairin,
Sözləri saz üstə alovlandı hey,
Hər addım atdığı tək səbir oldu.
O belə alışd, belə yandı hey,
Açdığı son qapı bu Sibir oldu,
Sibir yurd olmadı, bir qəbir oldu.

* * *

Sözün dərgahında yumağa döndü,
Taleyi qəm-kədər ömrü ah oldu,
Sözün laylasında uşağa döndü,
Onun ürəyində söz Allah oldu,
Əzəldən sözünün yiyəsi oldu.
Canında polada dönərdi sözü.
Nə dedi, məqamda  deyəsi oldu,
Düppədüz ünvana gönərdi sözü.
Nə pula, nə vara arxalandı o,
Sinəsi bir atəş, bir alovuydu.
Sözün qüdrətinə daldalandı o,
Onda otuz yeddi...qovhaqovuydu,
Yolunnan sapana hər sözü bir ox,
Haqqı tapdayana həcv deyərdi,

O elə bilrdi düzə zaval yox,
O elə bilirdi yox qəmi-dərdi.
O vaxtdan atıldı borana,qara,
Özü də bilmədi nə hikmətiydi.
Dünyalar qalmışdı yenə Muxtara,
Hökumət içində hökumətiiydi.
Ağacan bilmədi, bilmədi onda
Nahar haqq olanı salmışdı taxtdan.
Doğru söyləmişdi əyri zamanda,
Suyu bulanmışdı elə o vaxtdan.
Bu ömür yolunda daha nə oldu.
Pozuldu güzəran ikinci dəfə,
Sonra da mollalıq bəhanə oldu,
Zamanın atdığı dəydi hədəfə!....
Dövrün gərdişinə nə çağa düşdü,
Ədalət biçildi sanki bir zəmi,
Od almaq istədi ocağa düşdü,
Belə olmalıydı düzün aləmi,
Bir çətin külfəti alıb dişinə,
Taleyin əlinnən hara qaçaydı?!
Kim dözər dövranın bu gərdişinə,
Bu möhnət sarayı min ahı- vaydı,
Dövran sərxoşuydu öz hikkəsinnən,
Günəşi, gündüzü toran görürdü.
Zaman bürüşürdü haqqın səsinnən.
O, haqqın səsində boran görürdü,
Ağacan düşmüşdü burulğanlara,
Yoluna çılçıraq düzülməmişdi,
O ayaq döyürdü hey divannara,

Əlləri Allahdan üzülməmişdi.
Yoxuydu arxası özünnən özgə,
Anlaya bilməzdi qeyrilər onu,
Hardaydı qılıncı sözünnən özgə,
"Qana" susayırdı əyrilər onu.

* * *

Söz Allah payıydı, haqq vergisiydi,
Kim vura bilərdi sözə qandalı.
Söz yığval vergisi, baxt vergisiydi.
Tanrı "pay" vermişdi dizə qandalı,
Oyduku bayquşlar verdi səs-səsə,
Düzün göz yaşları axır qan oldu,
Həqiqət içində boğuldu nəysə,
Ədalət Sibirə "ərmağan" oldu,
Ağbaba - Şereyel- Borçalı, Sibir,
Bir ömür yolunun salnaməsiydi,
Hər addım başında gələn tək səbir,
İstəyin, arzunun qəmli səsiydi.
Hey qəmə imrəndi sazının simi,
Talenin üzünə doğmadı şair.
Öz ulu babası Nəsimi kimi,
Bu boyda dünyaya sığmadı şair,

* * *

Keçdi xəyalınnan ömür yolları,
Addadı hər yerdə bərəni-bəndi.
Buna şahid oldu Tambov elləri,
Bir də qələm tutan Yaqub Əfəndi.

...Fikir çözələndi nəmli kahada,
Sönmüşdü bu evin köz ocağında,
Şair qürbət eldə–qəmli kahada,
Yanırdı içinnən öz ocağında.
Yanırdı düzlüyün sorağı kimi,
Bu elə ocaqdı–göz görən döydü,
Yanırdı Allahın çırağı kimi,
Bu dünya səsinə səs verən döydü.

* * *

Piltəsi əriyən çırağa dönüb,
Salır dörd yanına son işığını,
Gözünnən sozalan bulağa dönüb,
Göylərdən enibdi mələklər belə,
Gəlib ziyarətə haqq aşığını,
Müddəti əyləşib "sədir" taxtına,
Ötən günlərini varaqlar indi.
Göynər döngələsi dönən baxtına,
Enişi-yoxuşu soraqlar indi.
Buymuş taleyin əzəl- axırı,
Bu tale beşikdə boğulmalıymış.
Çox mənəm deyənin çıxdı paxırı,
Bu iblis quruluş dağılmalıymış,
Burda meydan sular ara qatannar,
Burda ki, boğulur hey haqqın səsi,
Burda dədəsinə güllə atannar,
Yaradıb nə "gözəl" qanun ölkəsi,
Ölüm yastığında şair Ağacan,
Ürəyi ufuldar, hey qəlbi sızlar.

Ölüm yastığında şair Ağacan:
"Dünyanı yıxdılar bu Allahsızlar".
Tayqa meşələri...
Şair xəstədi,
Yüklənir qəfləsi,
Son nəfəsdədi.
Dili çıldırramır,
Ürəyi əsmir.
Bilir səfərini,
Amma tələsmir.
Yönü qibləyədi,
Üzü Yaquba.
Hələ qurtarmayıb
Sözü Yaquba.
Öncə şeirləri
Amanat verir.
Onların ömrünə
Zəmanət verir.
Deyir mənnən köçən
ahı-zarımdı.
Əbədilik qalan
Döylət-varımdı.
Əzəli allaha
ömrün başınnan
Ümidəm deyir.
Mən sinə gərmişəm
Dərdə-əzaba,
Yoxdu qəm deyir.

Canımda allaha var,
Bir də şeirlər,
Yanımda bir heçdi
Bu aləm deyir.

* * *

Yorğanı üstünnən
atır bir anda,
Alışan qəlbinin
hərarətinnən.
Alovu Sibiri
oda döndərən.
sönməyən ocağı
Çatır bir anda,
Sinəsi saz olur
çeşmə gözləri.
Dağlayır dünyanı
dərdli sözləri.
Gecə-gündüz ahı-fəğan eylərəm,
Canım, Vətən düşüb yada, ağlaram.
Bundan belə yaşamağı neylərəm,
Etibar yox bu dünyada, ağlaram.

* * *

Ürək yaranmayıb dəmirdən, daşdan,
Fikirdən itirdim ağlımı başdan.
Həm yarı-yoldaşdan, qohum-qardaşdan,
Nə müddətdi gəlmir səda, ağlaram.

* * *

Ölüm haqdı, mən qorxmuram ölümnən,
Qoy bir kimsə inciməsin dilimnən,

Ahı- fəryad çərxi-fələk əlinnən,
Kimə gedim mən imdada ağlaram.

* * *

Zaman məni sapandında atdı, hey,
Ah sinəmdə ocağını çatdı, hey.
Yazıq ömrüm bu qürbətdə batdı hey.
Ağacanı verdi bada ağlaram.

* * *

Sonra bir gəraylı, sonra bir təcnis
Düzdü qatar-qatar mirvari kimi.
Ağır batman oldu divanı, təxmis,
Dərildi meyvənin nübarı kimi,
Şairin özünün aləmi vardı,
Əyə bilməmişdi bu gərdiş onu,
Onun öz aləmi, öz qəmi vardı,
Belə yaşatmışdı bu vərdiş onu.
...Könüllü katorqa, könüllü sürgün,
O böyük rəhbərin mərhəmətiydi,
Bilməz niyəsini bu ömür, bu gün,
Bəlkə bu gedişat "dahi" Stalinin,
"Halal" atasına irəhmətiydi,
Bu alın yazısı, yoxsa ki qədər,
Haraya sığışar bu boyda ah- ün,
Uzaq Borçalıdan Tayqaya qədər,
Yollar qurtarmadı düz qırx yeddi gün.
Bu yük vaqonları, yük gəmiləri,
Yollara dözmədi, dözmədi vallah.
Onlara yüklənən dərdi-qəmləri

Hələ görməmişdi bir olan allah,
Dözmədi qatarlar, dəmir yolları,
Dərd aldı hər yerdə bərəni- bəndi.
Dözdü Borçalının ağır elləri,
Dözdü Şair Ağacan,
Qasımlı Vəli,
Kolayır Qədir,
Ylrğançay Xoca,
Bir də Keşəlidən Yaqub Əfəndi.

* * *

Ağacan şeir dedi bu boyda yolu,
Deyirdi beş belə yol olsaydı da,
Bu şair atanın ürəyi dolu,
Qurtarmaz ay nədi, il olsaydı da,
Ağacan hamıdan ixtiyarıydı,
Sözləri özünnən ixtiyar baba,
Katorqa yolları bəxtiyarıydı,
Gedirdi qoynunda dövlət-var baba.
Gedirdi qəlbində nisgili, qəmi,
Fikri Ərdahanda Güllüzarıydı.
Şair Ağacanın xəyal aləmi,
Elə böyümüşdü- dünya darıydı.
Bülbülü uçmuşdu gülşən bağının,
Dünya nəzərində bir quruşuydu,
Yaqub lələsiydi bu dərd dağının,
Bircə şeir demək qurtuluşuydu.
Şair Ağacının son saatında,
Köhnə xatirələr yazıldı, gəldi.

İlham köhləninin yel qanadında
Tarix dolaylardan süzüldü, gəldi.
Keçdi xəyalınnan ömür-gün yolu,
"Urfanı" üstündə dinən saz kimi,
Elə bil açıldı qanadı-qolu,
Coşdu könül açan xoş avaz kimi.

* * *

"Dəli könlüm, gəl aldanma cahana,
Bilirsənmi nədi halı dünyanın.
İnanma, ömrüyün yoxdu vəfası,
Şəkərdən şirindi malı dünyanın.

* * *

Tabud oldu neçə taxtı-Süleyman,
Neçə İsfəndiyar, neçə qəhrəman.
Əjdaha nisbətdi neçə pəhləvan,
Köçübdü Rüstəmi-Zalı dünyanın.

* * *

Ağacanam, sana vurdum qoşunu,
Aradım-axtardım dağı-daşını.
İstədim ki, gedim bulum başını,
Gördüm qəbristandı yolu dünyanın".

* * *

Ömür sona doğru tələsir yaman,
Kim bilmir fələyin bu niyyətini,
Şair Əzraildən diləmir aman,
Deyir birər-birər vəsiyyətini:

"Köçürəm dünyadan, dost olannarım,
Oxudun üstümdə quran, gedirəm,
Müxənnət olmadım, könül qırmadım,
Alıb axirətə iman, gedirəm".

* * *

Durur ayaq üstə Ənvər, Şəmistan,
"Zarıncı" kökündə sızlar Göyçəyi.
Zəhranın qəlbində çırpınır tufan,
Onun əllərdədir saçı-birçəyi.
Gedir bu fanidən piri-şikəstə,
Qurtarıb zülmətdən bir insan,gedir.
Arzusu gözündə, ürəyi xəstə,
Oğlunnan, qızınnan nigaran gedir.
Əlvida söyləyir ahu-zarına,
Gedir qovuşmağa Güllüzarına,
Varınnan, yoxunnan bir can aparır,
Bu böyük ustadın dilində quran,
Qəlbində əbədi iman aparır.
Bircə təmənnası son nəfəsində,
Əyrilir, qoyrulur qəmli səsində.
- Oxu, molla Yaqub, bir yasin oxu,
Enir gözlərimə əbədi yuxu.
Köçür bu dünyadan bir adla məni,
Sən öz əllərinlə rahatla məni.
Qadadan, baladan sovuşum gedim,
Mən öz Allahıma qovuşum gedim.

Gərək tufan olsun, bir tufan – dedi ,
Yoxsa dağılan döy bu zindan – dedi.
Mənim axirətə imanım da var,
Sonrakı ömrümə gümanımda var.

* * *

Yasinə başladı Yaqub Əfəndi,
Ağacan ömrünün yetişdi sonu.
Göydən fəriştələr endi, nə endi,
Haqqın dərgahına qoydular onu.

* * *

Göylərdən yerlərə mərhəmət ensin,
Allahdan ruhuna irəhmət ensin,
Yaranannan dərdi-qəmin yoludu,
Enişdi, yoxuşdu, qaldı bu dünya.
Möcüzəli bir aləmin yoludu,
Şəkərdi, zəhərdi, baldı bu dünya.

* * *

Min fitnə-fəsadı, min də feli var,
Haqqı tapdamağa daim meyli var.
Hələ yetişməyib, hələ xeyli var,
Hələ ki, dəyməyib kaldı bu dünya.

* * *

Qapalı aləmdi sirli-soraqlı,
Örtülü kitabdı o qəm varaqlı.
Əzrayıl donunda yarlı-yaraqlı,
Aləmə vəlvələ saldı bu dünya.

Aqilin, arifin ömrü ah oldu,
Sirri açılmayan bir dərgah oldu.
Çatdı qulağına o agah oldu,
Dərin xəyallara daldı bu dünya.

* * *

Zülmü bulud oldu asimanlara,
Əzəldən müştaqdı axan qanlara.
Nahaqdan od alan xanimanlara,
Eləcə tamaşa qıldı bu dünya.

* * *

Özü öz başına əsdi soyurdu,
Bu düzü dünyanı dərdlə doyurdu.
Hiylə fitva qurdu, yalan buyurdu
Heç yana çatmayan yoldu bu dünya.

* * *

Külli-kainatı tapdaladı hey,
Aləmin belində od qaladı hey.
Bəşəri gözünnən uraladı hey,
De kimnən qisası aldı bu dünya.

* * *

Yerləri- göyləriələdi, keçdi,
Qananı qanına bələdi keçdi.
O öz cığırıyla mələdi keçdi,
Köhnə düdüyünü çaldı bu dünya.

Qanmazı qanana bəla yaratdı,
Qoynunu bəşərə qala yaratdı.
O nə yaratdısa belə yaratdı,
Bəxtini daşlara çaldı bu dünya.

* * *

Yedi öz içinnən özü, doymadı,
Özü doydusa da, gözü doymadı.
Kəsildi taqətdən dizi, doymadı,
Kim deyər bir əhli- haldı bu dünya.

* * *

Haray bu gərdişi-fələk əlinnən,
Düşmədi heç zaman ələk əlinnən.
Dağıldı qurduğu kələk əlinnən,
Əlləri qoynunda qaldı bu dünya.

# *ŞEİRLƏR*

## **Aşıq Göycə yadıma düşüb**

I şeir

Mən onun sazını çox dinləmişəm,
Mən onun sözünü çox dinləmişəm.
Mən onsuz özümü çox danlamışam,
Könlümdə göynəyən qubardı Göycə.

Təpədən dırnağa gövhər kanıydı,
Haqdan göndərilən ərmağanıydı.
Bir sinə dolusu Ağacanıydı,
Məclisə zər kəlam səpərdi Göycə.

Dərya vardı, ümman vardı canında,
Uçardı sənətin kəhkəşanında,
Çox istərdim çıraq olam yanında,
Şəyirdin alnından öpərdi Göycə.

Halal mayadandı əsili-soyu,
İlhamı dumduru, bir cənnət suyu.
Sənət meydanında öz ömrü boyu,
Atını dördnalla çapardı Göycə.

Elin ozanıydı, sənətkar oydu,
Nə sənətdən doydu, nə eldən doydu.
Sazını dünyada əmanət qoydu,
Özüylə dünyalar apardı Göycə.

II şeir

Elə bil dünyaya söz urvatıydı,
Bütün varlığıyla bir sazıydı o.
Könlündə bu aləm havacatıydı,
Sehirdən yoğrulan avazıydı o.

Sinəsi çağlayan gur bulağıydı,
Hər sözü çiçəkli bir yaylağıydı.
Dastanı- yanağı yüz qalağıydı,
Dağ çəkən ney kimi göz-gözüydü o.

Kamil nəqqaşıydı hər cür urvatda,
Gerçəkdə- doğruda, lap zarafatda.
Uçardı murazı ala buludda,
Yerlərdən göylərə pərvazıydı o.

Onun Haqdan gələn düz yolu vardı,
Hər zaman istəyi Haqqa çatardı.
Yayın ortasında qar yağdırardı,
Qışın ortasında bir yazıydı o.

Dərviş Osman, sərraf libas geymisən,
Tərəzinin yan gözünü əymisən.
Aləm bilir Şahvazı çox öymüsən,
Bir Göyçəydi, yüz- yüz Şahbazıydı o.

III şeir

Aşıq Göycə, aç süfrəni,
Mehman olum söz aşına.
Ta əzəldən heyranıydım,
Huşyar olan düz huşuna.

Çaş qoyursan hər insanı,
Əsdirirsən Nuh tufanı.
Dərya- ümman Ağacanı,
Necə yığıfsan başına?!

Kür üstünnən dönüb gəlləm,
Sazı- sözü anıb gəlləm.
Babakərdən enib gəlləm,
Savaş açam savaşına.

Haqdan sana haqqı-saydı,
Ulu nemət-gözəl paydı.
Aşıqlıq uca saraydı,
Sən bələdsən qaş-daşına.

Çox çətindi bu bənd-bərə,
Keçilməzdi bu dağ-dərə.
Ustad gərək yol göstərə,
Osman adlı qardaşına.

## Türk oğlu türkdülər qarapapaqlar

Haqqdan göndərilən bir ərməğandı,
Anamız dünyaya şərəfdi, şandı,
Yerə də, göyə də çoxdan əyandı,
Aləmə görkdülər qarapapqlar.
Türk oğlu türkdülər qarapapaqlar.

Damarda çağlayan halal qanı var,
Haqqın öz payından min imanı var.
Qurğusu tanrıdan xanimanı var,
Dünyaya ərkdilər qarapapaqlar.
Türk oğlu türkdülər qarapapaqlar.

Sözü namus ədalətin simgəsi,
Özü dürüst həqiqətin simgəsi.
Bu dünyada mərifətin simgəsi,
Təməldən bərkdilər qarapapaqlar.
Türk oğlu türkdülər qarapapaqlar.

Onlar həm atlıdı, həm də yüyrəkdi,
Təpədən dırnağa candı, ürəkdi.
Amalları insanlığa gərəkdi,
Haqqa şərikdilər qarapapaqlar.
Türk oğlu türkdülər qarapapaqlar.

İyirmi dörddən gəlir, o ulu boyu,
Oğuzdu, olğundu əsili, soyu.
Sözündə özüdü bayanı, bayı,
Dağda gərəkdilər qarapapaqlar.
Türk oğlu türkdülər qarapapaqlar.

Sevgiyə boylanar, eşqə əl eylər,
İmanı, səhrayı çəmən, gül eylər.
Qitədən-qitəyə aşar yol eylər,
Çox dərin kökdülər qarapapaqlar.
Türk oğlu türkdülər qarapapaqlar.

Köç-köç olar yaylaqlara düzülər,
Murazdarı xeyirliyə yozular,
Dağda, daşda tarixləri yazılar,
Ulu görükdülər qarapapaqlar.
Türk oğlu türkdülər qarapapaqlar.

Kim tanımaz, kimdi yaxını, yadı,
Onlar insanlığın ağzının dadı.
Ehehehey mənəm, sənsən, odu,
Saf toxum əkdilər qarapapaqlar.
Türk oğlu türkdülər qarapapaqlar.

Min illərdi meydanlarda durandı,
Zaman-zaman yeni dünya qurandı.
Murazları ay yıldızlı Turandı,
Qeyrətdə təkdilər qarapapaqlar.
Türk oğlu türkdülər qarapapaqlar.

## Nobat tutmalıyam Sarıkamışda

Tarixi qürurum dilimdə əzbər,
İçimdə od- alov bi qarlı kışda.
Mən də mehmetçiyəm ey eşidənlər,
Nobat tutmalıyam Sarıkamışda.

Bu torpaq uğruna ölənlər canım,
Burdakı şəhidlər şərəfim-şanım.
Məni rahat qoymaz əsla vijdanım,
Nobat tutmalıyam Sarıkamışda.

Yəmən ellərindən dönənlər üçün,
Bu qarlı dağlarda donanlar üçün.
Bizə örnəy olan dünənlər üçün,
Nobat tutmalıyam Sarıkamışda.

Haqqın- həqiqətin köməyiylə mən,
Duyan ürəklərin diləyiylə mən.
"Kars Sərhəd Boyları" dərnəyiylə mən,
Nobat tutmalıyam Sarıkamışda.

Borçalıdan yola çıxdım "Haq" deyib,
Bu dünyaya Türk bayrağı yelləyib,
Şəhidlərin ruhlarına baş əyib,
Nobat tutmalıyam Sarıkamışda!
Nobat tutmalıyam Sarıkamışda!

## Çəkərəm

Bu dünyanın hər dərdini,
Tərəziylə tən çəkərəm.
Yarı tufan, boran olsa,
Bir təhər- bir yön çəkərəm.

Acısını gizləyərəm,
Amanını gözləyərəm.
Dərmanını özləyərəm,
Ahı saxlar, ün çəkərəm.

A Dərvişin sitəmkarı,
Gəl səsimi eşit barı.
Sana gələn ağrıları,
Mənə göndər, mən çəkərəm.

## Gördüyüm yuxu

Bu gecə yuxuda bir mələk gördüm,
Yasəmən qoxusu yaz  havasıydı.
İşvəsi dünyanı fəth eləmişdi,
Qəmzəsi ömrümə naz havasıydı.

O nur üzü bir sevdanın aynası,
Şirin sözü mənaların mənası.
Qüdrətdəndi o yuxunun binası,
Söhbəti ömrümə saz havasıydı.

Gördüm bu mələksiz dünya yalandı,
Sinən üstə eşq ocağı qalandı.
Haq havası ürəyimə calandı,
Bu hava sevdamın öz havasıydı.

## Mərhəba

*Xeyirxahlığıyla ad alan Soğannıqlı*
*gürcü Məmmədə*

O gur səsin hər mahala yayılıb,
Gürcü Məmməd, harayına mərhəba.
Söz sarayın ləli-gövhər sayılıb,
Gürcü Məmməd, sarayına mərhaba.

Dost yolunda qurban dedin canını,
Dost yolunda qazandın imanını,
Gələn qondu, qonan kəsdi nanını,
Gürcü Məmməd, çörəyinə mərhaba.

Dərviş Osman dastan yazsın adına,
O bələddi alovuna, oduna,
Gürcü Məmməd, ürəyinə mərhaba,
Xoş arzuna, diləyinə mərhaba.

## Emin ağa Borçalıya

Bir ərəndi tariximin yadında,
Qürur, vüqar əsilində, zatında.
Ləyaqəti göyün yeddi qatında,
Emin ağa pir ağıldı, pir ağıl.

Üzü Yurda günəş kimi oyandı,
Ömrü- günü Haqdan nura boyandı.
Ona görə başı ərşə dayandı,
Emin ağa nur ağıldı, nur ağıl.

Kainata yayıldı səs- sorağı,
Dilində Haqq, əlində Türk bayrağı.
Meydan aldı Qarapapaq növrağı,
Emin ağa bir yığvaldı, bir yığval.

Qızıl tacdı Borçalının baxtında,
Aləm gördü zamanında, vaxtında.
Fərman verdi padışahlıq taxtında,
Emin ağa ər oğuldu, ər oğul.

Qeyrətimin zirvəsiydi, min rəhmət,
Şöhrətimin zirvəsiydi, min rəhmət.
Millətimin Haq səsiydi, min rəhmət,
Emin ağa bir oğuldu, bir oğul.
Emin ağa bir nağıldı, bir nağıl...

## Oldum

Bu mənə Haq butasımı?
Məni mənə qatasımı?
Bu ah məni tutasımı...
Bir ox dəydi, şan-şan oldum.

Sel uçurdu bənd- bərəmi,
Ağlamaq tutdu Kərəmi...
Bu göz yaşım Mərmərəmi?
Öz məcramı daşan oldum.

Bu zulumu kim elədi,
Ürəyimə him elədi.
Məni "İbrahim" elədi,
Öz adımdan pünhan oldum.

Bir nağıldan gəldi lələk,
Önümdə bir hürü-mələk.
Qiymətimi verdi fələk,
Dərdi- qəmi aşan oldum.

Səhralarda dözə-dözə,
Axır dəvəm çıxdı düzə.
Can verdim bir "löyünsüzə",
Ucaldım, kahkaşan oldum.

Gələn günnən köç-köçüydüm,
Bu dünyaya bir suçuydum.
Dünənəcən mən heçiydim,
Bu gün sevdim-insan oldum,
Bu gün sevdim insan oldum.

## Üzü dağlara

Ojaxmı qarsadıf, qoramı düşüb,
Yoxsa ürəyinnən toramı düşüb?
Bəlkə arxasınca haramı düşüb,
Bir maral boylanır üzü dağlara.

Görən alışdımı, görən yandımı?
Bilmirəm əhdini yoxsa dandımı?
Yoxsa bu pərişan Natavandımı?
Bir maral boylanır üzü dağlara.

Təşnə dodaqları bulağa çatmır,
Nə səsi-sədası yaylağa çatmır,
Əlləri o dağa, bu dağa çatmır,
Bir maral boylanır üzü dağlara.

Hanı Alıqara, çala düdüyü,
Addaya bələni keçə gədiyi,
Axtaram könlümdə itən itiyi,
Bir maral boylanır üzü dağlara.

Hələ əllərində xınası qalıb,
Hələ Şamdüyədə binəsi qalıb,
Hələ bu dünyada dünyası qalıb,
Bir maral boylanır üzü dağlara.

Yağışmı yağacaq hava qaralıb,
Şimşəkmi çaxacaq bulud yarılıb,
Yoxsa o sazdakı telmi qırılıb,
Bir maral boylanır üzü dağlara.

Çiçəyi çıtdamır yamacın, yalın,
Şəhdi də süzülmür pətəkdə balın.
Məni dindirməyə bir hava çalın,
Bir maral boylanır üzü dağlara.

Mənim bu dağlarda nəyim qalıbdı,
Kamanım qalıbdı, neyim qalıbdı,
Biraz göynəməyə heyim qalıbdı,
Bir maral boylanır üzü dağlara.

Hanı bu dünyanın məzəsi getdi,
Köhnəsi köhnəldi, təzəsi getdi,
Yoxsa alnımızın yazısı getdi,
Bir maral boylanır üzü dağlara.

Min nazı qəmzəsi, ədası hanı?
Şaqraq gülüşlərin qadası hanı?
Bəs bunun öz səsi sədası hanı?
Bir maral boylanır üzü dağlara.

Deməyin, o təzə vərdiş axtarır,
Bəlkə də aləmə gərdiş axtarır,
Bəlkə Osman adlı Dərviş axtarır,
Bir maral boylanır üzü dağlara.

Lələyi qoy vursun lələyə gəlləm,
Arzumu bükərəm bələyə gəlləm,
Mən ona mələyə-mələyə gəlləm,
Bir maral boylanır üzü dağlara.

Gələrəm tükənməz nağıl olaram,
Gələrəm başına sığal olaram,
Gələrəm mən ona yığval olaram,
Bir maral boylanır üzü dağlara.

## Duydum

Yorğunluq, arğınlıq getdi canımdan,
Ruhumda bir həzin yel səsi duydum.
Var olsun qoy məni unutmayanlar,
Hayana getdimsə el səsi duydum.

Çox da uzaq yollar qət eyləmədim,
Hər gəlib gedəni mədh eyləmədim.
Vallah, ayrı könül fəth eyləmədim,
"Qayıt" səsi duydum, "gəl" səsi duydum.

Dünyanı gəzməkdə bir murazım var,
Haqqım- həqiqətim olsun elə car.
Qəlbi "Dərviş" deyən çəkməz intizar,
O qəlbin səsində tel səsi duydum,
"Qayıt" səsi duydum, "gəl" səsi duydum.

## Nə gözəl

Aldım naməsini bir duyan kəsin,
Kəlməsi nə gözəl, sözü nə gözəl.
Sandım ki, qarşımda bir maral durur,
İşvəsi nə gözəl, nazı nə gözəl.

Misraları şəkərdimi, baldımı?
Ya hər bəndi al yanaxda xaldımı?
Bu nə hikmət, de halətim qaldımı,
Məzəsi nə gözəl, duzu nə gözəl.

Öz könlünə həmdəm bildi hər kəsi,
Bu könül də o könülün təşnəsi.
Qəlbimdədi laylasının bəstəsi,
Mizrabı nə gözəl, sazı nə gözəl.

O gül arzu-arzuların arzusu,
Gələn namə bir murazın yavrusu.
Haqdan bizə yazılıbsa yazısı,
Tanrının yazdığı yazı nə gözəl.

## Təbriz

Düz bir ömür həsrətini çəkmişəm,
Al məni qoynuna, al indi Təbriz.
"Yanıq Kərəm'" üstə göynəyən sazam,
Köklə, sinən üstə çal indi Təbriz.

Zaman- zaman dünya qilü- qal oldu,
Vüsala yetişmək bir xəyal oldu.
"Təbriz" deyəmmədim, dilim lal oldu,
Şeyda bülbül olub lal indi Təbriz.

Hey çəkdi özünə, çəkdi qan məni,
Tuşladı hədəfə düz nişan məni.
Çağırdı qoynuna Savalan məni,
Ağ qardan başında şal indi Təbriz.

Sulartək duruldum, aydan arındım,
Murazımın murazına büründüm.
Sana doğru dizin- dizin süründüm,
Vəslinə göründü yol indi Təbriz.

Diləklərim ululardan uludu,
İnsanoğlu qismətinin quludu.
Qoy dolansın bir həsrətin qoludu.
Boynuna dolanan qol indi Təbriz.

## Rustaveli– Nizami

Haq mayası əqli nurdan yoğrulan,
Günəş kimi ərş üzündə doğulan.
Misra-misra kainata dağılan,
Biri Rustaveli-biri Nizami.

Min hikmətə açar olan qələmi,
Zaman- zaman fəth eləyib aləmi.
İdrakın fatehi, əqlin həmdəmi,
Biri Rustaveli- biri Nizami.

Avtandilin, Rostevanın haqq səsi,
Leyli-Məcnunların eşq təntənəsi.
Bütün zamanların tək sərkərdəsi,
Biri Rustaveli- biri Nizami.

Dünya kimi ululaşan-qocalan,
Söz mülkünnən sultan olub, bağ salan.
Könüllərdə heykəlləşən, ucalan,
Biri Rustaveli-biri Nizami.

## Bakıdan Tiflisə gələn qatara

Bu qatar mələyə-mələyə gəlir,
Lələyi dəydirib lələyə gəlir.
Yağmura, tufana, küləyə gəlir.

Özü öz içində iman gətirir,
Bu gündən sabaha guman gətirir.
Könüldən könülə mehman gətirir.

Dərdini- sərini dondurub gəlir,
Atının səmtini döndərib gəlir.
Dərdin atasını yandırıb gəlir.

Gərək qabağına atdanam gedəm,
Hər dərdə-əzaba qatdanam gedəm.
Şirin söhbət olam- daddanam gedəm.

Gərək bu qatarı eynimə alam,
Gərək bu qatarı boynuma alam,
Gərək bu qatarı qoynuma alam...

Nəyə istəsniz olaram boyun,
Olmasın əyləncə, olmasın oyun.
Məni bu qatara bələdçi qoyun.

Haykırır gecənin yarılır bağrı,
Çəkilir göylərə canımnan ağrı,
Bir qatar yol gəlir Osmana doğru.

## Qalıbdı

Ələyim ələnib, xəlbirim göydə,
Deməyin teştimdə kündə qalıbdı.
Ağ gündən ayrıyam başdan, binadan,
O günnər uzaxda-gendə qalıbdı.

Taleyin cövrünnən azdıqca azdım,
Zaman dara çəkdi, canımnan bezdim.
Dərdimi dağlara-daşlara yazdım,
Ağrısı damarda-qanda qalıbdı.

İçim qar- borandı, çölüm güllü yaz,
Ahım asimana eyləyir pərvaz.
Könlümdə göynəyir bir sədəfli saz,
Xəyalım dumanda, çəndə qalıbdı.

Dəryalarda yelkənsiz bir gəmiyəm,
Suyu axmaz, otu bitməz  zəmiyəm.
Əl dəysə yıxılan heykəl kimiyəm,
Bir udum nəfəsim canda qalıbdı.

Hanı bu dünyada əzəl haqqı say?!
Sən demə yalanmış bu hay, bu haray.
Bircə ürəyim var, o da iki pay,
Yarı səndə, yarı məndə qalıbdı.

**Sənnən ayrı**

Kamana dönmüşəm hicran əlinnən,
Düşüb murazıma dən, sənnən ayrı.
Özümün özümdən yoxdu xəbərim,
Qurumaz yanaxda nəm, sənnən ayrı.

Qoy daha car olum ağıza, dilə,
Özümə bəs edər yazdığım çilə.
Bu boyda əzabı mən bilə-bilə,
Gəlməzmi gözümə çən, sənnən ayrı.

Bir şeyda bülbüləm Anadoluda,
Bursada, Sivasda,Qarsda, Boluda...
İtirmişəm cığırı da, yolu da,
Çox çətin taparam mən, sənnən ayrı.

Yazığam, vəslinə gəl haxla məni,
İntizar fəsliyəm, soraxla məni.
Sevda kitabıyam, varaxla məni,
Axı, kim varaxlar, kim, sənnən ayrı.

Nə çiçəyim açar, nə gülüm sənsiz,
Bitənə oxşamır bu zülüm sənsiz.
Osman yaşayarmı, nə bilim sənsiz.
Tutan döy bu bina-him sənnən ayrı.

## Var

Yaranışın öz aləmi,
Yeri- göyü səması var.
Ağ- qaraya qarışmasın,
Hər şeyin öz siması var.

Bu aləmlə çəkmə bəhsi,
Öz duyğunla al nəfəsi.
Yerin göyə cazibəsi,
Göyün- yerə təması var.

Hər budağın çətri nə xoş,
Hər yarpağın qədri nə xoş.
Hər çiçəyin ətri nə xoş,
Hər gülün öz rənası var.

Hər mətdahın var bazarı,
Alan yarı, satan yarı.
Hər işin bir xiridarı,
Hər əməlin aynası var.

Dünya Tanrı qərargahı,
Ərşin-gürşün var pənahı.
Hər axşamın bir sabahı,
Hər umudun röyası var.

Könlündədi Haqqın səsi,
Dərviş Osman çək nəfəsi.
Dünyanın bir fəlsəfəsi,
Hər kəsin bir dünyası var.

## A dağlar

Yenə sənnən düşdü sözüm-söhbətim,
Qoynunda bir ocaq çatam, a dağlar.
Bir muraz üstəyəm-uçan zirvənə,
Quşqonmaz yalına yatam, a dağlar.

Hər qayanda tarixim var, izim var,
Hər daşında bükülməyən dizim var.
Baxışında söhbətim var, sözüm var,
Sevgilim a dağlar, butam a dağlar.

Göylərində buludlarla əlləşəm,
O qıy vuran qartalınla çəlləşəm.
Çəngəl buynuz kallarınla helləşəm,
Heç olmaz yanında xatam, a dağlar.

Layla çalam saza dönəm- tellənəm,
Yazda qartək sinən üstən sellənəm.
Umuduma, istəyimə yollanam,
Təzə- tər şehinə batam, a dağlar.

Osmanam, kimsənəm, kimimsən mənim,
Özümsən mənim, himimsən mənim,
Bəlkə də o itgin əmimsən mənim.
Bəlkə də əzəldən atam, a dağlar.
Sevgilim a dağlar, butam a dağlar.

## Bir dastana yazılan şeir

Yüz Leyli yerisə, yüz Şirin gəlsə,
Yüz pəri gözünün yaşını silsə.
Yüz mələk həsrətdən, qubardan ölsə,
Heç biri Gülzarın telinə dəyməz.

Yüz sevən ürəklər olsa tarımar,
Bir  eşqin yolunda çəksələr də zar.
Dövrəndə dolaşsa yüz məsti- xumar,
Heç biri Gülzarın telinə dəyməz.

Yanımda ötsələr yüz- yüz qumrular,
Sevən bir ürəyə eyləyərmi kar?
Bütün yer üzündə nə ki , gözəl var,
Heç biri Gülzarın telinə dəyməz.

## Boluda

Bu dünyanı seyrə daldım,
Sağı, həm solu Koroğlu.
Haqqa doğru kim gedərsə,
Getdiyi yoluKoroğlu.

Çənlibellər ər meydanı,
Ağ qayası yar meydanı.
Ürəklərdə var meydanı,
Ürəyi dolu Koroğlu.

Misri qılınc Qıratıyla,
Haqq əlindən baratıyla.
Xoyratıyla, bayatıyla
Uludan ulu Koroğlu.

Haq deyər, Haqqı çaşdırmaz,
Yağılardan söz açdırmaz.
Namərdlərə göz açdırmaz,
Mərdlərin qulu Koroğlu.

Hər dağda bir çalası var,
Turan adlı qalası var.
Boluda öz laylası var,
Koroğlu Boludu-Bolu Koroğlu.

## Gəldim

(*Sarıkamış şəhidlərinə*)

Açıb əllərimi haqqın önündə,
Şəhid duasını verməyə gəldim.
Turan ərlərinin anım günündə,
Qürurla sinəmi gərməyə gəldim.

Əzmiylə dünyada car olanların,
Eşqiylə yurduna yar olanların.
Könül gözlərində var olanların,
Nuruna ulduzlar səpməyə gəldim.

Qol-qanad açmışam bu qarlı qışa,
Gəldim ki baş əyəm torpağa- daşa,
Soğannı dağına, Sarıkamışa,
Tarihin dərsini sormaya gəldim.

Çox çəkmişəm keçmişimin bəhsini,
Dinləmişəm ürəyimin səsini.
Şəhidliyin ən uca zirvəsini,
Mən öz gözlərimlə görməyə gəldim.

## Mərhaba

Tanrının yaratdığı,
Xətti-xala mərhaba.
Gözəliyin aynası,
Ay camala mərhaba.

Maral-ceyran baxışa,
Sular kimi axışa.
Cənnət-məkan ağuşa,
Ləbdə bala mərhaba.

Aşıb-daşan "sərvət"ə,
Məsti- xumar urvata.
Baxışdakı mürvətə,
"Cəh-cəlal"a mərhaba.

Canı cannan alana,
Məni dərdə salana.
Ömrü-günü nalana,
Qeylü-qala mərhaba.

Yollarında duman-çən,
Dərdinnən deyib-gülən,
Bu gün dünyaya gələn,
Gül yığvala mərhaba!

## Kiçik bir giley

Hər gün bir toy, hər gün bir yas,
Bu nə qaçaqaç, bu nə basabas?
Sən bu bəladan gün qapa bilsən,
…vaxt tapa bilsən,
Mənə də baş çək, gülüm!
Yoxsa, bu dərd vərəm bağlayacaq,
Sən macal tapmadıqca, gec olacaq.

## Salam olsun

O, göylərdən gələn bir nur,
Özü büllur, sözü büllur.
Gözəlliyin puçur-puçur,
Pöhrəsinə salam olsun.

Mələk donlu bir nigarın,
Öz müjdəsi arzuların.
Təravətdə ilk baharın,
Çöhrəsinə salam olsun.

Məsti- xumar o qəmzənin,
Gözəllikdə son imzanın.
Cahana düşən lərzənin,
Bəhrəsinə salam olsun.

Tanrıdan o xoş niyyətin,
Güldən süzülmüş şərbətin.
Şəhdi- şəkər bir nemətin,
Süfrəsinə salam olsun.

Sirli- sehirli dünyanın,
Haqdan möhürlü dünyanın.
Bu nurlu-dürlü dünyanın,
Dünyasına salam olsun.

Bir umudun, bir gumanın,
Min bir dərdə bir dəvanın.
Şah damarda qaynar qanın,
Dəryasına salam olsun.

Ay camalın aynasının,
Hürü-mələk simasının.
Ol haqqın Rəhnumasının,
Mövlasına salam olsun,
Mövlasına salam olsun.

## Gələrəm

Nə olar əzizim, əl eylə mənə,
Uğur namazımı qılıb gələrəm.
Dəryalar keçərəm, dağlar aşaram.
Əlimə bir cığır alıb gələrəm.

Yolumu qar basa, min tufan ola,
Mənim də canımda xəstə can ola.
Bəlkə də ən böyük imtahan ola.
Ən çətin sualı bilib gələrəm.

Min əzaba, min sınağa dözərəm,
Yad baxışda min qınağa dözərəm.
Bir sevdaya can sadağa, dözərəm.
Axan göz yaşımı silib gələrəm.

Gələrəm, sən mənə bircə him eylə,
Sevdalı baxışa gəl məhkum eylə.
Bir yol, tək bircə yol təbbəssüm eylə,
Dərdimi, qəmimi bölüm gələrəm.

Dərviş Osman, meyli eşqə sarıyam,
Sulardan duruyam, aydan arıyam.
Haq mənə güc versin yardan yarıyam,
Leysan buluduyam, dolub gələrəm.
Hicranın saçını yolub gələrəm,
Mən sənin yanına qalib gələrəm!!

## Olardımı heç

Sözü məqamında söz olmasaydı,
Fikri də, zikri də düz olmasaydı.
Elin şorbasına duz olmasaydı,
Osman-həmən Osman olardımı heç?

Yolunu, izini çaş salardısa,
Hər çıxmaz quyuya daş salardısa.
Başsız təmannaya baş salardısa,
Osman-həmən Osman olardımı heç?

El-elat qoxulu gül dərməsəydi,
Turan ellərinə göndərməsəydi,
Bir amal uğruna can verməsəydi,
Osman-həmən Osman olardımı heç?

Meydanı versəydi yalançılara,
Yallanan, çullanan dilənçilərə.
Xainə, xəbisə, talançılara,
Osman-həmən Osman olardımı heç?

Bir qəlb ocağını qalamasıydı,
Ömrümü Haq ömrə calamasaydı,
Yurd üçün qurd olub ulamasaydı,
Osman-həmən Osman olardımı heç?

Başında zil qara börk olmasaydı,
Soyu kainata görk olmasaydı.
O, bir Tərəkəmə-Türk olmasaydı,
Osman-həmən Osman olardımı heç?

Borçalı deyəndə göynəməsəydi,
Qanı qayır-qayır qaynamasaydı,
Sazda "Urfanı"ya oynamasaydı
Osman-həmən Osman olardımı heç?

## İsmarıc

Təkadamlıq yerdə tənha deyilsən,
Yanında Allahın mələkləri var.
Ruhunu göylərdə pərvaz eyləsən,
Qəlbiyin nə qədər dilələri var.

İçində fırtına, çölündə sükut,
Canında canıma bir dünya umut.
Göylər göyərçini, yerləri unut,
Yerlərin hələ çox kələkləri var.

Göytürk Göy oğuza göylərdən paydı,
Bu ülvi ərmağan bir haqqı-saydı.
Yön çöyür Osmana, amandı-hoydu,
Dünyanın çox yaman küləkləri var.

## Ayrıdı

Mən bir saz kimiyəm, kökləyən olsa,
Zilim zil üstədi, bəmim ayrıdı.
Hal bilən, dil bilən, anlayan kəsə,
Söhbətim ayrıdı, dəmim ayrıdı.

"Urfanı" yam, "Bəhməni" yəm, "Dilqəm"əm,
Can ağrılı, gözü yaşlı dil qəməm.
Pərdə- pərdə dindir məni gör kiməm,
Təzanəm ayrıdı, simim ayrıdı.

Sərgardan olmayıb dinim- imanım,
Haqqın dərgahına gəlir gümanım.
Mən Tahir deyiləm, ay Zöhrə xanım,
Dəryada qərq olan gəmim ayrıdı.

O qarlı dağları aşıb gəlmişəm,
Bəlkə bu dünyaya çaşıb gəlmişəm.
Eşqin kürəsində bişib gəlmişəm,
Özülüm ayrıdı, himim ayrıdı.

Dədəm pir yolunda ələndi gəldi,
Babam səhraları dolandı gəldi.
Dərviş eşq əlindən talandı, gəldi,
Mənim bu yollardan kimim ayrıdı?!

## Mən

Gedirəm ömrümün dolaylarına,
Ağlaya- ağlaya, gülə-gülə mən.
Bəmbəyaz qışına, boz aylarına,
Gözümün yaşını silə-silə mən.

Zaman əritdikcə saf dəmir oldum,
Yoğrula- yoğrula nur xəmir oldum.
Közüydüm, çox yandım, bir kömür oldum,
Yeddidən yetmişə gələ-gələ mən.

Çox qarlı dağları aşdım da aşdım,
Çınqıla yalmandım, daşa sarmaşdım.
Məcnun oldum-səhraları dolaşdım,
Car oldum sevdamla gülə-gülə mən.

Durnaydı qatarım, səfi pozulan,
Yuxuydu gördüyüm tərsə yozulan.
Haqqın yazısıymış mənə yazılan,
Yaşadım bu ömrü bilə-bilə mən.

Dünyaya gəlişi bir paymış deyin,
Yaşadığı ömür xataymış deyin.
Bu Osman ölüyə bir taymış deyin,
Bəlkə xatırlandım belə-belə mən.

## Adsız şeir

Məni hara çəkir bu baş bilmirəm,
Bəlkə də gedişat özü belədir.
Ömrüm bu yollarda şabaş, bilmirəm,
Başımın önündə ayaq kölədir.

Məni hara çəkir bu istək, lələm,
Gələnnən gedənə bu yollardayam.
Çox yaman incidir bu ağır şələm,
Özüm də bilmirəm nə hallardayam.

Mən hara gedirəm bu qarlı qışda,
Nəyimə lazımdı öz alın tərim.
Elə hey yollarda, hey axtarışda,
Hanı qazandığım, itirdiklərim?

Dərəsi dərindi, yoxuşu çətin,
Hələ bu yolların düzü hesabsız.
Başı qarışıqdı hələ millətin,
Arşını hesabsız, bezi hesabsız.

Hələ yol gedirəm özümə doğru,
Mən özüm özümə axtarışdayam.
Hələ səmt gəzirəm izimə doğru,
Hələ bu yollarda uşaq yaşdayam.

Mən hara gedirəm, atam balası?
Baxıb addayıram yamacı-yalı.
Deyən yoxdu "Ay Allahın dəlisi!"
Haraya gedirsən başı havalı?

Başımı götürüb gedirəm elə,
Ya bir yer gəzirəm kölgələnməyə...
Onsuz da bu ömrü vermişəm selə,
Mən hazır deyiləm ölkələnməyə.

## Varmış

Kimlər gəldi, kimlər getdi dünyadan,
Nə qədər gedəsi, gələsi varmış.
Nə qədər boşalıb, nə qədər dolub,
Nə qədər yarımçıq şələsi varmış.

Gəldi- gedəriymiş hökmü-zamanlar,
Ağır padışahlar, şahlar-xaqanlar.
O dağı- bu dağı bölən fərmanlar,
Nə qədər eləsi-beləsi varmış.

Oyun- oyuncaqmış ağalar- qullar,
Əllərin kiriymiş paralar, pullar.
Nə qədər yazılmış qəlbi yoxsullar,
Nə qədər nəfsinin köləsi varmış.

Zamanın fitnəsi-feli quruldu,
Nanəcib dünyanı yordu-yorurdu.
Haqqın-həqiqətin beli qırıldı,
Taleyin nə qədər çiləsi varmış.

Bu aləmi bir- birinə vuranlar,
Kənardan boylanıb gendə duranlar.
Ey halal dünyaya tələ quranlar,
Haramın çox ağır tələsi varmış.

Bu məhvər qaranlıq, bu yollar uzun,
Yozun, yuxunuzu xeyirə yozun.
Haqqa tüfəng atan hər dələduzun,
Özünə tuşlanan lüləsi varmış.

Dövran yola verdi Dərviş Osmanı,
Uydu boş aləmə, qoy çıxsın canı.
Tanıya bilmədi qoca dünyanı,
Yerlərin- göylərin lələsi varmış.

## Sevgi

Nə şaha baş əyər, nə də sultana,
Tanrının əl üstə əlidi sevgi.
O elə təbibdi- loğmandı canı,
Əsil ömrün gəlhagəlidi sevgi.

Baharda, payızda, ya qışda gələr,
Boranda, tufanda, yağışda gələr.
İstəsə əllidə, altmışda gələr,
Bir ömrün yaşılı-alıdı sevgi.

Könül yiyəsinin başında tacı,
Min bir dərdin bir ömürlük əlacı.
Padışah eyləyər ona möhtacı,
Bütün sərvətlərin əlidi sevgi.

Gələr, ömrü- günü döndərər yaza,
Ağrıyı, acıya verər güdaza.
Züleyxa çöyrülər bir gözəl qıza,
Yusifə peyğəmbər yoludu sevgi.

Bir yanar od olar, yandırar yaxar,
Al qana çöyrülər damarda axar.
Kimdə var tüstüsü təpədən çıxar,
Pətəkdə beçənin balıdı sevgi.

Uğrunda can verən canan qazanar,
Canan qazananlar iman qazanar.
Kim eşqə qurbansa cahan qazanar,
Can ilə cananın quludu sevgi.

Muraz istəyənə verər murazı,
Onun müjdəsidi Haqqın nitazı.
Ay Osman, alnına yazılan yazı
Adəmnən, Həvvadan uludu sevgi.

## Bəstəkar qardaşıma məktub

Mən qaraqayışam, bəstəçi qardaş,
Mənim öküzlərim diz verir yerə,
Mənim əllərimlə parçalanır daş,
Mənim laylam üstə gülür dağ-dərə.

Mənim kotanlarım dərinə işlər,
Qaya parçalayır, dağ yarıram mən.
Səpdiyim toxumu olur ki, bir-bir,
Alnımın təriylə suvarıram mən.

Mən xırman yeriyəm, tarixi uzun,
Alnında zamanlar cığırlanıbdır.
Mən bir həqiqətəm, doğruya yozun,
Sinəmdə milyon il vəl fırlanıbdır.

Fəryad ocağıyam, nə dərin dərdi,
Min ilin fəryadı bitər sinəmdə.
Bəlkə neçə milyon bəşərin dərdi,
Yaranar sinəmdə, itər sinəmdə.

Yetişmiş zəmiyəm- ulu bir zəmi,
Dən-dən sünbülümü biçənim haray.
Arzum bir ümmandır, ürəyim gəmi,
Təşnə bir dənizəm, köçənim haray.

Açılmış süfrəyəm, neməti bol-bol,
Günəşin nurunda, yaz havasında.
Məndən sənə doğru işıqlı bir yol,
Borçalı kökündə, saz havasında.

Mən bir dəyirmanam, dəhnəsi bol-bol,
Daşdarım hərrənir, novatı gözlə.
Ələyim ələnir, bir az ağır ol,
Urvan ucuz olar, urvatı gözlə.

Yerdə göy bulağam, göydə buludam,
Bir anın içində ümmana dönnəm.
Bir ulu çinaram, addı palıdam,
Kölgəmə sığınsan saz kimi dinnəm.

O başdan yuxuna haram qat bir gün,
Çıx yola, uğurlu bir səfər olsun.
Hardasa uman var, ora çat bir gün,
Bu səfər ömrünə qoy zəfər olsun.

Səni gözləyirəm, bəstəçi qardaş,
Bir "cəngi" üstündə üstələ məni.
Səni səsləyirəm, bəstəçi qardaş,
Gəl, hazır mahnıyam, bəstələ məni.

## Görmüşəm

Çox keçmişəm kələ-kötür yolları,
Dalğa-dalğa qəfil gələn selləri.
Öylər yıxan haça ilan dilləri,
Ağızlarda zəhrimarı görmüşəm.

Zaman- zaman kündələndim, əzildim,
Tel-tel oldum-qıldan incə nəzildim.
Haq yeridim, nahaqlara yozuldum,
Baharımda boran-qarı görmüşəm.

Çox cılızlar kəmənd atdı kölgəmə,
Səhralarda tor qurdular "mülkümə",
Tanrıdan pay-ağılıma, bilgimə,
Çamur atan qəlbi koru görmüşəm.

Bir dən oldum, torpaqlara əkildim,
Dirigözlü yüz yol dara çəkildim.
İlmə-ilmə ürəyimnən söküldüm,
Həqiqətə sitəmkarı görmüşəm.

Doğruları qoymamışam darda mən,
Əyriləri çox salmışam dərdə mən.
Bu canımı qurban dedim Yurda mən,
Sinəmdə alışan narı görmüşəm.

Bir palıdam, köküm üstə ucaldım,
Borçalımın rişəsinnən güc aldım.
Dərviş oldum, ömür sürdüm, qocaldım,
Çünki haqdan ixtiyarı görmüşəm.

## Haqq nurusan

Şeir yolu-sevda yolu,
Sehrlənmiş sağı-solu.
Yaranandan oldun qulu,
Bu yollarda yoruldunmu?!

Naşı səyyad bir ox atdı,
Sandı ki, mətləbə çatdı.
Söz sana Haqdan baratdı,
Qəlbi dardan qırıldınmı?!

Artıq yetər bu göz yaşı,
Bulud gəlməz günə qarşı.
Başındadı "şahlıq quşu",
Öz baxtına sarıldınmı?!

Sən ki sözün köləsisən,
Sən bu yolda "öləsisən".
Neynək, sən də beləsisən,
Hər öldükcə dirildinmi?!

Qiymət, vallah, Haqq nurusan,
Duyanların qürurusan.
Durulardan çox durusan,
De, bir az duruldunmu?!

## Dünya, qulağını bəri tut görüm

Dünya, qulağını bəri tut görüm,
Bir az pıçıldayım dağdan, arandan.
A sirr dağarcığı, sənə sirr verim,
Heç halı döyülsən bu yağan qardan.

Heç halı döyülsən bu yağan qardan,
Günün günortası mürgü döyürsən.
Günün günortası ayaq üstəcə,
Fırrana- fırrana inildəyirsən.

Günün günortası layla vaxtı döy,
Günün günortası beşiyə sığmaz.
Sən elə girifsən fil qulağına,
Özün məst olufsan yuxularına.
Bu cığır böyüyüb ağ yola çıxmaz.

Sən mənim başımı yastığa qoyma,
Bu fil qulağında, röya içində.
Bu ayı yuxusu lazım döy mana.
Ağlımı, huşumu yastığa qoyma.
Bu boyda- buxunda, lap bu biçimdə,
Əgər yalan desəm çağır, söy mana,
Əvəzində apar yuxularımı.

Axı, bu yatmaqda sən nə tapıbsan,
Çıxdı axırına içindəki qurd,
Sən hayıf elədin özünü, Vallah,
Sən mayıf elədin özünü, Vallah.

Nə yolun bəllidi, nə izin bəlli,
Nə əzəlin bəlli, nə də axırın.
Sən elə yuxuda irəli getdin,
Sən elə yuxuda aldın təsəlli.
Beləcə "açıldı" baxtın, yığvalın,
Beləcə-beləcə çıxdı naxırın.

Sən yelkənsiz gəmi, sən yüyənsiz at,
Sənin qazancından mən pay ummaram.
Sənin qazandığın ağıya dönsün,
Dönüb oyuncağa bu boyda həyat,
Ayaq üzəngidən sallana qalıb.

Özümün dərdimi çəkə bilmirəm,
Dərdini yükləmə belimə mənim.
Çoxdan dolaşdırdın öz kələfini,
İndi də çıxıbsan yoluma mənim.

Dartıb aparırsan bə hara dünya?!
Sən çoxdan olufsan başı qaxışdı,
Sən çoxdan şabaşsan ellər içində,
Sən çoxdan olubsan şadara dünya.

## Bu dünyada ən çox istədiyim adama

Haqdan gələn ulu nemət,
Ya Qüdrətdən payımsanmı?
Bu bir tale, bu da bir qismət,
Yoxsa haqqı-sayımsanmı?

Canımda ruh, ağzımda dil,
Duyan ürək, sevən könül.
Gülşənimdə şeyda bülbül,
Sazımda laylayımsanmı?

Can atəşim, ya göz yaşım,
Bəlkə ağlım, bəlkə huşum?
Bəlkə bacım, ya qardaşım,
Əmimsənmi, dayımsanmı?

Səmalardan endin gəldin,
Ulduz kimi yandın gəldin.
Murazıma döndün gəldin,
Yoxsa göydə göyümsənmi?

Halal haqqım öz qiymətim,
Doğru çəkim, düz qiymətim.
Üz urvatım, söz qiymətim,
Əlifimsən, beyimsənmi?

Güllərimi açdıranım,
Ətirimi saçdıranım.
Damarımda qaynar qanım,
Yazımsanmı, yayımsanmı?

Mən səndəyəm-sən məndəsən,
Nə gündəyəm, o gündəsən,
Sən mən adda bir bəndəsən?
Yoxsa ekiz tayımsanmı?

## Müxəmməs

Gəl səninlə seyrə çıxaq,
Gül açan bağları gülüm.
Gül dərək-çələng hörək,
Tac qoyaq ağları gülüm.
Məətəl qalsın-həsəd qılsın,
Ağacların barı gülüm.
Əllə sayaq-qoşa qoyaq,
Qoynundakı narı gülüm.
Qoy silinsin-aləm bilsim,
Könlümün qubarı gülüm.

Ver bir izin-eşqimizin,
Həsəd çəkək özünə biz.
Olaq mətin-həqiqətin
Doğru baxaq üzünə biz.
Məclis quraq-dodaq vuraq,
Bulaqların gözünə biz.
İlham alaq-saz da çalaq,
Telləriyin nazına biz.
Tez ol gedək-rüsvay edək,
Eşqə sitəmkarı, gülüm.

Mən qanıram-inanıram,
Aləm bundan şad olajax.
Əllərini-tellərini,
Oxşamaq azad olajax.
Hələ öndə-toy düyündə,
Min cür ləzzət-dad olajax.
Ləbləriyin dərmanınnan,
Osmana imdad olajax.
Öz yarınla-ilqarınla,
Görüm qoşa qarı, gülüm.
Görüm qoşa qarı, gülüm.

**Sizə**

*(aşıq Nargilənin dilindən)*

Əgər məndən soruşsanız,
Haqdan gəlir izim sizə.
Qələm alım kəlmə-kəlmə,
Tariximi yazım sizə.

Əslim-soyum bu ellidi,
Qüruruma təsəllidi,
Ta əzəldən ki, bəllidi,
Çoxum sizə, azım sizə.

Söz mülkünün bəhrə-barı,
Ustadların yadigarı,
Dastanları, nağılları,
Düzüm-düzüm düzüm sizə.

Bu qəlbimin haqq səsiyəm,
Bir laylanın bəstəsiyəm,
Burla Xatun nəvəsiyəm,
Nişan verim özüm sizə.

Nargiləyəm meydanlarda
Haqqim məni qoymaz darda.
Turan adlı bir km diyarda,
Boy boylayar sazim sizə.

## Rəsuloğlu

Mən tarixi zaman-zaman özləmişəm,
Enişləri-yoxuşları izləmişəm.
Sözlərimin urvatını gözləmişəm,
Görmüşəm ki, bir hikmətdi Rəsuloğlu.
Bu günümdən sabahıma nur kimidi,

Bayraq olan, meydan alan sur kimidi,
Baş əyilən, diz çökülən pir kimidi,
Danılmayan həqiqətdi Rəsuloğlu.
Həqiqətin açarıdı ta əzəldən,

Yalanları qılınc kimi böləndi tən,
Yağıların gözlərinə bir duman-çən,
Ülviliyə ülviyyətdi Rəsuloğlu.
Ağır-batman havacatdı - ozandı o,

Dastanları xeyirliyə yozandı o,
Öz nurunu zərrə-zərrə qazandı o,
Dinən sazda şeriyyətdi Rəsuloğlu.
Axtarmışam sirri-sehri mən dərinə,

Güvənmişəm həm dürrünə, həm zərinə,
Söykənmişəm dağdan ağır ləngərinə,
Haqq göndərən bir qüdrətdi Rəsuloğlu.
Adı-sanı tarixlərdə qalasıdı,

Ulu Yurdun bir alınmaz qalasıdı, ,
Borçalıdı - Qarayazı balasıdı,
Öz Yurduna şan-şöhrətdi Rəsuloğlu.
Mən əzəldən haqqı duyan bir Dərvişəm,

Ləyaqətə qadir olan çox görmüşəm.
Bu idrakı Allah ona göndərdi cəm,
Dədəlikdə ləyaqətdi Rəsuloğlu,
Danılmayan həqiqətdi Rəsuloğlu!

## İlk kitabım

Sənnən incimişəm, ay ilk kitabım,
Sənnən gileyliyəm başdan-binadan.
Sənnən incimişəm inan Allaha,
Necə ki, küsmüşəm əzəl dünyadan.

Saçıma qar yağdı sənin yolunda,
Alnımın qırışı pillə-pillədi.
Onsuz da zamanın ittihamları,
Üzümdə od saçan qəfil şillədi.
Gözümü yoluna dikdiyim illər,
İntizar notunu çaldı, nə çaldı.
Dəyirman daşıtək ağır fəsillər,
Üyütdü ruhumu yurd yeri qaldı.
Sığınıb açılan qanadlarına,
Dedim ucalaram ulduza, aya,
Murazım gözümdə qaldı, a qardaş,
Şikəst balam kimi gəldi dünyaya.
Gəldin, qolu qırıq, baldırı əyri,
Gəldin, gözlərində bir qara pərdə,
Kaş gəlməyəydin...
Gəldin dərd donunda, dərd əhli dərdə,
İndi şərməndəyəm bu qırx yaşında,
İrəlim sərt qaya, arxam sıldırım,
Özüm boğuluram bu göz yaşımda,

Təzədən səsimi hara qaldırım?..
Təzədən mən səni hara qaldırım?
Təzədən mən səni hara öldürüm?
Hanı qaladığım ocaq istisi?
Hanı bu ocağın alovu, odu?
Hanı Borçalı tək adın istisi?
Hanı qucağının öz tamı, dadı.
Səndən incimişəm ay ilk övladım,
Mən səni bu təhər doğmadım axı.
Bir soran olmadı atam balası?
Günahsız körpənin nəydi günahı?
Ocağı keçirmək günahdı axı.
Bə belə demədin a yağlı dillər,
Bə sən bilmədinmi çıxanda paxır,
Ortada qalajax qalayçı əllər.
Onsuz da dünyanın axırı çıxıb,
Bu yazıq ömrümə neyləyim, Allah!
Vallah, qızılın da paxırı çıxıb,
Hər şeyin sonunda "Allaha pənah",
Mən sənə zil kökdə sazım demişdim,
Çiçəyi çıttayan arzum demişdim.
Demişdim, demişdim balam olarsan,
Dayağım olarsan, qalam olarsan.
Bir sana gələrdi axır gümanım,
Bağbansız bağ kimi nə tez talandın.
Sən elə yandın ki, yandı imanım,
Sən od qalamadın, oda qaladın.

Səni şir gözündə istədim,
Bu ülvi dünyada beləydi arzu.
Eşqinə yüz çələng hörmək istədim,
Sən gəldin dünyaya bir yetim quzum,
Mən indi ayıldım sanki yuxudan,
Mən indi ayıldım- çoxdan qorxudan.
Haqqı Haq görənin əli titrəməz,
Haqqı Haq görənin atı büdrəməz.
Bə niyə uladı itin a qardaş,
Bə niyə büdrədi atın a qardaş.
Bə niyə dördnala çapa bilmədin,
Bə niyə yolunu tapa bilmədin?
Bəlkə yolun sənin bax elə budu.
Mən bir bar ağacı, sən meyvə qurdu...
İndi həqiqətin işığı yanıb,
Aynadan görünür hər qurulan top.
Sənin əllərinlə bir ocaq sönüb,
Salam ay eloğlu, salam eloğlu!

## Sazım

Bir din yenə qurban olum,
Səsin mənə yar, ay sazım.
Tellərinin hər birində,
El hikməti var, ay sazım.

Kərəm mənəm, Əsli sənsən,
Bülbüldən xoş səslim sənsən.
Köküm sənsən, əslim sənsən,
Sənsiz dünyam xar, ay sazım.

Sənətimin əzəl yaşı,
Səni diyan olmaz naşı.
Misri qılıncın qardaşı,
Nərə sazım, haray sazım.

Bir igidsən, ər oğlusan,
Dədələrin nər oğlusan,
Misri, Cəngi, Koroğlusan,
Ayvazı qurtar, ay sazım.

Osman səni öyməz hədər,
Şöhrərinə yaddı kədər
Yaşadacaq tarix qədər,
Əsl sənətkarı, ay sazım.

## Bu həsrət

Bu həsrətim heç həsrətə bənzəməz,
Bu ayrılıq məndən deyil, əzizim.
Özü dərdə dözməyənlər "döz" deməz,
Əsən yelə hanı məndə o dözüm.

Arzularım karvan- karvan düzülüb,
Tale verib qanad mənə, qol mənə.
Diləklərim zirvə-zirvə yazılıb,
Hara getsəm uğurumdu yol mənə.

Bu ayrılıq məndən deyil, ay gülüm,
Məndən olsa uça-uça gələrəm.
Bu ayrılıq məndən olsa nə bilim,
Sizdən ötrü ahu kimi mələrəm.

Bu alın yazısı bəlkə də doğru,
Ümidə, diləyə yazılan istə.
Ürəyin arzusu bəlkə də doğru,
Sən öz Allahından yazılan istə.

Xəstəxana- son mənzilin vağzalı,
Gəlsə, qatar öz yükünü aparar.
Yaman "məzəlidi" bu ömür yolu,
Bəzən tufan dəyməz, bir meh qoparar.

Bu dərd məni tuta bilməz bilirəm,
Uzun çəkməz "sovuşaram", əzizim.
Elə bu gün qanad açıb gələrəm,
Bu gün sizə qovuşaram, əzizim.

## Sən də qalma...

(*Vurğun Əyyubun vəfatından sarsıldığımda...*
*üzümü Əli Şamilə tutdum*)

Həqiqətin dili laldı,
Bu nə baxtdı, nə yığvaldı?
Bu dünya bir qeylü-qaldı, –
Sən də qalma, var get, Əli!

Ömrün boran-qar olacaq,
Dərdin elə car olacaq.
Dünya sənə dar olacaq, –
Sən də qalma, var get, Əli!

Umub-küsmə bu millətə,
Qiymət yoxdu həqiqətə.
Qurdla qalma qiyamətə, –
Sən də qalma, var get, Əli!

Yol uzundu, mənzil uzaq,
Hər addımda çəpər-tuzaq.
Dünya özü bir yalquzaq, –
Sən də qalma, var get, Əli!

Neçə qəlbi qırğın getdi,
Neçə ömrü yorğun getdi.
Neçə-neçə Vurğun getdi, –
Sən də qalma, var get, Əli!

Yol al yolun ağırına,
İz sal Haqqın cığırına.
Elçibəylər uğuruna –
Sən də qalma, var get, Əli!
Bu dünyada kimlər qaldı? –
Sən də qalma, var get, Əli!

## Ona

Bir gözələ məhəbbətim dəryadır,
Yaman baxır bəzən yaman göz ona.
Nə qədər mən varam, qoyarammı heç,
Deyilsin könülsüz bircə söz ona.

Zərif desən, zəriflərdən zərifdi,
Xaliq ona hüsnü-camal veribdi.
Tellərini sətir-sətir hörübdü,
Şirmayıdan çəkilibdir üz ona.

Mən vurğunam bir nəğməkar sənəmə,
Özgə deyil, dost-doğmadır anama.
Qədəm basıb hər çıxanda sinəmə,
Səcdə qılıb mən çökərəm diz ona.

Barmağımla sinəsini əllərəm,
Tellərinin dənəsini əllərəm.
Fəryad edər, "haradasan xan Kərəm?"
Kim söyləməz etibarda düz ona.

Tək mənim yox, o xalqının yarıdı,
Ellər onun məclisilə yarıdı.
Dədəmiz Qorqudun yadigarıdı,
Deyirlər sədəfli, telli saz ona.

## Lalələr

Göydən yenə qövsi-qüzeh sallanıb,
Yanağınız, dodağınız allanıb.
Naz-qəmzəniz şəkərlənib, ballanıb,
Tanrıdan gözəllik əmən lalələr,
Ay çiçək lalələr, çəmən lalələr.

Ulduz ol göylərdən en sinəsinə,
Bu Dədə Yurdumun gen sinəsinə.
Gəlməsin qoy boran, çən sinəsinə,
Ay qızıl lalələr, qızıl lalələr,
Yoluma, izimə düzüm lalələr.

Qoynunuza binə-binə gələrəm,
Alışaram yana-yana gələrəm.
Harda olsam dönüb yenə gələrəm,
Eyləyərəm bir tamaşa lalələr,
Gül ömrünü vurun başa lalələr.

Siz arzum, niyyətim, xəyalımsınız,
Siz qızdan-gəlinnən həyalımsınız.
Ayağı yurduma sayalımsınız.
Ay naz baxışları xumar lalələr,
El sizdən sədaqət umar lalələr.

Mənə alışmadı yaxınım, yadım,
Mən bütöv alışdım, yarı yanmadım,
Ömrümnən-günümnən yarıyammadım,
Siz olun atəşim-qorum lalələr,
Sevgilim lalələr, yarım lalələr.

Bir şirin muraza yetirin məni,
Ölsəm çiyninizdə götürün məni.
Siz öz içinizdə itirin məni,
Başım dizinizdə yatam lalələr,
Oyannam, siz olun butam lalələr.

Dərviş Osman göylər kimi dolubdu,
Qəm dağında ağır binə salıbdı.
Qoynunuza bir niyaza gəlibdi,
Borçalı sazını çalın lalələr,
Siz burda əbədi qalın lalələr.

**Azaflı**

Haqqın bizə göndərdiyi
Bir suruydu,
Qeyrətiydi, heyrətiydi,
Qüruruydu.
Baş əymədi yağılara,
Fitnə-felə bir ömür,
Anasınnan olan günnən
Məğruruydu Azaflı.

Dədəm Qorqud libasında
Ozan oldu bir ömür.
Bu millətin dərdlərini
Yazan oldu bir ömür,
Cürə sazı haqqa doğru
Gedən yoldu bir ömür,
Hər coşanda dəryalardan
Çox nuruydu Azaflı.

O taya da, bu taya da,
Zaman-zaman can dedi.
Şəhriyarın laylasına
Canını qurban dedi.
Özü yandı, Kərəm kimi,
Ay millət, oyan dedi.
Azərbaycan, Azərbaycan,
Azərbaycan dedi,
Getdi haqqın dərgahına
Bir suruydu Azaflı.

## Yadıma anamın laylası düşüb

Çox daddım dünyanın hər nemətindən,
O mehrin tamını görməmişəm mən.
Desələr de nədi səni göynədən?
Yadıma anamın laylası düşüb.

Şirinindən şirinim, şərbətim olan,
Mehri məhəbbətim, ülfətim olan.
Haqqın həddiyəsi-sərvətim olan,
Yadıma anamın laylası düşüb.

Necə müqqədəsdir, necə də ulu,
Bir ömür yaşadım, mən oldum qulu.
O qapıdan keçən cənnətin yolu,
Yadıma anamın laylası düşüb.

O layla başıma söz tacı qoydu,
Səsimi ellərdən ellərə yaydı.
Dinləyin siz məni amandı, hoydu,
Yadıma anamın laylası düşüb.

Dərviş Osman, hər laylaya uymadım,
Özgə bir səs, özgə nəfəs duymadım.
Öz anamın laylasından doymadım,
Yadıma anamın laylası düşüb.

*Fevral 2020- ci il*

# *DƏRVİŞ OSMAN ƏHMƏDOĞLU ŞAİRLƏRİN SÖZÜNDƏ…*

**“Seyid Nigari Türbəsi” kitabından**
*(Cındır Osmana həsr olunmuş Vfəsildən bir parça)*

Osman qağa, görüşdüm mən
şair nəvən
Osman ilə.
Bir qibləyə namaz qılır,
gördüm bu can
o can ilə.
Qızılı yox, gördüm qızıl
sözləri var.
Səndən, məndən
xəbəri var.
Sinəsində açılmamış
dəftəri var.
"Keçdi İncə dərəsindən,
neçə ovçu bərəsindən.
Gah atlıydı, gah piyada,
o qayada bu qayada
çimir aldı mənim babam
kəklik kimi.

Yandı çirtdaya-çırtdaya
çöllərdə
üzərlik kimi.
Keçdi bəzən ayaqyalın...
Təki ona deməsinlər
Cındır, nədir apardığın?"

Şair nəvən ələklədi,
vələklədi
o illəri.
Zaman yazan, şahlar pozan
fəsilləri.
Amma şair, tarixin
mədəsi dardı,
bu gün - gələn sabahlara
yadigardı.
Mən görmüşəm,
dövran keçir,
bir an gəlir,
o yoldan ki, Osman keçib,
sonra yenə
Osman gəlir...

***Nəriman Həsənzadə***

## Dərvişim

*(Dərviş Osmanın adına bağladım)*

Naxışı əlvan boyalı,
Nütfədən halal mayalı.
Hər qədəmi xoş sayalı,
Ayağı yüngül Dərvişim!

Bağbandır barın içində
Eşq adlı varın içində.
Bir çəmənzarın içində,
Ətir saçan gül Dərvişim!

Haqdır o iş-məhəl qoysa,
Tez ucalar-təməl qoysa!
Nəyin üstünə əl qoysa,
Qalmaz bir müşkül, Dərvişim!

Heç vaxt çəkməz düzü tərsə,
Sözü bütövdür-söz versə,
Harda bir haqsızlıq görsə,
Yanıb olar kül Dərvişim!

Yolu, Hacı Əfəndi yolu,
Bir dinin, məsləkin qulu.
İnamı, inancı ulu,
Fədai könül Dərvişim!

Əhdə sidq ilə düz olan,
And yeri çörək-duz olan,
Bərəkəti sonsuz olan,
Dən dolu sünbül Dərvişim!

***Hacan Hacısoy***

## Dərviş Osman

Qoy həmişə ucalardan
Səsin gəlsin, Dərviş Osman.
Səndəki bu sədaqəti
Aləm görsün, Dərviş Osman.

Qoca dünya yaman yorğun,
Xəyallarım yaman dalğın,
Xain, xəbis oğrun-oğrun
Yola baxsın, Dərviş Osman.

Şadlıq olsun elimizdə,
El bir olsun qəmimizdə,
Tərtəmizdir genimiz də,
Hamı bilsin, Dərviş Osman.

Könlüm keçir Kosalıdan,
Doğma diyar Borçalıdan.
Elat köçü el-obadan,
Dağa çıxsın, Dərviş Osman.

Sıra-sıra binələri,
İlxıları, sürüləri,
Armudludan elat seli
Dağdan ensin, Dərviş Osman.

Zəlimxandı sənə qardaş,
Ulu yolda sənlə sirdaş,
Zəfərlərdən gözündə yaş,
Üzün gülsün, Dərviş Osman.

***Zəlimxan Məmmədli***
*Bakı, 20 mart 2018*

## Osman olub

A Borcalım, din-imanım
Doğrumu?
Deyirlər qoynunda göy duman olub.
Köç edib dünyadan Dərviş Osmanın,
Nə loğman tapılıb, nə dərman olub.
Kosalı Aslanın,
Kamandar xanın,
Hanı, bəy Saraşdın, Əmrah Sultanın,
Məhəmməd, Əhmədin Nürəddin canın.
Ayrılığın üzü nə yaman olub.
Hicran kəsmir, aylar-illər arası,
Sağalmayıb, Zəlimxanın yarası,
Dağlar Butasının Məmməd balası,
Möhür bənd olmamış, of fərman olub
İndidə köc edən bəy Osman olub.

***Səadət Buta***

## Dərvişim

*("Anamın laylası düşüb yadıma" - deyib də, köç edən, Dərviş Osman Əhmədoğlunun əziz xatirəsinə...)*

Ana laylasına, Tanrı eşqinə,
Yol alıb, havalı uçan Dərvişim!
Şəhadət şərbətin içib eşq ilə,
Üfüqdən o yana, köçən Dərvişim!

Ayrılıq araya nə saldı? - bildin!
Yazın bu xoş günü, nəhs oldu, bildin!
Sənsizlik çox ağır dərs oldu, bildin!
Bilmədin nə çəkdi, "çəkən", Dərvişim?!

Gələndə karvanla, köç ilə gəldin,
Gəldin, Haqq - batildən seçilə, gəldin!
Gedirsən, yol eylə köçkünə gəlsin,
Oldumu bu taydan keçən, Dərvişim?!

O yanda sən varsan, bu yanda yoxluq,
Sən Kəfən geymisən, yanında yoxuq!
Belə "var" olmaqdan, yaxşıdı yoxluq,
Qəlblərdən, ruhlara köçən Dərvişim!

Vətəndən, vətənə yolum bağlıdır,
Allaha əl açam.., qolum bağlıdır...
Ölümə nə var ki, "olum" - ağrıdır,
Qəribəm, tənhayam, təkəm, Dərvişim!

***Etibar Qərib***

**Dədə yolu**

*(Biz itirmədik, əksinə, qazandıq! Dünən Qazax torpağı böyükşairimiz Osman Sarıvəllini qazanmışdı, bu gün Ulu BorçalıDərviş Osmanı qazandı!!! Osman abi ruhun şad olsun!)*

Dərviş Osman bu yol dədə yoludu,
Sən yollardan, yollar səndən doymadı.
Sənin kimi qos-qocaman bir dərviş,
Yolumuzu ot basmağa qoymadı!

Daş-kəsəkli yollar səni yormadı,
Əyriqarı aşıb keçdin boranda.
Göybulağın suyu sənə güc verdi,
Yoxuş sənnən əhvalını soranda.

Oba-oba, oymaq-oymaq gəzərək,
Yaxşılıq toxumu əkən dərvişim.
Eldən-elə xoş müjdələr yetirib,
Yurd dərdini özü çəkən dərvişim.

Dərviş gözü yuxu görməz gecələr,
Bənd-bərəni özün yoxla amandı.
Borçalı tək əmanətim səndədi,
Əmanəti möhkəm saxla amandı.

Haqq yolunda can sarayın əritdin,
Haqq kəlamın sən yetirdin ellərə.
Vəli deyir sən bir canlı tarixsən,
Adın düşüb dastanlara, dillərə!

***Vəli Qaraçaylı***

## Demirsənmi, cijim harada qaldı?

*(- Uzun müddət görməyib, həsrətini çəkdiyim, ilk gündən mənə ciji deyə müraciət edən şair oğlum Dərviş Osmana)*

Mənə ciji dedin noğula döndün,
Mənə ciji dedin oğula döndün,
Sonra əfsanəyə, nağıla döndün.
Mənə məhəbbətin niyə azaldı,
Demirsənmi, cijim harada qaldı?

Bizim Borçalıda tayın yox, birsən,
Vergili bəndəsən, açılmaz sirsən.
Şeir meydanında yarışa girsən,
Çoxunun ilhamı tutular... laldı,
Demirsənmi, cijim harada qaldı?

Dəliqanlı könlüm bir az havalı,
İçimdə nələr var deyilsən halı.
Nəzərə alsana cavanı, çalı.
Övlad ana üçün şirindi, baldı.
Demirsənmi, cijim harada qaldı?

Ana övladını unutmaz heç vaxt,
Mənə baş çəkməyə sən özün tap vaxt,
Sən də öz vaxtından keç, zaman, keç, vaxt!
Şairə möcüzə-qəribə haldı,
Demirsənmi, cijim harada qaldı?

Səni səsləyirəm səsimə səs ver,
Tərpət ilhamımı mənə həvəs ver,
Verrəm, desən mənə ömründən kəs ver.
Ömrümdən payım da sənə halaldı,
Demirsənmi, cijim harda qaldı?

Belə soyuq olma mənə qarşı sən,
İstəmərəm dara düşüb sarsı sən,
Bir ürəyin yarsı mənəm, yarsı sən.
Bir də gördün zaman fitini çaldı,
Demirsənmi, cijim harada qaldı?

Kimdə görürsən gör təqsiri, suçu,
Sənə bəsləmişəm qaragöz qoçu,
Ürəyimin başı, burnumun ucu,
Göynəyən ömrümdən kəsdin, qısaldı,
Demirsənmi, cijim harada qaldı?

Mənim şair oğlum, mənim şir balam,
Qoç Koroğlum, Nəbim, Cavanşir balam.
Göydə bir Allahım, yerdə bir balam.
Şair tək tanındı, dağ tək ucaldı,
Demirsənmi, cijim harada qaldı?

Mayqa Mətin yerə- göyə sığışmır,
Yavrum, bilirsənmi niyə sığışmır?
Gözüm yoldan, yol gözümdən sığışmır.
Yolları güdməkdən gözüm saraldı,
Demirsənmi, cijim harada qaldı?

***Mayqa Mətin***

## Dünyanın halal adamı

Nə gözəl ömür yaşadın,
Dünyanın halal adamı?!
Ürəyinə sevgi saldın, -
Dilləndirib lal adamı.

Heyrət dondu baxışlarda,
Əriyərmiş qışda qar da.
Yaz nəfəsi gələn yurda
Vardı... əsli-hal adamı.

Fırlandıqca kürə - təkər,
Cazibəsi – maqnit, - çəkər.
Danışığı şirin, şəkər,
Gülüşləri bal adamı.

Kimi yeyər bal-kişmişi,
Kimin qana batar dişi.
Var dünyanın yetişmişi,
Var dünyanın kal adamı.

Əl-ayağa düşmə, onsuz,
Heç bir ömür deyil sonsuz.
Fələk bir gün qoyar donsuz,
Yıxar qeylü-qal adamı.

Halal haram yeyə bilməz,
O belədir niyə? – bilməz.
Fırtına da əyə bilməz
Qaya döşlü, sal adamı.

Bu dünyanın gəlhagəli,
Xeyrə calar verən əli.
Tanıtdırsın öz əməli,
Tanıtmasın xal adamı.

Saf olanda arzu, dilək,
Xoş niyyətlə vurar ürək.
Pirə dönsün insan gərək,
Aldatmasın yal adamı.

***Qiymət Məhərrəmli***
*07.02.2008*

## Ay Dərviş Osman

Baş alıb gedirsən Türk ellərinə,
Bir azca dayansan, ay Dərviş Osman.
Borçalı- Türkiyə arasında sən,
Bir körpü qoyansan, ay Dərviş Osman.

Soraq gətir Karsdan, Yunis Əmrədən,
Qoy gur-gur gurlasın səsin efirdən.
Əsa alıb çarıq geyib dəmirdən,
Al- qana boyansan, ay Dərviş Osman.

Gəz, dolan Turanı, şəhərbəşəhər,
Aç, çılpaq qalsan da yaşa bir təhər.
Boynuna bir yun şal dola hər səhər,
Sən sufi, əyansan, ay Dərviş Osman.

Dərvişsən, müridsən, sufisən, nəsən,
Hansından olursan ol, sənə əhsən.
Onlardan birini gəl  mənə de, sən,
Sən ki hal duyansan, ay Dərviş Osman.

Küt gedən kündəni yenidən yapma,
Türkçülük dərdindən rahatlıq tapma,
Getdiyin düz yoldan əbədi sapma,
Yansan ürəklə yan, ay Dərviş Osman.

İbrət dərsi götür Dünyamalıdan,
Dağılıb dostları qalıbdı pünhan,
Sən də mənim təki qocalan zaman,
Tək-tənha qalansan, ay Dərviş Osman.

***Dünyamalı Kərəm***

## Şairlərin Osmanını itirdik

*(Dərviş Osman Əhmədoğluya vida sözü)*

Bir az da seyrəldi sıramız bu gün,
Şairlərin Osmanını itirdik.
Harda olsa, ocağıydı bir düjün,
Sanki elin imanını itirdik.

Hayqırardı Borçalıdan Altaya,
Anam deyib boylanardı hey Aya.
O, keçdikcə Araz çayı o taya,
Heç deməzdik, biz gümanı itirdik.

Söhbət bizi al-yaşıllı tutanda,
İrəvana, Zəngəzura çatanda,
Söz gözünə Qarabağı qatanda,
Söyləyərdi, biz simanı itirdik.

Bir türküydü, türklüyün simgəsiydi,
Oğuzların, qıpçaqların səsiydi.
Dağ başına bəzək verən sisiydi,
Ulu dağın dumanını itirdik.

Osman bəlkə türklüyün mərkəziydi,
Osman bəlkə türklüyün lap özüydü,
Osman türkün deyiləsi sözüydü,
Türk adında bir ümmanı itirdik.

Daş atdılar əyilmədi, sınmadı,
Dan, dedilər, heç özünü danmadı.
Haqdan başqa bircə sözü qanmadı,
İndi görün biz nə anı itirdik.

Osman Borçalının dadı-duzuydu,
Yetmişiki yaşlı körpə quzuydu.
Osman bircə sifət, bircə üzüydü,
Məyus oldum, nə imkanı itirdik.

Osman bir kəliydi dizləri qanlı,
Osman igidiydi Mete nişanlı.
Osman heykəliydi canlıdan canlı,
Gör nə boyda bir insanı itirdik.

Təklənirəm deyən yavaş-yavaş mən,
Getdi Abbas, getdi Osman, Zəlimxan.
Nə vaxtsa dostlara qovuşar bu can,
El söyləyər, biz cahanı itirdik.

Niyə əl çəkməyir bu azar bizdən,
Çoxmu köç edəcək hər yazar bizdən?
Tarix çox eşələr, çox qazar bizdən,
Tapdığını verər, tanı, itirdik.

Son vidaya gedənmədi Elbəyi,
Taclı virus kəsib əli, ətəyi.
Novruz günü bir dərvişin ölməyi,
Dedi bizə, imtahanı bitirdik.

***Elbəyi Cəlaloğlu***

# Eylə

*"Həm Doğuyam, həm Batıyam,*
*Haqqın halal bir zatıyam.*
*İnsanlığın urvatıyam,*
*Həqiqəti bilən Türkəm"*-deyən
**Dərviş Osman Əhmədoğluna**

"Dünya durcaq yer deyil", Osman "səfər eylə",
Məni də bu haqq yolda özünlə sirdaş, nəfər eylə.

Doğudan Batıya süvar olduğun bu köhlən, bədöv atı,
"Üzünün suyu" qalmamışlara ifçinlə yəhər eylə.

"Birinin əppəyi yüzünün" olan kənddə, elatda,
"Çörəyi dizində olanlar" la deyəməm nahar eylə.

Varsa hər elin sən kimi ocaq çatan, od qoruyanı,
Sazlar qayıdar öz kökünə, nə qəm, nə qəhər eylə.

Aşıq Sakit, Dərviş Osman tək insanlığa urvat yarananlar,
Əskilməsin dünyamızdan, Allaha şükür et, səhər eylə.

***Aşıq Sakit Köçərli***
*28 dekabr, 2009-Şəki*

## Borçalının şair oğlu Osmana

Ömür yolu gah ağ olub, gah qara,
Məğrur durub, çəkilsə də min dara.
Hayqıranda, səsi düşüb dağlara.
Oğlum deyib, balam deyib hər ana,
Borçalının şair oğlu Osmana.

Eşitmişəm, Savalandan güc alıb,
Sonra özü Savalan tək ucalıb.
El dərdini çəkə - çəkə qocalıb.
Verəcəkdi dəyərini zamana,
Borçalının şair oğlu Osmana.

Yaşadı, yaratdı öz dünyasında,
Əhdinin, andının düz dünyasında.
Dəryaya çevrildi söz dünyasında.
Gül atdılar, getdiyi son limana.
Borçalının şair oğlu Osmana.

***Südabə İrəvanlı***

## Şair dostum Dərviş Osmana

Öz odun var, özgə oda isinmə,
Öz adın var, öz nəfəsin səsinlə.
Sıldırımlar qarşısında pəsinmə,
İldırımlar qarşısında təkdayan,
Dərviş Osman, Borçalıda bərk dayan!

Şair, aşıq adamlar var yanında,
Papaq altda yatanlar var yanında,
Dərs almağa Kamandar var yanında,
Əli özgə ətəklərdən çək, dayan,
Dərviş Osman, Borçalıda bərk dayan!

Öz yolundan, öz izindən sapmasan,
Haqqa çatmaq lap asandı, lap asan.
Qəza vurub işdi toxum tapmasan,
Qeyrətini bu torpağa ək dayan,
Dərviş Osman, Borçalıda bərk dayan!

Amalınla daşı dəlib çıxmısan,
Nə yerdədi işin bilib çıxmısan,
Ürəyimə yaxşı gəlib çıxmısan,
Köç  külfəti bir az burda tök, dayan,
Dərviş Osman, Borçalıda bərk dayan!

Hansı eşqə vermisən can, görünür,
Üz gözündə haqdan nişan görünür.
Yol Allaha Borçalıdan görünür,
Daim belə ucada ol, pak dayan,
Dərviş Osman,  Borçalıda bərk dayan!

***Barat Vüsal***

## Gəlir

*(Ustad şair, Gürcüstan Aşıqılar Birliyinin sədri
Osman Dərvişin 70 illiyinə)*

Mərifət insana ruhla verilir,
Xasiyyət söykökdən, nəsildən gəlir.
Hər kəsi öz sözü başa çıxarır,
Başa nə gəlirsə söz, dildən gəlir.

Borçalı yurdunun müdrik Osmanı,
Sənsən əsrimizin Dədə ozanı.
Könüllər mülkünün sən ey sultanı,
Nə düzüb-qoşdunsa könüldən gəlir.

Yetmişin dizini qatlamısan sən,
Çox mübarək işi qutlamısan sən.
Dörd fəslin dördün də adlamısan sən,
Sözlərin beşinci fəsildən gəlir.

İllərin möhürü durur qaşında,
Yenilməz əsgərsən eşq savaşında.
Zəhmətinin ətri var yetmiş yaşında,
Aldığın bu çiçək, bu güldən gəlir.

Bilirəm, fərqi yox yaxın, uzağın,
Hər yeri bürüyüb səsin, sorağın.
Mən də elçisiyəm qədim Qazağın,
Bu sözlər bir oba, bir eldən gəlir.

***Güləmail Murad***

## Ay Osman

*(Gözəl şair, yaxın dostum*
*Dərviş Osman xəstə yatarkən)*

Qalx bir qoşma de, uzaq düşmüşəm,
Şeirdən, sənətdən genəm, ay Osman.
Dəmirçi körüyü, ocağı kimi,
Gərilsin, qabarsın sinəm, ay Osman.

Dayanıb, susubdur oxumur bülbül,
Danış odlu- odlu ötgünən dil- dil,
Sən xırman yerində bir dolu sünbül,
Məndə ki, köyşəndə dənəm, ay Osman.

Məni alışdıran sənin odunmu?
Bu dərviş ünvanın, Osman adınmı?
Candarlı Sərxanı tanımadınmı?
Candardan gəlmişəm mənəm, ay Osman.

***Sərxan Candarlı***
*15.03.2020*

## Bizim Osmandı

Gəzən soraxlardan aldım xəbəri,
Eşitdim bir cavan əhli- urfandı,
Borçalı elinin şuxlu ülkəri,
Dedilər bir nəfər sadə insandı,
Dedim bu deyilən bizim Osmandı.

Hər dəyqə düşünür, hər anı sayır,
Elin şöhrətini aləmə yayır.
Dedilər ki, əlli yaşlı bir şair,
Halal bəndələrin halına yandı.
Dedim bu deyilən bizim Osmandı.

Dünyaya car edən el salamını,
Doğru yola dəvət edən hamını,
Dilinnən qoymayan hax kəlamını,
Getdiyi hax yolu, adil divandı.

Bu çarxı gərdişin şahidiyəm mən,
Onun yollarında çox olubdu çən,
Keçmiş ululardan süzülüb gələn,
Ona düşən düz iıqardı, imandı.
Dedim bu deyilən bizim Osmandı.

Tarix lövhəsində yaxşı iz qoyan,
Haqqı ədalətdən əsirgəməz can,
Könüllər oxşuyan bu dahi insan,
Sözünün sahibi sədri sultandı,
Dedim bu deyilən bizim Osmandı.

Cəmil söhbət açar söz sədasında,
Yaraşığı kefin, qəmin yasında.
Ömür yollarında, el arasında,
Əsiı mənasında, halal vicdandı,
Gördüm doğrudan da bizim Osmandı.

***Aşıq Cəmil Qaçağanlı***

## Ay Dərviş

Neçə ki, canında can var,
Bu elləri gəz, ay Dərviş.
Yollar boyu qar - boran var,
Hər əzaba döz, ay Dərviş.

Yoxdur sənin mülkün, malın
Dolanırsan açıqalın.
Yollardasan ayaqyalın,
Qış, ay Dərviş, yaz, ay Dərviş.

Anlayanlar öyər səni,
Anlamazlar söyər səni.
Günöydə Gün döyər səni,
Quzeydə ayaz, ay Dərviş.

Duman dağa çəksə pərdə,
Ürək istər dözə dərdə.
Sarı bülbül susan yerdə,
Sar edər pərvaz, ay Dərviş.

Durma geri səngərindən,
Dağ titrəsin ləngərindən.
Gövhər tapammaz dərindən,
Hər ağlıdayaz, ay Dərviş.

Önün qaya, dalın qılınc,
Döyüşdəsən yalınqılınc.
Sinən qalxan, qolun qılınc,
Ağ birçəyin saz, ay Dərviş.

Daldın dünyanın dərkinə,
Tabla Tanrının ərkinə...
Yorulsan alsın tərkinə,
Ol Xıdır İlyas, ay Dərviş.

Könlün dərdə dərdkeşdimi,
Ürəyini dərd deşdimi,
Dərd birdimi, dərd beşdimi?
Qələm götür yaz, ay Dərviş!

***Rövşən Nəsiboğlu***
*25 oktyabr 1998 il*

## Osman Əhmədoğlu

Vətəni bilirdi böyük Turanı,
Əzbərdən deyirdi neçə dastanı,
Dədəsi sanırdı Oğuz xaqanı,
Osman Əhmədoğlu- soydaşım mənim.

Arana bağlıydı, dağı sevirdi,
Yaşıl çəmənləri bağı sevirdi,
Kürdən, həm Arazdan şeir deyirdi,
Osman Əhmədoğlu- yurddaşım mənim.

Tez getdi Allahın o rəhmətinə,
İladiyəm, düşdük yaman çətinə.
Şöhrət- şan gətirdi Türk millətinə,
Osman Əhmədoğlu- sirdaşım mənim.

***İladi Öməroğlu***

## Dəmlə balabanı balabançı dost

Dəmlə balabanı balabançı dost,
Düşmə tavar sazın yedəyinə sən.
Bələ törəmizi, törəməmizi
Bələ balabanın pətəyinə sən.

Dəmlə balabanı balabançı dost,
Huylanıb alınma sözümdən mənim.
Diringi aşığı malalamaqnan,
Salırsan sazı da gözümdən mənim.

...mən bilən bu dəmli balabanınkı
Üz tutub yaylaqdan aran yerinə,
elə gilə-gilə gümüldəməkdi.
Elə gilə-gilə gömül deməkdi
dərviş könüllərin viran yerinə.

Dəmlə balabanı balabançı dost,
Dəmli balabandı, dəmlikdi bu yurd.
Yurdumun dərdinin dəm tutanı ol,
Uğruna qurd çıxan əmlikdi bu yurd!

Dəmlə balabanı balabançı dost,
Ta yanıl yedəkdə huy tutdurmağı.
Bir hovur səsini al balabanın,
Halal havasını çal balabanın...
Öyrətmə millətə züy tutdurmağı.

Dəmlə balabanı balabançı dost...
Züy qara zurnanın zümzüməsidi,
Yastı balabanın şırnağı deyil.
Məni bağışlasın qara zurna da,
Məni bağışlasın, min züy bir dəmin
Kəsilib atılan dırnağı deyil.

Dəmlə balabanı balabançı dost...
Dəmli balabandı, dəmlikdi bu yurd.
Yurdumun dərdinin dəm tutanı ol,
Uğruna qurd çıxan əmlikdi bu yurd.

***Allahverdi Əhmədov***

## Osmanların dərvişini itirdik

Gecə keçdi, açılmadı səhəri,
Yaman boğdu bizi qəmi, qəhəri.
Kür üstünə bu il gələn baharın
Dodağında gülüşünü itirdik.

Nümunəydi, ölçü idi, mizandı,
Dürüst idi, doğru idi, düzəndi,
Könül-könül, ürək- ürək gəzəndi,
Yaradanın əl işini itirdik.

Qucaqladı qonağını fərəhlə,
Qarşıladı halal duzla, çörəklə.
Türkçülüyün Borçalıya ürəklə
Osman boyda gəlişini itirdik.

Elat- elat böyüyürdü səngəri,
Bir dünyaydı hayqırtısı, ləngəri.
Son gedişdə deyəmmədik:- dön geri!
Duruşunu, yerişini itirdik.

Şair idi, sözü gövhər, ləl idi,
Sazda qəmli dinən sarı tel idi,
Ulu ulus idi, ağır el idi,
Dərvişliyin gərdişini itirdik.

Amalından, məsləkindən közərdi,
Yollarını öz iziylə bəzərdi.
Böyük Turan ellərini gəzərdi,
Osmanların Dərvişini itirdik.

***Qəzənfər Məsimoğlu***

## Şair Dərviş Osmana

Mən sənə əzəldən baba demişəm,
El, mahal demişəm, oba demişəm,
Borçalı adında düha demişəm.
Sənə kömək olsun böyük yaradan,
Ay Osman Əfəndi, ay Dərviş Osman.

İman gördüm əsilində, soyunda,
İnam gördüm Haqq göndərən payında,
Sədaqət var çörəyində, suyunda,
Ay vətən sevdalı mötəbər insan,
Ay Osman Əfəndi, ay Dərviş Osman.

Bir kitabsan, dastandır hər varağın,
Bu dünyaya yayılıbdı sorağın,
Görüm daim uca olsun bayrağın,
Sənin halalındı qazandığın şan,
Ay Osman Əfəndi, ay Dərviş Osman.

Gur bulaqsan o dağlardan süzülən,
Hər kəlamı qatar-qatar düzülən,
Bir yazısan millətimə yazılan,
Bu vətən naminə daim alış, yan,
Ay Osman Əfəndi, ay Dərviş Osman.

Aqillər dərs aldı sınaqlarından,
Sındı Sınıq körpü qınaqlarından,
Satılıb bölünən torpaqlarından,
Bürüdü səcdəni dağlar tək duman,
Ay Osman Əfəndi, ay Dərviş Osman.

Saraldın kölgədə, yandın gündə sən,
Düşmədin kəməndə, fəndə, felə sən,
Baban Osman kimi mömin bəndəsən.
Əzəldən dolaşır ruhunda iman,
Ay Osman Əfəndi, ay Dərviş Osman.

Ağ saçların qayğıların gülüdür,
Danışdığın Dədəm Qorqud dilidir,
Karvan-karvan dərd sinənə yeridi.
Səni dağ-dağ etdi bu sönük zaman,
Ay Osman Əfəndi, ay Dərviş Osman.

Vətən dedin, var-dövlətə uymadın,
Vüqarını mənsəb üçün əymədin,
Yurd daşısan yurdu yada qıymadın.
Sənə meydan olsun yer, göy, asiman.
Ay Osman Əfəndi, ay Dərviş Osman.

Güllü qızın duaçıdır, nur ol sən,
Nə ki, varsan, olduğun tək gur ol sən,
Bax, beləcə qocal görüm pir ol sən.
Ruhunda yaşasın qoy ulu Turan,
Ay Osman Əfəndi, ay Dərviş Osman.

***Güllü Eldar Tomarlı***
*19 aprel 2016-cı il*

# DƏRVİŞ OSMAN ƏHMƏDOĞLU HAQQINDA DÜŞÜNCƏLƏR

* * *

Ata yurdumuz Borçalı'nın sazı, sözü və özü, değerli kanaat önderi, Turan sevdalısı değerli dostumuz, ağabeyimiz, dervişimiz, Osman Ahmedoğlu Derviş Osmanımızı Borçalı Ahalisi, Türk Dünyası, hiç şüphesiz ki unutmayacak, yokluğu her daim hiss edilecektir.

**Atilla Bayramoğlu,**
*Türk Arap Medya Derneği*

* * *

Otuz il dostluq etdim. Həmişə haqqı, həqiqəti, gerçəkləri kimsədən çəkinmədən dilə gətirib. Xalqı üçün rahatlığından vaz keçib ömür boyu. Dərviş Osman əsl türk oğlu idi.

**Azər Süleymanov,**
*sabiq millətvəkili*

* * *

Dərviş Osman Əhmədoğlu Gürcüstan Aşıqlar Birliyinin sədri idi, şair idi, əsl insan idi, sədaqətli dost idi. Hər kəslə öz dilində danışmağı bacarırdı. El-oba üçün

canından keçərdi, "of" deməzdi. Uzun yol yolçuluqlarımız olub. Onu onda daha yaxından tanımışam. Ağlayanda da ürəkdən ağlayardı, güləndə də. Qar-qaynayardı, od ürəkli insan od parçasıydı. Sanki, dünyaya sığışmırdı. Elə özü bir dünyaydı. Onnan ayrılmaq çətin oldu mənə. Şeirlərinin birində şair qardaşım yazır ki:

Bu ellər Çıldırla bir bədən, bir bir can,
Bir saz havasıdı damarında qan.
İltimas eyləyir bu Dərviş Osman,
Bir gün Borçalıya gəl Cuma günü.

Onun məzarı bir ziyarətgah olacaq. Ruhu şad olsun.

**Bəhram İsayev,**
*Rustavi, müəllim*

* * *

"Osman Əhmədoğlu!

Səni, qədim Borçalı torpağının yetirməsi olan gözəl şairi, təəssübkeş ziyalı və publisist, fəal ictimai xadimi 50 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Hələ 70-ci illərin başlanğıcında dərs dediyim Məmməd Əmin Rəsulzadə adına Bakı Dövlət Universitetinin filologiya fakültəsinin tələbəsi olduğum vaxt aşıq poeziyasından qidalanan şeirlərini mətbuat səhifələrində oxumuş, kökümüzə, ruhumuza bağlı

əsərlərini bəyənmişdim. Həmin illərdə yenidən cücərməyə başlayan milli oyanış hərəkatında iştirak etdiyini, mənliyimizi təbliğ edən əsərlərlə bağlı mənim "Gülüstan" poemamın yayılması yolunda çalışdığını sonradan bildim. Bütün bunlar doğulduğun Borçalı torpağının - qədim Türk yurdunun sənə bəxş etdiyi qan yaddaşıdır.

İndi Gürcüstanda yaşayan soydaşlarımız arasında böyük nüfuz sahibisən. Bu nüfuzu şeirlərinlə, sazımızı-sözümüzü yaşatmaq yönümündə gördüyün işlərlə qazanmısan. Xüsusən, sənin el sevgisi ilə yanaşı, qardaş Gürcüstanın ali mükafatı - "Şöhrət" ordeninə layiq görülməyin məni çox sevindirir. Əminəm ki, sən iki qardaş xalqın sarsılmaz dostluğunun daha da möhkəmlənməsində səmərəli işlər görəcəksən.

Əziz Osman!

Səni 50 yaşın tamam olması münasibəti ilə bir daha təbrik edirəm. Əminəm ki, ulu Borçalıda babalardan bizə miras qalan mənəvi dəyərlərimizi yaşatmaq yönümündə hələ çox çalışacaqsan.

Tanrı səni qorusun!

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi, 26 mart 1999-cu il*

* * *

Bu deyim yalnız Dərviş Osman Əhmədoğluna məxsusdur: **"Saz çalmaq da ibadətdi Allaha".**

**Dədə Camal,**
*fəlsəfə elmlər doktoru, professor,*
*əməkdar elm xadimi*

* * *

1956-cı ildə bu nəslə gəlin gəldim. 9 yaşı varıydı onda Osmanın. Elə o vaxtdan Osman şeir, qəzəl yazlrdı. Sonra 13 yaşında ona Qurani Kərimi oxumağı öyrətdim. Osman lap uşaq vaxtından ədəbiyyata və dinə çox yaxın olmuşdur.

**Dilarə Osmanova**

* * *

Mənə elə gəlir ki, Osman qədər yurdunu, Türk dünyasını sevən yoxdur. Xalqına, vətəninə sevgi ilə yanaşı onda xalqının ağsaqqalarına və aydınlarına xüsusi məhəbbət vardır. O, elinin-obasının sənətkarlarını, ziyalılarını, yazarlarını qiymətləndirməyi bacaran, onları təbliğ etməkdən yorulmayan və Borçalıda sözü tutulan kişilərdən idi.

**Eldar Hüseynquluoğlu,**
*iqtisad elmləri namizədi, dosent*
*dövlət qulluğu müşaviri*

* * *

Hər kəs deyər dost mənə,
Ürək dönər dastana
Dost deyənlər çox olar,
Heç kəs çatmaz Osmana!

**Elxan Məmmədli,**
*Filologiya elmləri namizədi,*
*Əməkdar mədəniyyət işçisi*

* * *

Osman baba sazımızı, sözümüzü və Borçalı aşıqlarını beynəlxalq miqyasda tanıdan bir dərvişdi. Ruhu şad olsun.

**Aşıq Əfqan**

* * *

Osman şair idi. Yalnız yazdığı şeir və poemaları ilə deyil, yaşadığı təzadlarla dolu həyatıyla, sevgisi, nifrəti, qəzəbi, ruhu və varlığı ilə şair idi. Yaşadığı mühitə sığmırdı. Bədəni yer üzündə, ayaqları Azərbaycanda, Borçalıda, Türkiyədə, İranda, Balkanlarda gəzsə də, bu ölkələrin torpağını tapdalasa da, ruhu göylərdə idi.

**Əli Şamil,**
*folklorşünası, publisist*

* * *

Osman Əhmədoğlu "Olduğu kimi görünən, göründüyü kimi olan" bir ziyalı idi. Odlu-alovlu çıxışlarından, şirin və məzəli söhbətlərindən, səmimi münasibətindən doymaq olmurdu. Osman Əhmədoğlu mərd, vətənpərvər, millətini sevən, yurduna bağlı olan, milli adət-ənənəmizi yaşadan, tarix və mədəniyyətimizi inkişaf etdirilməsində əvəzsiz xidmətləri olub. Osman Əhmədoğlu dostluğuma sədaqətli və etibarlı idi. Gözəl ziyalımız, qədirbilən eloğlumuz, qeyrətli dostumuz Osman Əhmədoğluna Allah-Taaladan rəhmət diləyirəm. Məkanı cənnət, ruhu şad olsun. Amin!

**Əlixan Yəhyaoğlu,**
*şair, publissist*

* * *

Sənin yoxluğunun acı həqiqəti içimdə gəzdirə-gəzdirə dözə bilmədiyim halda dözə-dözə 52 il müddətində səninlə bağlı içimdə, ruhumda qram-qram, zərrə-zərrə toplanmış acılı-şirinli xatirələr, olaylar mənə bir təsəlli olur, ruhumu ovundurur. Bildiyim odur ki, sən bizim dünyaya bir daha qayıtmayacaqsan. Mən isə təbii ki, sənin yanına gələcəyəm. Ona görə də, əlvida yox, görüşənə qədər deyirəm.

Sənin Süleymənin… axı, sən məni belə çağırırdın.

*Bizim dünya, Masallı,*
**Ərəb Süleyman**

* * *

"Bir gözəl məclisdəydik. Həmişəki kimi ağsaqqalımız Camal Mustafayev yenə məclisimizin başındaydı. Müxtəlif sağlıqlar deyilirdi. Camal müəllimin içki içən olmadığını bilsək də təkid etdik ki, sağlıq desin. O, çox fikirləşmədən belə bir sağlıq dedi:

"Götürün badələrinizi, içək özü burda olmayan, əsl Borçalı balası olan bir şairin – Osman Əhmədoğlunun sağlığına. Biz çıxıb gəlmişik, onun özü də, sözü də, sazı da Borçalını qoruyur!"

**Əlövsət Osmanlı**

* * *

Mən Osman haqqında sağlığında həvəslə yazırdım bir növ qiyabı olaraq söz güləşdirirdim. Bəs indi??? Artıq bir ilə yaxındır gur səsi gəlmir. Düşünürəm ki ölüm haqqdır, amma, bir əziz dost olaraq ona borcumuzu yerinə yetirməyə pandemiya imkan vermədi. Məni narahat edən bu səbəb aradan qalxmadıqca, Osmanın qəbri başında durub ağlamadıqca bacı-dost kimi ürəyimi boşaltmadıqca rahat olmayacağam. Mənim uçun hələ yaşayır!!! Onun dostlarının qəlbində öz yeri var idi. Bir-birinə oxşamayan xasiyyətləri ilə onunla tez-tez görüşə bilməsək də daima yanımızda hiss edirdik. Azərbaycanda xalq hərəkatı başlayanda meydanlarda görünür, gur səsiylə hayqırırdı, qanlı yanvar qırğınından sonra Borçalı xalqı adından

şəhidlər xiyabanında ağı deyərdi. Elçibəyin matəm günündə hönkür-hönkür ağlardı, Türkiyədə Sarıqamış şəhidlərinin xatirəsini gur səsiylə qeyd edərdi. Sözsüz ki, bu gün bizlərlə bərabər olsaydı Azərbaycanın Qarabağ müharibəsində qələbəsinə də bizim qədər sevinər, şəhidlərimizə ağı deyərdi.Osman ona görə bizim üçün Osmandır!!

**Əzizə Şamilova**

* * *

Dədəm Dərviş Osman Əhmədoğlu qəlbi təmiz, kövrək, gülməyi, yaşamağı sevən bir insan idi. Dədəm birini sevəndə özündən də çox sevərdi. Qəlbində yaşam sevgisi ilə bərabər el-oba,ailə sevgisi də var idi. Onun ən böyük arzusu bizim oxuyub ali təhsilli olmağımız idi. Mən dədəmin ən böyük nəvəsiyəm.Dədəm həmişə mənə deyərdi:"Oxu,universitetə qəbul ol,bax,onda dünyaları mənə vermiş olacaqsan". Mən sözümün üstündə durdum, universitetə qəbul oldum, amma sən mənim bu günümü görə bilmədən getdin. Dədəm, ölüm qatarı səni bizdən tez alıb götürdü.Halbuki, elə çox istəyərdim mənim bu günümdə yanımda olub,mənimlə qürur duymanı,qəbul olduğum gün sevincini bütün el-obaya yaymağını,o gözəl gözlərindəki parıltını, məni qucaqlayıb öpməyini.Amma, hər şey fərqli oldu. İndi sən yoxsan. Yanımda yalnız sənin xatirələrin, şəkillərin var. Sən öl-

mədin, dədəm, sən hələ də yaşayırsan, mənim və tüm sevdiklərinin qəlbində, Allah sənə rəhmət etsin gözəl insan.

**Fidan Osmanlı**

* * *

Osman Əhmədoğlu onu şair kimi tanısınlar deyə şeir yazmayıb. Osman Əhmədoğlu elə-belə ayım gəlsin, günüm getsin deyə yaşamayıb. Həyatını, ömrünü-gününü bildiklərini bizlərə - insanlığa çatdırmaq üçün yaşayıb, yaradıb.

**Firidun Şamiloğlu**
*tədqiqatçı*

* * *

Mən Osman Əhmədoğlunu zəngin daxili aləmə malik, haylı-küylü, coşqun təbli bir insan və çox gözəl bir şair kimi tanıyırdım. Hansı tədbirdə çıxış edirdisə çox odlu alovlu ürəkdən danışardı. Bizim ailəni şəxsən babam Azaflı Mikayılı çox sevirdi. Osman Əhmədoğlu çox qonaqpərvər, etibarlı dost, dəyərli bir insan idi. Onun əziz xatirəsi hər zaman öz dəyərləri ilə birlikdə onu sevənlərin qəlbində yaşayacaqdır.Ruhun şad olsun şair Dərviş Osman Əhmədoğlu.

**Gülarə Azaflı,**
*aşıq, əməkdar mədəniyyət işçisi*

* * *

Sene 2011 ya da 2012 olmalı...

Türkiye'den Serhat Boyları Derneği ile birlikte ilk defa dede yurdum, ata yurdum Borçalı'ya bir kurban bayramında kurban dağıtmaya gitmiştik. Bizi havalimanında bölgenin aksakalı, bölgenin dervişi, Derviş Osman karşıladı...

Kendisini süreç içerisinde tanıdık. Daha sonra birçok etkinlikte de birlikte olduk.

Kendisi çok inançlı, itikatlı, Türklük şuuru olan, İslam'a inançlı, çok karakterli bir adamdı. Borçalı'ya da çok ciddi emekleri vardı.

Ben kendisinden neler öğrendim; Ben kendisinden Borçalı kültürünü, sazı-sözünü ve hayatta dik durmanın ne demek olduğunu gördüm. Çünkü Derviş Osman'ı 60'lı yaşlarında tanıdım. Ona rağmen 18 yaşındaki bir delikanlı genç gibi heyecanlı, coşkulu, bayrak sevdalısı, millet sevdalısı, milli bir adamdı.

Kendisiyle şakalaşabilen ender insanlardan birisiydim...

Kendisine bir şey derdim, "Bak aksakal benim. O da derdi 'Verdim sana aksakalı'" o tarz esprilerimiz olurdu.

"*Ölümden döndüamaotopraklardan vazkeçmedi*"

Kendisiyle şöyle bir anım var;

2013 yılıydı sanırım... Bir defasında Derviş Osman, Zelimhan Memmetli ile birlikte Kars'takı Sarıkamış şehitlerini anma etkinlikleri için Azerbaycan'dan arabayla yola çıkmışlardı. Bu yolculuk sırasında kendileri, tipi ve ağır kış koşulları nedeniyle boğulma tehlikesi geçir-

mişlerdi. Ona rağmen geldi... Büyük bir coşkuyla, gözlerinden ateş fışkırıyordu... Toprağa eğildi, şehitlere eğildi... Onlara dokunduğu o anı çok yoğun yaşadı, o soğukta nöbet tuttu, şehitlerimizin şehadete giderken yürüdüğü yolu yürüdü... Şehitlerimizin yaşadıklarını yaşadı. O anları çok net hatırlıyorum. O gün milleti için, davası için ölümden dönmüştü. Çok net hatırlıyorum...

*"TürkdünyasınınOsmanabisibirçınardı..."*

Gerçekten çok önem arz eden bir büyüğümüzdü, bir değerdi, bir çınardı.

Türk dünyası onu unutmayacak, ben onu asla unutmayacağım. Ruhu şad, mekanı cennet olsun...

Bölgeyi tanımamızda, bölgenin kültürünü, sanatını, tiyatrosunu, sanatçısını kısacası o bölgenin her şeyinin, bizimle ilgili bütün izlerini, Osmanlı Derviş'i takip ederek bulabiliriz. Borçalı balalaları olarak, bunun altını çizmek isterim.

*"Derviş OsmanKafkasya'nınabisidir"*

O Kafkasya'nın Osman abisi, o Türk dünyasının Osman abisi... Ruhu şad olsun. Onu tanıdığım için kendimi çok şerefli hissediyorum. Allah rahmet eylesin. Birçok güzelliğe, birçok Borçalının tanınmasına vesile olan kendisidir. Ne kadar teşekkür etsem azdır. Bir defasında da onun Borçalı Elat Bayramı'nda ne kadar fedakarca mücadele ettiğini gördüm. Bazı konulara ne kadar üzüldüğünü gördüm. Ama dimdik durduğunu da gördüm. Derviş Osman hepimizin abisi, hepimizin onurudur.

**Hakan Kılıç**

* * *

Osman müəllim gözəl ziyalı və gözəl ailə başçısı idi.Onun haqqında söz demək mənim üçün şərəfdir.Osman müəllimin Borçalı aşıq sənətinin inkişafında və yayılmasında böyük əməyi və zəhməti olub.Nəinki Borçalımızda Azərbaycan, İran, Türk dünyasında tanınıb sevilən ziyalı və şair idi.O həmişə məni gənc olmağıma baxmayaraq böyük ustadlarla tədbirlərə dəvət edirdi.Yeri gəlmişkən deyim Sovetlər birliyi dağıldıqdan sonra Türkiyəyə ilk səfərimi açıq, geniş ürəkli Osman müəllimnən getmişəm və gözəl yoldaşlığını görmüşəm.Çox heyif içimizdən tez getdi. Allah ona rəhmət eləsin məkanı cənnət olsun.

**Aşıq Həvəskar**

* * *

Osman Əhmədoğlu, şair qardaşım,
Səni hər görəndə ucalır başım.

**Xəlil Rza Ulutürk,**
*Xalq şairi*

* * *

Türk dünyasının böyük oğlu Dərviş Osman saz-söz adamıydı. Elə-obaya doğmalıq, soy-kökə bağlılıq gördüm onda. Hər zaman xalqın içindəydi. O qədər ucaydı ki, hər yandan boyu görünürdü. Könüllərdə taxtını qurdu getdi. Allah rəhmət eləsin.

**Xətai Dədə Ələsgər,**
*Dədə Ələsgərin nəticəsi*

* * *

Tələbəlik illərində 5 il bir otaqda qaldığım, son qəpiyimizi, çörəyimizi bölüşdüyümüz Osman Əhmədoğlunun indiyədək çap olunmamış şerləri onun açılmamış dünyasıdır. Onun şeirləri, dadlı-duzlu söhbətləri onu tanıyanların, onunla dostluq edənlərin yaddaşında, qəlbində yaşayır. Onun hər deyimində bir şeyiriyyət, bir özünəməxsusuluq var idi. Osman hər işə bir məna verə bilirdi, içi dolu idi, ürəyi söz xəzinəsi idi. Metro eskalatoru ilə üzü yuxarı qalxan Osman, əks tərəfdə bir ağsaqqalı görəndə öz şirin Borçalı ləhcəsində gur səsi ilə "Ayə, göreyrsənmi, Fələkdi eyy..., məni qaldıreyr, səni endireyr" deyəndə ətrafındakılarda xoş təbəssüm yaradan Osman idi. Gecə növbəsindən gəlib daş kimi yatıb qalan tələbə dostuna-mənə- idman dərsinə getməli olduğunu bu misralarla xəbər veririrdi, yadımda qalan budur:

"Ac qarına yatıb qalma,
Ye şorbadan gəl cana sən.
Ondan sonra istəsən yat,
İstəsən gəl idmana sən"

Kaş onun "məişət şerlərini", dost zarafatlarını künc-bucağa atmayıb saxlayardım. Yəqin onlar da bu kitab üçün bir Osman naxışı, bir Osman sədası olardı.

**İsrafil Qurbanov,**
*Tələbə dostu, Əməkdar dövlət qulluqçusu*

* * *

Şair, publisist, ictimai xadim, Borçalının sayılan ağsaqqalı Osman müəllim aşıq sənətində əvəzsiz xidməti olan şəxsiyyət, hər birimizin məsləhət yerimiz idi. Bizim üçün çox dəyərli idi. Allah rəhmət eləsin.

**Leyla Əliyeva,**
*Mirzə Fətəli Axundzadə adına*
*ev muzeyinin direktoru*

* * *

Bütün şüurlu həyatını elinə, obasına, xalqına, millətinə həsr etmiş ünlü şair. Osman Əhmədoğlu nun bədii yaradıcılığında da bunu çox aydın görmək olur. O, bütün ömür boyu türkçülük uğrunda yorulmadan mübarizə aparan, bu müqəddəs yolda özünü fəda etməyə həmişə hazır olan bəlkə də yeganə Borçalı ziyalısı idi. Ünlü şair həm də dəyərli saz adamı idi, söz adamı idi. O heç vaxt özünü nə sazdan nə də sözdən (şeirdən) ayrı hiss etmirdi. Nəinki yüksək tribunalardan elə sadə adamlarla da danışanda sanki şeir deyirdi. Bu Dərviş Osmanın özündən asılı deyildi. Çünki o belə doğulmuşdu. Xəmiri sazla sözdən yoğrulmuşdu.

**Mahmud Kamaloğlu,**
*professor*

* * *

Nə qədər acı da olsa bu bir həqiqətdir Osman Əhmədoğlu yoxluğu. Xatirəmdə həm müəllim, şair natiq, vətənpərvər, yaxın qohum, bir dost, həm də bir türkoğlu türk kimi yaşıyacaq şair Osman Əhmədoğlu. Gözəl ailə başçısı idi. O insana xas olan bütün yaxşı keyfiyyətləri ovladlarina aşılamışdı. Ruhun şad, məkanın çənnət olsun!

**Məhərrəm Əhmədov**

* * *

Bu gün Savalan məndən sən haqda beş-altı cümlə yazı istədi. Sən dünyaya sığmadın, Osman əmim, gözəl əmim. Səni cümlələrə sığışdıra bilmirəm, sən dünyaya sığışmayan kimi.

Onu deyə bilərəm ki, mənə sevməyi, sevilməyi, Türkçülüyü, vətən sevgisi öyrətdin, Osman əmim.

Sən həmişə sevdiklərimin içində ən ucasan, ucadasan.

Sənin ildönümün ərəfəsində adına bir kitab bağlandığını eşitdim. Çox sevindim. Ruhuna töhfə olsun bu kitab özü kitab olan əmim, ömrü dastan olan əmim. Sən evdən getmədin, eldən getdin, el adamı, söz adamı, saz adamı, könül adamı!

Nur içində yat, Dərviş əmim.

Allah sənə rəhmət eləsin.

**Məmməd Eldar oğlu Osmanov**

* * *

Derviş Osman Oğuz boyunun bir kolu olan Borçalı türkünün sesini dünyaya duyuran gür sesli yiğit bir insandı. Borçalıya gidenlerin yol göstericisi abisi ve samimi candan bir dostu Derviş Osman çok sevdiği Allah'ına kavuştu. Borçalı türkleri ve türkdünyası yetim kaldı. Ağla Borçalı ağla. Bir Derviş Osman daha gelmez ve biz sen olmadan Borçalıda ne yapacağız. Bize yoldaşlık ve yol gösteren kim olacak. And olsun adını yaşatacağız ne biz, ne de bizden sonrakı nesil seni unutmayacak. Allahsana gani-gani rahmet eylesin, Osman abi.

**Müherrem Yıldız,**
*Serhat Boyları Derneği Genel Başkanı*

* * *

Osman müəllim ömrü mənim üçün bir məktəbdir. Bu məktəbdə öyrəndim Allah, peyğəmbər sevgisini. Bu məktəbdə öyrəndim yurd sevgisini. Bu məktəb öyrətdi mənə vətəndaş kimliyimi, türkçülüyümü, mənim kimi çoxlarına öndər oldu Osman müəllimin həyatı. Allah sevdiyi qullarından etsin inşAllah.

**Namiq Hüseyn Qaraoğlu**

* * *

Osman babamı doğmam bildim, elim-obam, sazım- sözüm bildim. Tez-tez Borçalıda sazlı-sözlü törənlərdə görüşürdük. Bir dəfə gözümə çox yorğun göründü. Bəlkə də, mənə elə gəldi.

Dedim: - Osman babam, yorulmusan, bir otur, dincəl.

Dedi: - Ay Nargilə, bu yük mənim Borçalımın yükündü, yorulmaram.

Dedim: - Ayaqqabbın tozdu babam, qoy silim.

Dedi: -Yox, bu toz mənim torpağımın, Borçalımın izi-tozudu. Bu da mənə xoşdu, qızım.

**Nargilə Mehtiyeva,**
*aşıq*

* * *

Osman babam şərəfli, mənalı ömür yaşadı. Borçalı adına layiq kişilərdən oldu. El-obanın sevdiyi insan idi. Sadədən sadə idi, səmimi idi. Bəzən çox sərt idi. Əlbəttə ki, haqsızlıq olan yerdə sözünü deyən kişilərdən idi. Onunla hər söhbət mənim üçün yeni bir dünya idi, zənginləşməyim idi. Həmişə zəng edərdi, hal- əhval tutardı. Utanardım ki, yenə məni üstələdi. Axı, mən zəng etməliydim. Hamıya doğma idi, hamıya canıyananlıq edirdi. Bu sadə insan necə böyük idi, Allahım. Ölümü məni çox yandırdı. Çox istəyirdim, çox. Deyirdi, qızım, müəllimsən, dilimizi qoru. Yadımdadı, bir dəfə kimsə bir yığıncaqda dedi ki, "poezdə" gecikirəm. Çox əsəbləşdi ki, dilimizə başqa millətin sözünü qatmayın. Bu idi Osman babam - dilini, dinini, elini, torpağını, millətini ürəkdən sevən.

Allah sənə rəhmət eləsin, Osman babam.

**Nurlana MehGül,**
*Gürcüstan, Rustavi şəhəri, müəllim*

* * *

Osman Dərviş böyük türkçü, Haqq şairi, Borçalı təəssübkeşi humanist bir insan və fədakar bir dost idi. Atamın özünə kiçik qardaş bildiyi bu insan dostluğa sonacan sadiq olub, ailəmizin ən xoş və kədərli günündə də.həmişə yanımızda oldu.Ölümünü hiss etsə də, qorxu hiss keçirməyən bu insan son nəfəsində də canından artıq sevdiyi doğma el-obasını düşündü .Haqq aşiqi və aşığı olan Osman Dərviş son nəfəsində də qələmini, saz havasını istədi.Daimi bu dünyada yeri görünən Uca dərgaha ucalmış şair qardaşımdır Osman Dərviş!

**Növrəstə Həsənova**
*Gürcüstan, Qardabani, müəllimə*

* * *

"Aşıq Pəri Məclisi" olaraq Borçalıda Dünyamalı Kərəm haqqında veriliş çəkmək üçün sazlı- sözlü xanımlarımızla Bolnisinin Qoçulu kəndinə getmişdik. Sağ olsun, Borçalı eli, ziyalıları, şairləri elə Dünyamalı Kərəmin ocağına bizimlə görüşə gəlmişdilər. Dərviş Osman Əhmədoğlu o verilişdə elə iştirak etdi ki, elə çıxış etdi ki, bu günəcən unuda bilmirəm. Onun özünü bir ləyaqət timsalı kimi, ürəyini isə el üçün yanan şam gördüm. Alqış belə ömrə. Ömrü belə yaşamağa dəyərmiş.

Dərviş Osman Əhmədoğlu onu sevənlərin qəlbində əbədi yaşayacaq.

**Pərvanə Zəngəzurlu**
*Aşıq Pəri Məclisinin sədri*

* * *

İnsan var eldən gedər, insan var evdən gedər. Dərviş Osman eldən getdi. Ömrünü tək ailəyə həsr edənlər elə ailənin yaddaşında qalır, ömrünü xalqa həsr edənlər isə xalqın yaddaşında, qəlbində əbədilik qalır. Bəli, elə-obaya, saza-sözə bağlı ömrünü Dərviş Osman şərəflə yaşadı. Borçalının tarixini, adət-ənənəsini dərindən bilirdi. El ağsaqqalıydı, söz adamıydı, saz vurğunuydu. Hər məclisdə başda olardı. Bir insan üçün bəlkə də, 72 yaş normaldı. Ancaq, məncə Osman üçün bu yaş az oldu. Allah bilən məsləhətdi. Ruhu şad olsun, Borçalının mərd kişisinin, Osmanımın.

**Pünhan Əliyev**

* * *

Osman Əhmədoğlu qəlbində Allah sevgisi vardı. Dilində ölməz saz-söz ustadlarının şirin nəğmələri əzbəriydi. Min illərə söykənən şifahi xalq ədəbiyyatımızı bu günümüzə çatdıran, təbliğ edən, təqdim edən, söz adamı, ruh adamı, işıqlı bir ziyalımız idi Dərviş Osman. Fədakar bir ömür yaşadı, onun ömür

yolu millətinə, xalqına bağlıydı. Borçalı adına şan-şöhrət, urvat idi. Məkanı cənnət, ruhu şad olsun.

**Ramiz Bəkirov**
*Gürcüstan / Sabiq millət vəkili*

* * *

Mənim üçün o, Borçalının haqq səsi, susmayan fəryadı idi. Yeri gələndə sinəsini sipər edib elinin mühafizi də olurdu. Gedişi ilə Borçalı elimiz bu dəfə gerçəkdən yetim qaldı. Şübhəsiz ki, yeri çox görünəcək...

Sən, Vətənə sevginin, torpağa bağlılığın, dilə, mədəniyyətə sayğının da təcəssümü idin, Dərviş Osman! Ruhun daim şad, yolun davamlı olsun!

**Rüfət Muradlı**

* * *

Dərviş Osman Əhmədoğlu türk dünyasının ayrılmaz bir parçası olan Borçalıdan dünyaya açılan bir körpü idi.

**Aşıq Tərmeyxan**

* * *

Atam ömür boyu kasıb yaşadı. Niyə bilirsinizmi? Vətəni üçün. Çünki özünü düşünməyə vaxtı olmadı. Ancaq vətən, ancaq Borçalı dedi. Kasıb yaşasa da qəlbi ilə bütün varlığı ilə bizim üçün dünyanın ən zəngin adamı olaraq yaşadı. Onun bir ürəyi dünyala-

ra dəyərdi. Onun yolu ilə getmək ən şərəfli yol ilə getmək deməkdir.

**Savalan Osmanlı**

* * *

Sən mənim Təbriz Eşqim, Sən mənim Göyçə Sevgim. Sən mənim ruh dostum! Sən mənim Sirdaşım!

Borçalıdan gələn zənglərim kəsilib, Ay Osman Dayım.

Elə gün olur ki, səni axtarıram - Yerdə, Göydə! Səni ürəyimdə tapıram! Ürək dostum! Könlü sınıq insanların könlünə sığal çəkdin. Heç zaman mən-mən demədin. Hər zaman "biz" dedin. Dərvişlər könül sındırmazlar. Sən heç kimin könlünü sındırmadın!

Təmənnasız ziyalı, Turan sevgisi ilə qoşa addımlayan, Dərvişim!

Məqamın, məkanın mübarək olsun, Dərvişim.

**Səbinə Yusif**

* * *

Mənim aləmimdə Dərviş Osman insanlıq məktəbidi, dostluq körpüsüdü, el üçün gur yanan çıradı. Yeri gələndə polad kimi sərt, ipək kimi yumşaq idi.

**Səringül Sadə**

* * *

Dərviş Osman bütövlük, istiqanlılıq, qeyrət timsalı idi. O, ruhunda və canında ziyalı mədəniyyətini

yaşayan, çox dəyərli insan idi. Mən hara gedirəmsə, məndən Osman haqqında xatirələr soruşurlar. Çünki biz bir yerdə çox olurduq.

Osman müəllim ruhən yenədə yaşayır. Bu anda şair Zaur İlhamoğlunin sətirləri yerinə düşür: "Sağ ikən yaşamaq, yaşamaq deyil, yaşamaq başlayır öləndən sonra".

Bu insan təkcə özü üçün yaşamayıb, büyün varlığı ilə hər kəs üçün yaşadı. Onu mən heç unuda bilmirəm. Allah rəhmət eləsin!

**Süddərxan Kazımov**
*müəllim*

* * *

Dərviş Osman müasir Azərbaycan poeziyasının nəhənglərindən idi, qüdrətli qələmi, natiqliyi, fenomen yaddaşı, sadəliyi, səmimiliyi, insanlarla səmimi münasibəti ilə yaddaşlarda, qəlblərdə əbədi qaldı. Hər zaman haqqın tərəfində oldu, milli-mənəvi dəyərlərimizi uca tutdu. Türk sevdalısı Dərviş Osman Əhmədoğlu onu sevənlərin qəlbində əbədi yaşayacaq.

**Aşıq Şahbaz Göycəoğlu**

* * *

Osman müəllim qurumuz, fəxrimiz, əmi kimi gözəl dayağımiz olub. Osman əmimin adı ilə, özü ilə, sözü ilə hər zaman qurur duymuşam. Allah məkanını cənnət eləsin.

**Şəhriyar Osmanzadə**

* * *

Mənnən əvvəl bir bacım olub, atam anasının adını verib ona - Tamam. Uşaq rəhmətə gedib, sonra mən dünyaya gəlmişəm. Atam deyib, adını Tamam qoyuram. Deyiblər ki, olmaz. Bu ad düşmür, uşağın birinə adını qoydun rəhmətə getdi. Atam deyib ki, o mənim anamın adıdı, uşağın adı Tamamdı, vəssallam.

Atamın anasına sevgisi, Vətənə sevgisi ölçüyə gəlməzdi. Elə yaradıcılığının son şeiri də, ölüm ayağında anasına yazdığı "Yadıma anamın laylası düşdü" şeiri oldu. Ölümün gözünə dik baxdı, son sözlərini yadigar qoydu, hamı ilə vidalaşdı atam. Öldüyü günü bilirdi. Dedi ki, mən Novruz bayramına qalmayacam. Martın 18- i günü haqqın dərgahına qovuşdu.

Atamın itgisi ağır oldu. Onunla dünyamız necə gözəliydi, onunla dünyam yeddi rəngdəydi.

Elə xəstəliyinin ciddi olduğunu bilənnən ağlayırdım. Ancaq, canını tapşıranda sanki, dondum. Göz yaşlarım canımın içinə, qəlbimə süzüldü.

Dəfn günü o izdihamı görəndə atamın böyüklüyü qarşısında, elin ona məhəbbəti qarşısında sakit durdum. Elə bil yarama su səpildi. El içindəki adı-sanı, hörməti təsəllim oldu. Bu gün də elə bilirəm yaşayır atam. Sabah da yaşayacaq.

Allah sənə rəhmət eləsin, əziz atam.

**Anan qədər sevdiyin qızın Tamam**

* * *

* * *

Dərviş Osman Əhmədoğlu dövrün yüz ildən bir yetirdiyi şəxsiyyətlərdəndir. Nərəsi aslan, duruşu bir dağ, varlığı elə-obaya bərabər insan idi.

**Vüsal Əmirov**

* * *

Derviş Osman üç cümle ile anlatılabilecek bir insan değil bence. Madem sınırlama var; Derviş Osman Türk birliğinin, Türklük sevdasının, yani Turan'ın vücut bulmuş haliydi. Derviş Osman çok duygusal bir adamdı, Türk yurdunun bir yerinde olan acı, onun Tanrı dağı kadar büyük olan yüreğinde çağlayana dönüşüp gözlerinden Kura nehri gibi sular akmasına sebep olurdu... Hiç dünya malına, mülküne önem vermezdi "benim olsun..." demezdi, "mal mülk onu sevenin olsun, ihtiyacı olanın olsun..." derdi. Derviş Osman; Adamdı, adam oğlu adamdı... Ruhu şad, mekanı cennet olsun.

**Yıldıray Aydəmir,**
*Beden Eğitimi ve Spor Öğretmeni*

* * *

Şair, ozan, Dərviş Osman ruhun şad, məkanın cənnət olsun! Ömrünü millət deyə-deyə şam kimi əridən alovlu şair Qarapapaq Türk Dərviş Osmanın lap tələbəlik illərindən malik olduğu alovlu qəlbi dayanana qədər səngimədi. İnanıram ki, onun ruhu bu

gün də Borçalı səmalarındadır. Onu tələbəlik illərindən tanıyıram. Onun çox zəngin mənəviyyatı vardı.

**Ziyadxan Budaq**

* * *

"Şairim, aşığım, dərvişim, ozanım, əfəndim, Osmanım, qəbir evinə qədər qardaşım Osman Əhmədoğlu, uğurun xeyir olsun!".

**Zəlimxan Yaqub**
*Xalq şairi*

* * *

Dərviş Osmanla ilk tanışlıqda, həmsöhbət olduğumuz vaxtlarda, Allah ona qəni-qəni rəhmət eləsin, düşünürdüm ki, bu kişi deyəsən axı "Piri Türküstan"-Xoca Əhməd Yəsəvi, Hacı Bektaş Vəli...millətlə, millətçiliklə bağlı fikirlərini oxuduğumuz o böyük kişilərdəndi, o zamanlardan qalmadı.Necə ki, Əli Quşçudeyirdi:Cismən və ruhənyatmaq qatilimiz olacaq, Osman Dərviş də yaşadığı dədə-baba yurdu qədim Borçalıda, mənsub olduğu Qarapapaq türkləri-həmsoylarımız üçün belə bir şəxsiyyət idi. Millətini ayaqda saxlamağa çalışan Kişi... Dərin söhbətlərindən, yaradıcılığı ilə tanışlıqdan Osman qardaşımızın Yəsəvinin ruh daşıyıcılarından - ...Türklər qılınc fəthindən əvvəl könülləri fəth edirdilərdən olduğunu yəqinləşdirirdin. Sadəcə onunla eyni zamanda yaşadığımızdan, kitablarının qədim əlyazmaları şəklində bizlərə yetişmədiyindən, bir

telefon zəngi ilə Osman Dərvişlə danışa biləcəyimizdən idi ki, dərviş Osmana müasirimiz kimi baxırdıq...

İndi o əbədiyyət dünyasında... Kim bilir...bəlkə də millətimizin taleyində əvəzsiz xidmətləri olan elə o böyük şəxsiyyətlərlə məsləhət, məşvərətdə...

Bizlər isə, Osman Dərvişi tanıyırdıq, onunla həmsöhbət olmuşduq, çətin suallarımıza özünəməxsus cavablarını eşitmişdik xoşbəxtliyini yaşamaqda, o vətən aşiqi böyük insanı minnətdarlıqla xatırlamaqda...

**Zərnişan Turan,**
*əməkdar jurnalist*

## Bütün türk dünyasından boyu görünən – Dərviş Osman Əhmədoğlu

Şair Osmanı - Osman Əhmədoğlunu tanıyanda 9-cu sinifdə oxuyurdum. Onda şeirlərə, şeir yazanlara yüksək dəyər verilirdi. Adını eşidib, lakin üzünü görmədiyim, sadəcə, şeirlərini qəzetlərdən - əsasən də Gürcüstanda çap olunan mətbuatdan oxuduğum şairlərin hamısını çox istəyirdim. Özüm də əzbərdən şeir söyləməyi çox sevərdim.

Nədənsə, Osman müəllimin şeirlərini o vaxt "Sovet Gürcüstanı" qəzetində tez-tez oxuyardım, əzbərimdə daha çox qalardı onun şeirləri. Yaşım artdıqca şeirə marağım da artmağa başladı. O vaxtlar şair Osmanın "Borçalı" adlı bir şeiri vardı. Qoşma üstündə yazılan həmin şeir orta məktəb illərinin ən doğma, ən əziz və sevimli yadigarı olub mənim yaddaşımın. Və o şeirin mənim səmtimin, yönümün müəyyənləşməsində əvəzsiz rol oynayıb. Bəlkə də 30 ildən artıq olar ki, bir gün də olmayıb o şeiri əzbər söyləməyim:

***İzin ver başına dolanıb sənin,***
***Ümman qucağında üzüm, Borçalı.***
***Hər obanı bir bənd bilib şeirimə,***
***Oymaqlardan misra düzüm, Borçalı.***

***Həm tarixim, həm keçmişim, əzəlim,***
***Gəraylım, təcnisim, qoşmam, qəzəlim,***
***İgidim, ərənim, öz obam, elim,***
***Ən şirin söhbətim, sözüm, Borçalı.***

***Təvəllüdüm də sən, yaşım da sənsən,***
***Baharım da sənsən, qışım da sənsən.***
***Göylərə ucalan başım da sənsən,***
***Duyan qəlbim, görən gözüm, Borçalı.***

***Oğuz bəylərimin yay bağı yurdum,***
***Bəxti yeylərimin yaylağı yurdum.***
***Qoynunda Koroğlu oylağı qurdum,***
***Silinməz sinəndən izim, Borçalı.***

***Dağların atamdır, düzlərin anam,***
***Lilparlı bulaqlar gül üzlü sonam,***
***Mən sənin eşqinlə alışam yanam,***
***Adına "vətənim" yazım, Borçalı.***

***Qoy aləm hüsnünə yetirsin nəzər,***
***Hər sözün-söhbətin nəğməyə bənzər,***
***Sinəndə ustadlar barmağı gəzər,***
***Babamdan yadigar sazım, Borçalı.***

***Könlüm öz yurdundu, qürur ilə gəz,***
***Al qələm əlinə, dastanını yaz,***
***Osmanam, heç tufan qopara bilməz,***
***Bitmişəm sinəndə özüm, Borçalı.***

Sonralar onun çox şeirini və məqalələrini oxudum. Və hamısı da mənə bir- birindən xoş gələrdi. Təkcə yazılarından yox, onun özündən də çox öyrənməyə çalışmışam ömrüm boyu. Özünü daha yaxından tanıdıqca, onun necə bir insan olduğunu daha çox anlamağa başladım. Özündən danışmaz, öz şeirlərini və kitablarını təbliğ etməyə çalışmaz Osman Əhmədoğlu.

Borçalını canından artıq sevən Osman Əhmədoğlu ömrünü və həyatını bu yurda həsr edib. Bu torpağın sazını, sözünü və insanlarını tanıtmağa çalışıb. Rəhmətlik xalq şairi Hüseyn Arifin və mərhum aşıq Aydın Çoban oğlunun məsləhəti və köməyi ilə Gürcüstan Aşıqlar Birliyini yaratmış və onu layiqincə yaşatmışdır. Şair Osman Sarıvəllinin, Xındı Məmmədin, şair Ağacanın, aşıq Əmrahın, Hüseyn Saraclının, aşıq Kamandarın, Alxan Qarayazılının, Quşçu İbrahimin, aşıq Göycənin, aşıq Əmrah və başqalarının dönə-dönə tədbirlərini keçirib. Yubileylərinin təşkilatçısı və aparıcısı olub.

Zəmanəmizin ən böyük aşıqlarından olan Kamandar onun şeirlərini saz üstündə, öz bəstəsində el məclislərinin mötəbər insanlarına oxuyub. Eləcə də ustad aşıq Əmrah və digərləri çox oxuyub onun qoşmaları-

nı, gəraylılarını. Ən xoşuma gələni isə aşıqların oxuduğu “Atam-anam” şeiridir:

***Qonaq qardaş, xoş gəlibsən bu yurda,***
***Dayanma, yaxına gəl, atam-anam.***
***At bir yana utanmağın daşını,***
***Sən də bizə qarış, gül, atam-anam.***

***Gəncə bizim, Təbriz bizim, Kür bizim,***
***Sevincimiz şəlalədən gur bizim,***
***İnan, billah! Bu gün-sabah sur bizim,***
***Gəl məndən müjdəni al, atam-anam.***

***Ay Osman, Təbriz de, titrət bədəni,***
***Kəs qəlbini o göynədən zədəni.***
***Vətəni, milləti satan gədəni,***
***Qılınc ol, yarıya böl, atam-anam.***

Hələ neçə il bundan qabaq İncə dərəsində Hacımahmud əfəndinin dəfn olunduğu ziyarətgah olan Göy türbə çox gözəl təmir olunub. Bizim tərəflərdə - İncə dərəsində onu bu gün də söyləyir gözü ilə görənlər, şahidi olanlar. Deyirlər ki, o vaxtkı çətin illərdə olan qadağalara baxmayaraq, bu müqəddəs məkanı təmir etdirən kişi Borçalıdan olan Dəmirçi Əhməddir. Sən demə, həmin Dəmirçi Əhməd şair Osman Əhmədoğlunun atasıymış. Dəmirçi Əhməd övliya babamız Cındır Osmanın oğluymyuş. Həmin Os-

man babamız öz ömrünü Hacı Mahmud əfəndinin Həzrəti-pirimiz olan Mir Həmzə Seyid Nigari həzrətlərinin ən sədaqətli müridi olub. Yeri gəlmişkən, xalq şairi Nəriman Həsənzadənin yazdığı "Seyid Nigari Türbəsi" adlı məşhur poemasının bütöv bir fəsli həmin Cındır Osmana həsr olunub:

***...Keçdin rusun,***
***Osmanlının gömrüyünü.***
***Sən bağladın Cındır Osman,***
***Zaman açdı***
***Bu düyünü.***
***Qazaxda Mahmud Əfəndi***
***Eşitdi, güldü, bəyəndi,***
***Səndən ötrü qəhərləndi.***

Həqiqətən Osman baba xeyirxahlığın və halallığın mücəssəməsiymiş. Dədələrdən gələn haqq yolunun yolçusu olub şair Osmanın ata-baba ocağı. Görünür, xalq şairimiz "əslində olan dırnağında bilinər" kəlamına da nəzər yetirib. Ustad həmin poemada tanıdığı Osman Əhmədoğlunu unutmayıb. Onun da dəyərini öz qüdrətli qələmilə verib.

Həmin poemanı yenə V hissəsində oxuyuruq:

***Osman qağa, görüşdüm mən***
***Şair nəvən***
***Osman ilə.***
***Bir qibləyə namaz qılır,***
***Gördüm bu can o***
***can ilə.***
***Qızılı yox, gördüm qızıl***
***sözləri var.***
***Səndən, məndən***
***xəbəri var.***
***Sinəsində açılmamış***
***dəftəri var.***
***...Mən görmüşəm,***
***dövran keçir,***
***bir an gəlir,***
***O yoldan ki, Osman keçib,***
***sonra yenə***
***Osman gəlir.***

Mən Nəriman Həsənzadə böyüklüyünü və ucalığını bu əsərində bir də gördüm. Və ona Osman Əhmədoğluna bu əvəzsiz misraları yazdığına görə bir də təşəkkür edirəm.

Mən Osman Əhmədoğluna da minnətdaram ona görə ki, məktəbdə oxuduğum illərdə hər məni görəndə deyərdi: - Mənim babam Hacımahmud Əfəndiyə

55 il qulluq edib. Mən də hər İncə dərəsinə gedəndə nənəm Cahana deyərdim ki, Borçalıda bizim elə vurğun bir şair var, o şair ki, sanki bütöv ömrünü o zuyarətgaha səcdə eləmiş Cındır Osmanın nəvəsidir. Mən nənəmnən hələ uşaqlığımnan o ziyarətgahı hər zaman ziyarət eləmişəm, uşaqdan böyüyə hər kəsin "Pir" dediyi o məkanda kəsilən qurbanları görmüşəm, deyilənlərdən qəbul olanları, nəzir verənləri, sadağa göndərənləri görmüşəm.

Osman müəllim təkcə şair yox, həm də elin-obanın və bütün insanların hamısına bir insanlıq nümunəsidir.

Əslində, mən çoxdan yazmaq istəyirdim onun haqqında. Əlbəttə, şairliyi və şeirləri haqda yazmağa gücüm çatmazdı. Nə də onun yaradıcılığını dərindən bilmirdim. Bilsəydim də o qədər yazı-pozu dərinliyinə çox gedə bilməzdim. Amma bir tərəfdən də ona olan böyük hörmətim məni dincəlməyə qoymurdu. Osman Əhmədoğlu mənim nəzərimdə sadə və o qədər də səmimi bir şəxsiyyət olub həmişə. Mən onu daha çox bir insan kimi, bir doğmam kimi görmüşəm. Gördüyüm kimi də düşünməyə çalışmışam. Nədənsə, öz yaxın qohumlarımdan birinə, əmimə, dayıma, bəlkə də öz doğma babama oxşatmışam onu. Əslinə qalsa, onunla bir qohumluğumuz lap çoxdan, bəlkə də bizim özümüzdən çox-çox əvvəllərdən varmış. Bu da onun ulularının İncə dərəsinə müqəddəs bağlılığından gəlirmiş. Orada olan Göy türbəyə bağ-

lılığından gəlirmiş.

Mən ona “Osman baba” demişəm uşaqlığımdan. Övladlarım da onu belə çağırır.

Şair Osmanın dəyərini verən insanları da çox görmüşəm. Onlardan biri dediyim kimi, xalq şairi Nəriman Həsənzadədir. Osman Əhmədoğlunun tədbirləri, görüşlərdəki çıxışları, televiziya proqramlarındakı, şeir məclislərindəki ağırlığı onun kimliyindən xəbər verir.

Dönə-dönə “Ovqat”, “Səhər sovqatı”, “Ozan” və s. verilişlərdə iştirakı, Türkiyənin “Türksoyla ipəkyolu” televiziya proqramında və digər tedekanallardakı görüşlərinin, tariximizə, mədəniyyətimizə, ədəbiyyatımıza, sazımıza sevgi dolu duyğularının tamaşaçısı olmuşam. Hər verilişdə, hər görüşdə yeni bir keyfiyyəti üzə çıxır onun. Elmi yazıları ilə neçə-neçə ağır simpoziumların, konfrasların iştirakçısı və mükafatçısı olub.

Tiflisdə, Bakıda, Türkiyənin müxtəlif şəhərlərində, Kosovoda, Qırğızıstanda və başqa yerlərdə elmi, bədii və publisistik yazıları ilə çıxış edib, neçə-neçə uğurlara imza atıb.

Amma hara getsə də, harada olsa da, dönəcəyi, duracağı və yaşayacağı bir yer var, bir məkan var, bir yurd var ki, o da Borçalıdır. Osman Əhmədoğlu nə qədər türk ruhludur, elə o qədər də Borçalı ruhludur. Özünün bir şeirində dediyi kimi:

***Bir saz olub ağır elli Borçalım,***
***Yerin-göyün havasını çalandı.***
***Zaman-zaman qada görüb, qan görüb,***
***Atəşlərə, alovlara qalandı.***

***Danəndi, əhli-ürfan kanıdı,***
***Ər məqamı, ərənlər meydanıdı.***
***Bir yurd kimi yurdların sultanıdı,***
***Ondan ayrı əfsanədi, yalandı...***

Yurd məhəbbəti Osman Əhmədoğlu üçün ata-ana sevgisindən də böyükdür. O sevgiyə çatmaq, o sevgiylə yaşamaq da hər kəsə nəsib olmaz. Və o, hər ağrıya-acıya dözər, yurd ağrısına, daha doğrusu, yurdsuzluğa dözməz heç zaman.

"Borçalı" cəmiyyətinin verdiyi "Zahid Xəlilov adına türklüyə xidmət" ödülünün və Dünya Qarapapaqlarının İstanbul şəhərində keçrilən I qurultayında "Türk dünyasına hizmət" ödülü ilə mükafatlandırılıb Osman Əhmədoğlu. Bunlar Borçalı tarixində bir ilk olaraq tarixləşib. Bu başından-o başına Borçalı ellərini bir-bir dolaşar, yayda yaylaqlar, qışda qışlaqlar onun məkanı olar. Yorulmaq nədi, bilməz. Artıq ömrünün ixtiyar çağına doğru qədəm basır, amma hələ yollardadır, uğurlardadır.

"Borçalı" cəmiyyətinin "Elat" bayramlarında Armudlu yaylasında öz gözlərimlə nə qədər doğmalıqlar görmüşəm. Orada da Osman Əhmədoğlunu gör-

müşəm. Hər zaman haqqın və həqiqətlərin yanında olub o insan, mərdlərin yanında olub. Hər tərəfdən gələn qonaqlar ona gözaydınlığı verib. Doğrusu, bütün bunları görüb qürurlanmamaq olmaz.

Keçmişə nə qədər bağlıdısa, gələcəyə də o qədər bağlıdır o. Keçmişiylə nə qədər öyünərsə, gələcəyə ümidlə o qədər öyünər. Və bu da inam yaradır insanlarda hər zaman. Müəllim kimi müəllim, dərviş kimi də dərvişdir Osman Əhmədoğlu. Hansı sahədə olursa-olsun kölgəsi böyük görünür. Boyu uca görünür. Ondan öyrənməyə və ona güvənməyə, ona ümid etməyə dəyər. Borçalıda bir şair yaşayır, bir dərviş yaşayır, bir insan yaşayır və onun bütün türk dünyasından boyu görünür. Bu, Osman Əhmədoğludur.

**Güllü Eldar Tomarlı**
*Təzadlar.- 2016.- 19 aprel.- S15.*

## Dərviş Osman Əhmədoğlunun xatirəsinə həsr olunur….

Səni heç vaxt unutmayacağam, Osman babam.

İnsanın hər zaman insana, insanlığa ehtiyacı var. Qəlbi insanlıq üçün döyünənlər Allahın ən saf bəndələridir. Ona görə də, o cür insanlar böyük sevgiylə könüllərdə taxt qururlar. İnsanlara örnək göstərilir. Və dünyasını dəyişəndən sonra da xoş və şirin xatirələrdə yaşayır. Onun haqq əməlləri bir yol göstəricisi əvəzi görünür. Kimlərki həyatda bu cür adamlarla ünsiyyət qurur, ondan öyrənir və öyrənirik. Öyrəndikcə də təkmilləşir və bundan da daha çoxları dərs alır. Sən məktəbiydin, tarixiydin, şairiydin, müəllimiydin, dahiydin, müdrik idin, sadə idin səmimi idin, hərdən sərt, hərdən ipək kimi yumşaq idin, kövrək idin. Haykırtın da möhtəşəm idi, kövrəkliyin də. Ağlaya-ağlaya yazıram. Qələmim titrəyir. Heç bilmirəm nə yazıram. Nə gəlir yazıram. Xatirələrim çözələnir. Yadıma nələr düşür və elə birdən də hər şeyi unuduram sənsizliyi düşünəndə. Ömrünü belə yaşamağa dəyərmiş, Babam. Yollarda, səfərlərdə, tədbirlərdə...Yaxın demədin, uzaq demədin getdin. Yolların qoynunda dünyanı gəşt etdin. Özünnən demədin haaaa... Eldən-obadan, dəyərlilərdən dedin. Borçalını və Borçalılının qaymaqlarını tanıtdın.

Aşıq Hüseyn Saraclı can verəndə səni çağırdı və özünü çatdırdın. O isə, ay Osman "Saz amanatı" de-

di. Sən də saza məhəbbətini, el-obaya etibarlını, dostluğa sədaaətini göstərərək "Saz amanatı" adlı kitab bağladın.

Bəs bu dünyanın qarmaqarışığında sənə əlimiz çatmadı, Babam. Sən kimi istədin dostlardan, doğmalardan? İstəsəydin də dilinə gətirə bilməzdin, Babam. Bilirəm, ilk öncə könlündən Vətən qədər sevdiklərin Zəlimxan, Əli Şamil, sənsiz yaşaya bilmərəm deyən Süleymən, Nəriman, Hacan, Emişin və çoxları keçdi.

Zamanın üzü qara olsun, səni son mənzilə yola salmağa gələ bilmirik, Babam.

Səni burda ağlayıram pünhan-pünhan.

Mikayıl Müşviq demiş-

Nədir məhkum olub səssiz ağlamaq.

Səni səssiz ağlayıram. Göz yaşım qəlbimə axır, qəlbimi yandırır, hərdən də yanaqlarıma süzülür...dayanmır.

Xəstə olduğunu bilirdim. Ancaq ölüm xəbərini eşitmək istəmirdim.

Dünən Qoşqarın zəngini eşitməmişəm. Birdən baxdım ki, Savalan yazıb: Dərviş Osman haqqın dərgahına qovuşdu. Dünyam qaraldı, Babam. Dünyanın rəngi qaçdı, Babam.

Səni tanıdığıma görə Allahımdan razıyam, Babam. Axırıncı dəfə xeyli söhbət etdik. Sonuncu işıq üzü görən kitabı çatdır, dedin. Və əl eylədin. Kitabı nə yaxşı çatdırdım, Babam.

Allah sənə rəhmət eləsin. Arzuladığın şərəfli ömür nəsibin oldu. Borçalıda doğuldun, orda böyüdün, bir ömür orda yaşadın, orda da dünyayla vidalaşdın. Bu gün torpağa tapşırılacan, Babam. Qoy torpaq sevinsin ki, qoynuna Dərviş Osmanı gəlir.

Torpağın yumşaq, yerin cənnət olsun.

Sənnən ayrılmaq çətindir.

Səni unutmayacağam...

**Güllü Eldar Tomarlı**
*19 mart 2020-ci il*

# Dərviş Osman Əhmədoğlunun övladlarına vəsiyyəti:

Mənim haqqı-salamım olan dostlarla heç vaxt əlaqəni kəsməyin. Onlarla haqqı-salamı davam etdirin, mən varmış kimi.

***17 mart 2020-ci il***

## SON SÖZ

***Kim tanımaz, kimdi yaxını, yadı,***
***Onlar insanlığın ağzının dadı.***
***Eheheheeeey!!! Mənəm, sənsən, odu,***
***Saf toxum əkdilər qarapapaqlar.***
***Türk oğlu türkdülər qarapapaqlar.***

Dərviş Osman dünyasına aid olan ürək döyüntülü şeirlərində, duyğu, həsrət, nisgil...ucsuz-bucaqsız vətəndaşlıq ruhu hər kəsi düşündürür, coşdurur, misralarına heyran qalırsan...

Bu üzdən Dərviş Osmanın yaradıcılığından söz açmaq, danışmaq istərkən ilk öncə onun idrak və ictimai düşüncəsi önə çıxır. Dünyaya Borçalının Keşəli kəndində göz açan Dərviş Osman Əhmədoğlu bəşəriyyətə və Türk dünyası üçün doğulmuşdu.

Şairin ədəbi dünyası olduqca geniş və zəngindir. Bu zənginliyin əsasında Dərviş Osman poeziyasının ruhu saza və sözə köklənir, sərhəd tanımır, saf və təmiz ürəklərə yol alır. Özü isə Savalan kimi uca, Səhənd kimi vüqarlıdı.

Özü demişkən:

***Hey çəkdi özünə, çəkdi qan məni,***
***Tuşladı hədəfə düz nişan məni.***
***Çağırdı qoynuna Savalan məni,***
***Ağ qardan başında şal indi Təbriz.***

Şairin şeirləri dilimizin zənginliyindən, yüksək vətənpərvərliyindən xəbər verir. Bu kitabda Dərviş Osmanın işıq üzü görməyən müxəmməsləri, "Ağacan" poeması, qoşmaları, gəraylıları yer alır. Kitabdan nümunələrə nəzər salaq.

Müxəmməs:

***Qalu bəladan gələnik,***
***Hər bir şeyin öz vədəsi.***
***Yaradanın öz hökmüdü,***
***Hər gələn bir gün gedəsi.***
***Öz haqqına varan kəslər,***
***Çəkə bilməz ayrı bəsi.***
***Hərəyə bir pay verilib,***
***Hərə haqqın bir bəndəsi.***
***Səni bir ərmağan bildi.***
***Dədə Qorqudun Dədəsi,***
***Boy boyladı, soy soyladı,***
***Oyatdı cahanı sazım.***

Şair "Ağacan" poemasında deyir:

***Şair Ağacanın ömür yolunu,***
***Gündüzlər axtardım, gecədən sordum.***
***Gəzdim bu aləmin sağı-solunu,***
***Cavannan öyrəndim, qocadan sordum.***

Qoşma:

***Dünyaya gəlişi bir paymış deyin,***
***Yaşadığı ömür xataymış deyin.***
***Bu Osman ölüyə bir taymış deyin,***
***Bəlkə xatırlandım belə-belə mən.***

Gəraylı:

***Kərəm mənəm, Əsli sənsən,***
***Bülbüldən xoş səslim sənsən.***
***Köküm sənsən, əslim sənsən,***
***Sənsiz dünyam xar, ay sazım.***

Hər dəfə Borçalıya gedəndə şair Dərviş Osmanla görüşürdük və hər dəfə də yeni şeirlərini soruşurdum. Maraqlıdı, şeirlərini özü oxumazdı, mənə oxudardı, özü də çox heyranlıqla dinləyərdi. Bir dəfə dedi ki, Dədə Qorquddan üzü bəri gələn nə qədər ustad aşıqlar var, saz havaları var hamısına "Sazım" rədifli müxəmməs yazmışam. Oxumaq istədiyimi dedim, saralmış bir dəftər gətirdi (yəqin neçə illərdi məqamı gəldikcə yazırmış). Hardasa, 97 müxəmməsiydi, söylədi ki, hələ tamamlamamışam, yenə

yazacaqlarım var. Mən çox böyük həvəslə şeirləri oxudum. Həyat yoldaşı Güldərən xanımla diqqətlə dinlədilər. Doğrusu, çox duyğulandım. Şair, necə ola bilər belə sanballı müxəmməslər saralmış varaqlarda qalsın? Çap etdirmək lazımdır, dedim.

Qismət, dedi.

Qismət belə gətirdi ki, ağır xəstəlikdən dünyasını dəyişdi şair Dərviş Osman. Onun itgisi hamı üçün ağır oldu. Aşıq Alı demiş: Ölüm haqdır, çıxmaq olmaz əmirdən. Ölümündən sonrayaymış yəqin bu şeirlərin qisməti. Onu da deyim ki, mənə şairin əlyazması təqdim olanda müxəmməsin sayı artıq 110-a çatmışdı. Bəlkə də yenə də yazacaqları varmış. Kim bilir? Müxəmməsin sonuncusu özünə aiddi:

***Ulu Tanrı qüdrətinnən,***
***Bir belə fərman elədi.***
***Sazı bizə buta verdi,***
***Dərddərə dərman elədi.***
***Oxu dəydi düz sinəmnən,***
***Bağrımı şan-şan elədi.***

***Bu qurğunu özü qurdu***
***Ömrümü dastan elədi***
***Qaynadım bir bulaq kimi,***
***Sinəmi ümman elədi***
***Axırda ozan elədi***
***Bu Dərviş Osman sazım***

Aşıq sənətinin inkişafı, milli- mənəvi dəyərlərimizin qorunub saxlanması, müqəddəs saz sənətinin düzgün təbliği yolunda bu kitab bir məktəb olacaq, aşıqlar üçün yol göstəricisi olacaq.

"Mən Borçalıda qaldım" kitabı Ulu Tanrının dərgahında şair Dərviş Osman Əhmədoğlunun əziz xatirəsinə bir töhvə olsun.

Mən Dərviş Osman Əhmədoğlunun poeziyası ilə tanış olduqca onda olan sonsuz vətən sevgisinə heyran qaldım. O, çağdaş ədəbiyyatımızın o taylı-bu taylı demədən bariz nümunəsidir. Onun ən böyük xidmətlərindən biri Borçalı-Türk ədəbi birliyini böyük Turan ədəbi dünyasına daxil etməsidir.

Dərviş Osman yaşadığı kimi yazdı, yazdığı kimi yaşadı.

Mənimçün böyük xoşbəxtlikdir ki, çətinliklərə baxmayaraq bu kitabı böyük Azərbaycan şeir sənət dünyasına təqdim etmək səadəti mənə nəsib oldu.

Yolu davamlı olsun.

**Güllü Eldar Tomarlı,**
***Mirvarid Dilbazi Məclisinin sədri***





**Dərviş Osmanın gənclik illəri**



**Dərviş Osman və ustad Aşıq Əmrah Gülməmmədov**



**Dərviş Osman və Aşıq Aydın Çobanoğlu**



**Şair Əli Faxralı və Dərviş Osman**



**Xalq şairi Hüseyn Arif, Aşıq Aydın Çobanoğlu, Dərviş Osman – Borçalıda bir tədbirdə**



**Ayaqüstə: Soldan İbad, Azaflı Mikayıl, Aşıq İslam Ərdənər, Camal İsayev, Qənbər Yusibov, Cəlal İsayev Oturanlar: Soldan Ənvər Yusifov, Eyyub Osmanov, Cabbar Allahverdiyev, Dərviş Osman – Keşəli kəndi**



**Hüseyn Saraclı və Dərviş Osman**



**Hüseyn Saraclının dəfn mərasimi**




**Dərviş Osman ziyalılarla bir arada**



**Dərviş Osman,  Elxan Məmmədli,**
**Aşıq Cəmil və Aşıq Gülabı**



**Məhəmməd Sadaxlının dəfn mərasimi**



**Elxan Məmmədli, Məhərrəm Qasımlı, Dərviş Osman və aşıqlar**



**Zəlimxan Məmmədli, Aşıq Astan Kosalı,
Dərviş Osman, Elimxan Məmmədli, ElxanMəmmədli**



**Aşıq Ədalət Nəsibov və Dərviş Osman**



**Hüseyn Saraclının büstü önündə: Murad Kövrək və Dərviş Osman ustadın 100–illik yubileyində**



**Dərviş Osman Hüseyn Saraclının qəbri önündə**




**Dərviş Osman, Hacan Hacısoy, İbrahim İlyaslı,
Sərvaz Hüsynoğlu, Güllü Eldar Tomarlı,
Xalq şairi Nəriman Həsənzadə**



**Elbəyi Cəlaloğlu, Dərviş Osman, Əflatun
Kamandaroğlu, Xalq şairi Zəlimxan Yaqub**



**Dərviş Osman və Hamlet İsaxanlı**



**Dərviş Osman saz-söz adamları ilə**



**Dərviş Osman Türkiyədə**



**Zəlimxan Məmmədli, Dərviş Osman və Məhərrəm Yıldız**



**Dərviş Osman və dostları şair Mədət Coşqunun ocağında**



**Yıldıray Aydemir və Dərviş Osman**



**Dərviş Osman**



**Səadət Buta və Dərviş Osman**




**Dərviş Osman**




**Dərviş Osman Kosovoda**



**Dərviş Osman, Xalq şairi Nəriman Həsənzadə,**
**Xalq şairi Musa Yaqub, Güllü Eldar Tomarlı**



**Dərviş Osman və Xalq şairi Nəriman Həsənzadə**




**Zəlimxan Məmmədli, Rüfət Muradlı, Dərviş Osman**



**Hüseyn Artikoğlu, Ozan Arif və Dərviş Osman**



**Dərviş Osman Əhmədoğlu, həyat yoldaşı Güldərən xanım, qızı Tamam və oğlanları Alpay, Savalan, Qoşqar**



**Dərviş Osman və nəvələri**



**Dərviş Osman və Aşıq Kamandar Əfəndiyev**



**Mülkədar Nadir, Aşıq Əhməd Sadaxlı, Dərviş Osman**



**Dərviş Osman Əhmədoğlu və saz-söz adamları**



**Aşıq Aslan Kosalı və Dərviş Osman**



**Aşıq Bilal və Dərviş Osman**



ОГОНЁК

ЕЖЕНЕДЕЛЬНЫЙ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЙ И ЛИТЕРАТУРНО-ХУДОЖЕСТВЕННЫЙ ЖУРНАЛ

ИЗДАТЕЛЬСТВО «ПРАВДА» Москва, А-15, Бумажный пр., 14. Тел. 212-23-27.

"18" февраля 1983 г.

Уважаемый товарищ Осман Ахмедоглы!

Редакция журнала "Огонек" приносит читателям свои извинения за то, что в статье "Скульптор Акоп Гюрджян" по вине автора А.Арзуманяна и редакции допущена ошибка.

Этот случай был рассмотрен на заседании редколлегии, и сотрудники, ответственные за допущенную ошибку, наказаны.

В № 3 "Огонька" за 1983 год последняя обложка и материал "Родники горного края" посвящены Нагорному Карабахк, жемчужине Азербайджана.

Лит.редактор отдела оформления

О.Немировская

**Hələ 1983-cü ildə sovet hökumətinin ən məşhur jurnalı "Oqonyok" jurnalında Qarabağ Ermənistanın torpağı kimi göstərilibmiş. Dərviş Osman buna etirazını bildirib, Moskvaya teleqram vurur ki, siz səhvsiniz. Qarabağ Azərbaycana məxsusdur. Və buna cavab olaraq Moskvadan bu məktubu göndərirlər və Dərviş Osmandan üzr istəyirlər.**




**Sarıkamış anım günündə nəvələri Dərviş Osmanın məzarını ziyarət edərkən**

# İÇİNDƏKİLƏR

*ÖN SÖZ* ........................................................................ 3

*ÖZÜ GETDİ, SÖZÜ VƏ NƏĞMƏLƏRİ YADİGAR QALDI* ........................................................................ 6
Sazım *(müxəmməs – poema)* ............................................... 9
Şair Ağacan *(poema)* ......................................................... 67

*ŞEİRLƏR* ........................................................................ 88

Aşıq Göycə yadıma düşüb.................................................. 88
Türk oğlu türkdülər qarapapaqlar....................................... 92
Nobat tutmalıyam Sarıkamışda .......................................... 95
Çəkərəm .............................................................................. 96
Gördüyüm yuxu.................................................................. 97
Mərhəba.............................................................................. 98
Emin ağa Borçalıya ............................................................ 99
Oldum ............................................................................... 100
Üzü dağlara ...................................................................... 102
Duydum............................................................................. 105
Nə gözəl............................................................................. 106
Təbriz ................................................................................ 107
Rustaveli– Nizami ............................................................ 108
Bakıdan Tiflisə gələn qatara.............................................. 109
Qalıbdı.............................................................................. 111
Sənnən ayrı....................................................................... 112
Var.................................................................................... 113
A dağlar ............................................................................ 115
Bir dastana yazılan şeir..................................................... 116
Boluda ............................................................................... 117
Gəldim............................................................................... 118

Mərhaba ........ 119
Kiçik bir giley ........ 120
Salam olsun ........ 121
Gələrəm ........ 123
Olardımı heç ........ 124
İsmarıc ........ 126
Ayrıdı ........ 127
Mən ........ 128
Adsız şeir ........ 129
Varmış ........ 131
Sevgi ........ 133
Bəstəkar qardaşıma məktub ........ 135
Görmüşəm ........ 137
Haqq nurusan ........ 139
Dünya, qulağını bəri tut görüm ........ 140
Bu dünyada ən çox istədiyim adama ........ 142
Müxəmməs ........ 144
Sizə ........ 146
Rəsuloğlu ........ 147
İlk kitabım ........ 149
Sazım ........ 152
Bu həsrət ........ 153
Sən də qalma... ........ 155
Ona ........ 157
Lalələr ........ 158
Azaflı ........ 160
Yadıma anamın laylası düşüb ........ 161

*DƏRVİŞ OSMAN ƏHMƏDOĞLU ŞAİRLƏRİN SÖZÜNDƏ…* ........ 162

"Seyid Nigari Türbəsi" kitabından ........ 162
Dərvişim ........ 164

Dərviş Osman ............................................................... 166
Osman olub ................................................................... 168
Dərvişim ....................................................................... 169
Dədə yolu ...................................................................... 170
Mayqa Mətin ............**Ошибка! Закладка не определена.**
Dünyanınhalaladamı........................................................ 175
Ay Dərviş Osman ........................................................... 177
Şairlərin Osmanını itirdik................................................ 179
Dərviş Osman Əhmədoğluna .......................................... 182
Borçalının şair oğlu Osmana ........................................... 183
Şair dostum Dərviş Osmana ............................................ 184
Gəlir............................................................................... 186
Ay Osman....................................................................... 187
Bizim Osmandı............................................................... 188
Ay Dərviş ....................................................................... 190
Osman Əhmədoğlu.......................................................... 192
Dəmlə balabanı balabançı dost........................................ 193
Osmanların dərvişini itirdik............................................ 195
Şair Dərviş Osmana......................................................... 197

*DƏRVİŞ OSMAN ƏHMƏDOĞLU HAQQINDA DÜŞÜNCƏLƏR*.......................................................... 200
Bütün türk dünyasından boyu görünən – Dərviş Osman Əhmədoğlu .................................................................. 226
Dərviş Osman Əhmədoğlunun xatirəsinə həsr olunur…. 236
Dərviş Osman Əhmədoğlunun övladlarına vəsiyyəti...... 239

**SON SÖZ**........................................................................ 240

**Dərviş Osman Əhmədoğlu**

**“Mən Borçalıda qaldım”**

Bakı, “Ləman nəşriyyat poliqrafiya MMC”,
Bakı – 2021, 272 səh.

Nəşriyyatın direktoru: Xanlar Həsənli
Nəşriyyatın redaktoru: Alparslan Öztürk
Texniki redaktor: İlqar Təmoyev

Yığılmağa verilmişdir: 05.01.2021
Çapa imzalanmışdır: 15.02.2021
Format: 60x84 1/16
Ş.ç.v. 17

---

Sayı 500 nüsxə
“Ləman Nəşriyyat Poliqrafiya” MMC-də
çap edilmişdir